RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 21 (9476) 1 FEVRAL 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Böyük qayıdışın yeni mərhələsi



## 2024-cü ilin təkcə ilk ayı ərzində yüzlərlə keçmiş məcburi köçkün əzəli yurduna qovuşub

**Bu ilin ilk ayında Qarabağ və Şərqi Zəngəzura düz 6 dəfə köç həyata keçirilib, 170 ailə (649 nəfər) keçmiş məcburi köçkün əzəli yurduna qovuşub. Belə ki, yanvarın 18-dən etibarən müxtəlif tarixlərdə beş köç karvanı Füzuli, biri isə Laçın şəhərinə yola salınıb, sevinclə yurdlarına dönən ailələrə yeni evlərinin açarları təqdim olunub. Bütün bunlar isə göstərir ki, 2024-cü il Böyük qayıdışın yeni və mühüm mərhələsi olacaq.**

### Doğma obada yeni həyat

Qazandığımız tarixi qələbələr Qarabağ və Şərqi Zəngəzura da yeni həyat bəxş edib, onilliklər boyu torpaq həsrəti ilə yaşayan insanlarımızın yurd həsrətini dindirib.

Vətən müharibəsindən sonra Azərbaycan dövlətinin işğaldan azad edilən torpaqlarda həyata keçirdiyi mühüm quruculuq işləri qısa müddətdə bu yerlərə qayıdışı da gerçəkləşdirmək üçün mühüm zəmin yaradıb.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əksini tapan "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" qəbul edilib. Qarabağ və Şərqi Zəngəzurda quruculuğa start verilməsindən ötən üç il müddətində dövlət büdcəmizin əsas prioritetlərindən biri də milli hədəfimiz olan Böyük qayıdışa nail olunması istiqamətindədir.

10 min kvadratkilometr ərazidə aparılan böyük tikinti-quruculuq işlərinin sayəsində Qarabağ və Şərqi Zəngəzur başdan yaradılır, çoxsaylı yaşayış məntəqəsi yenidən qurulur. Bu yerlərdə böyük infrastruktur layihələri həyata keçirilir, avtomobil və dəmir yolları, uzunluğu kilometrlərlə ölçülən nəhəng tunellər çəkilir, su anbarları, məktəblər, xəstəxanalar, beynəlxalq hava limanları tikilib istifadəyə verilir. Həmçinin bu ərazilərdə nəinki Azərbaycanda, Cənubi Qafqazda ilk dəfə olaraq "ağıllı kənd və şəhərlər" salınır.

Çox qısa zamanda Qarabağ və Şərqi Zəngəzurda iki beynəlxalq hava limanı - Füzuli və Zəngilan Hava limanları tikilərək istifadəyə verilib ki, bu da bölgənin hərtərəfli inkişafına mühüm töhfədir. Daha bir beynəlxalq hava limanının isə Laçında tikintisi sürətlə həyata keçirilir.

Erməni vəhşilərinin illərlə dağıtdığı tarixi, dini, mədəni abidələrimiz isə Heydər Əliyev Fondu tərəfindən bərpa olunur.

→ 3

# Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə dövlət komissiyalarının altıncı görüşü keçirilib

Yanvarın 31-də Azərbaycan ilə Ermənistan arasında sərhəddə iki ölkənin Baş nazirlərinin müavinləri Şahin Mustafayev və Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və dövlət sərhədinin delimitasiyası, sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın altıncı görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb.

# *MSK sədri:* "İndiyədək təqribən 85 min yerli, 780-ə yaxın beynəlxalq müşahidəçi akkreditasiyadan keçib"



İndiyədək təqribən 85 min yerli müşahidəçi, 780-ə yaxın beynəlxalq müşahidəçi akkreditasiyadan keçib. Həmçinin "Associated Press", "BBC", "Al Jazeera", "Kyodo", "Nikkei", "ZDF", "DPA", "VPRO", "La Repubblica", "Trouw" ilə yanaşı, Türkiyə və Rusiyanın, eləcə də Yaponiya, İngiltərə, Almaniya, İtaliya və Niderlandın ümumilikdə 34 nüfuzlu media qurumlarından olan 80-dən artıq təmsilçisi seçkilərin işıqlandırılmasına qatılıb. Bu say günbəgün artmaqda davam edir.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov söyləyib.

O qeyd edib ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) 260-dan çox nümayəndəsi ikili qruplar şəklində səsvermə günü müşahidələr aparacaqlar: "Yanvar ayından onların uzunmüddətli müşahidəçiləri Azərbaycandadır. Həmin şəxslər, demək olar ki, bütün məntəqə və dairələrdə olub, görüşlər keçiriblər. Bundan əlavə, ATƏT Parlament Assambleyasının nümayəndələri və MDB-nin müşahidə missiyası da səsverməni izləyəcəklər".

# Dost həm də şad gündə tanınır

## Türkiyə, Pakistan, İsrail, Macarıstan - bunlar Qarabağın dirçəlişində Azərbaycanın yanında olan ölkələrin tam siyahısı deyil

Azərbaycanda zəfərdən dərhal sonra bir sıra dost ölkələr - Türkiyə, Pakistan, İsrail, Macarıstan, İran, İtaliya, Böyük Britaniya və s. işğaldan azad olunmuş ərazilərimizin bərpası prosesində iştirak etmək arzusunda olduqlarını bildirdilər və çox keçmədi ki, fəaliyyətə başladılar. Bu həm də o demək idi ki, dövlətlərimiz arasındakı siyasi-iqtisadi əlaqələr, dostluq, qardaşlıq münasibətləri möhkəmdir. Bu yerdə qeyd edək ki, həmin ölkələrin şirkətləri regionda podratçı kimi iştirak edirlər, bərpa işləri Azərbaycanın öz vəsaiti hesabına maliyyələşdirilir. Yəni Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri, tikinti layihələri xarici şirkətlərlə Azərbaycan arasında bağlanmış müqavilələr əsasında yerinə yetirilir.

→ 6

# Hayastanda hakimiyyətin korrupsiya əməlləri daha da böyüyür

Hayastanda korrupsiya erməni xalqının həyatını məhv etməkdədir. İndi ölkədə elə bir yüksəkçinli məmur yoxdur ki, şəxsi biznesi olmasın, yaxud da vəzifədə olarkən digər yollarla böyük sərvət toplamasın.

Son illər ərzində milli sərvətlərin yarıdan çoxu mütəmadi və sistematik şəkildə oğurlanmaqdadır. Beynəlxalq təşkilatların məğlub ölkədə korrupsiya faktları ilə bağlı hesabatında bildirilir ki, bu ölkədə korrupsiya halları ötən 6 ildə azalmayıb, əksinə, artıb. Bu xoşagəlməz halla bağlı mübarizə tədbirləri hələ də kağız üzərindən əməli işə keçməyib.

→ 12

# Azərbaycanın uğurları AŞPA-dakı bir sıra deputatların yuxusuna haram qatıb

Azərbaycana təzyiq göstərmək məqsədilə hazırlanan layihənin müəllifi Frank Şvabe etnik almandır, lakin məşuqəsi ermənidir. Onun məşuqəsi ilə erməni milli geyimində olan fotoları sosial şəbəkələri bəzəyir. Azərbaycan əleyhinə sənədin lehinə səs verən digər şəxsin, Frank Engelin də həyat yoldaşı ermənidir. Digərləri də bu və ya başqa şəkildə erməni lobbisi ilə bağlıdırlar. AŞPA o qədər rəzil hala düşüb ki, Avropa qitəsinin strateji maraqlarına deyil, erməni maraqlarına xidmət edən qərarlar qəbul edir. Bu, dözülməz haldır və bu təşkilatın nə qədər eroziyaya uğradığının ifadəsidir.

Belə təşkilatlar arasında ən böyüyü olan BMT və onun Təhlükəsizlik Şurası bu gün çox ciddi islahatlara möhtacdır. Bu təşkilatın nüfuzu xeyli aşağı düşübsə, statusca daha zəif olan nüfuzsuz AŞPA-dan nə gözləmək olar? Dünyada ikili standartlar baş alıb gedir, beynəlxalq təşkilatlar sifarişlə işləyirlər.

→ 4

# Kimlərinsə diktəsi ilə AŞPA-da mövqeyini göstərənlər etibarlarını itirirlər

## Azərbaycan hər zaman dost ölkələrin ərazi bütövlüyünə yanaşmada prinsipial mövqe tutub

ABŞ prezidenti Co Bayden 2023-cü ilin əvvəlində Ukraynaya "nə qədər ehtiyac duyulursa, bir o qədər yardım" ediləcəyini desə də, ilin sonunda həmən fikirlər "nə qədər mümkündür, bir o qədər"lə əvəzləndi: "Son zamanlar isə görürük ki, "bir o qədərin" verilməsi də sual altındadır. Bundan nəticə çıxarılmadımı? Ukrayna, Gürcüstan və Moldova son bir neçə ildə baş verənlərdən sonra elə düşünürlər ki, sabah Rusiya Çinə qarşı ABŞ-nin maraqlarına uyğun siyasət yeritməyə razılıq versə, Qərbdəkilər onların ərazi bütövlüyünə yanaşmada bu gün sərgilədikləri mövqelərini dəyişməyəcəklər? Maraqlıdır, görəsən, Ukrayna təmsilçiləri AŞPA-da Azərbaycana qarşı qısqırdılanlara pərdə arxasında bir başqası olsa da, üzdə başçılıq edən Frank Şvabenin 2014-cü ildə Krımın işğalı ilə bağlı səsvermə zamanı niyə Rusiyanın maraqlarına uyğun davrandığının üzərində düşünübmü? Xatırladım ki, o, Krımın işğalına görə Rusiya təmsilçilərinin AŞPA-da səsvermə haqlarının əllərindən alınmasına qarşı çıxanlardan biri idi".

→ 4

# AŞPA kimlərinsə siyasi oyunbazlıq meydanına çevrilib

Başda Fransa olmaqla bəzi Qərb dövlətləri regionda sabitliyin olmasını heç də sözdə dedikləri kimi arzu etmirlər. Hətta bacarsalar, bütün imkanlarından istifadə edib yenidən müharibə ocağını alovlandırarlar. Regionda sülhə, sabitliyə təhlükə olan Ermənistanın hərb maşını Azərbaycan Ordusu tərəfindən darmadağın edildiyi üçün keçmiş münaqişədən öz məqsədləri üçün istifadə edən Fransa kimi dövlətlər bu imkanlarından məhrum olublar. Ermənistanın müharibə etmək gücündə olmadığı üçün bu dövlətlər indi də himayələrində olan beynəlxalq təşkilatlar vasitəsi ilə ölkəmizə qarşı avantüralarını genişləndiriblər. Bu həmişə belə olub. Bəzi böyük dövlətlər himayələrində olan beynəlxalq təşkilatlar vasitəsilə bu və ya digər ölkələrə təzyiq göstərərək onları nəzarətlərində saxlamağa çalışırlar. Fransanın da həmsədr olduğu, uzun illər Qarabağ probleminin həllində vasitəçilik edən ATƏT-in Minsk qrupunun nümayəndələri bizi inandırmağa çalışırdılar ki, problemin hərbi həlli yoxdur. Elə əsl həngamə də ölkəmizin problemi hərbi yolla həll etməsindən sonra başladı.

→ 4

# İspaniya Kataloniya separatçılarına amnistiya vermədi

İspaniya parlamentinin aşağı palatası olan Deputatlar Konqresi yanvarın 30-da 2017-ci ilin oktyabrında Kataloniyanın müstəqilliyini elan etmək cəhdində əli olanların amnistiyaya cəlb olunmasını nəzərdə tutan qanun layihəsini rədd edib. Sənədin qəbulunun lehinə 171 deputat, əleyhinə isə 179 parlamentari səs verib. Qanun layihəsinin təşəbbüskarı hakim İspaniya Sosialist İşçi Partiyası (İSİP) olub.

→ 12




# Fransa ermənipərəst mövqeyini həyasızcasına nümayiş etdirir

Fransanın ermənipərəst mövqeyini açıq şəkildə ortaya qoyduğu birinci hal deyil. Vətən müharibəsinin ilk günlərində Fransa prezidentinin "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə verməyəcəyik", - deyə beynəlxalq hüquqa zidd olan bəyanat verməsini yaxşı xatırlayırıq.

Bu gün AŞPA-nın heç bir məntiqə sığmayan qərarının Azərbaycanın qələbəsindən keçirdiyi narahatlıq hissindən irəli gəldiyini vurğulayan K.Bayramov bildirib ki, ölkəmiz 30 il dünyadan ədalət gözləsə də, bunu görmədi, ədalət və beynəlxalq hüquq prinsipləri maraqların arxasında əridi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu, erməni silahlı birləşmələrinin bu ərazilərdən qeyd-şərtsiz çıxarılması öz əksini tapsa da, dünya gücləri Ermənistanın bu qətnamələrə məhəl qoymamasını görməzdən gələrək münaqişənin həlli prosesinin 30 il uzanmasına səbəb oldular. Azərbaycan 44 günlük İkinci Qarabağ müharibəsində bu qətnamələri təkbaşına icra etdi. Təbii ki, bu gün bəzi beynəlxalq təşkilatların, dövlətlərin ölkəmizə qarşı qarayaxma kampaniyalarını aparmasına səbəb onların 30 ildə edə bilmədiklərini Azərbaycanın təkbaşına etməsidir.

→ 4

# Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin və "Azərsığorta" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1751 nömrəli Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkəti ləğv edilsin.

2. "Azərsığorta" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1751 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 740 (Cild I) ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan İnvestisiya Holdinqi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2024-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 61 **QƏRAR** Bakı şəhəri, 31 yanvar 2024-cü il

## Nəqliyyat vasitələrinin utilizasiya haqqının məbləğinin, utilizasiyaya verilən nəqliyyat vasitəsi üçün tətbiq edilən güzəştin məbləğinin və birdəfəlik ödənişin həcminin təsdiq edilməsi haqqında

"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun tətbiqi və "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 iyul tarixli 2253 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin 1-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Nəqliyyat vasitələrinin utilizasiya haqqının məbləği" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Utilizasiyaya verilən nəqliyyat vasitəsi üçün tətbiq edilən güzəştin məbləği və birdəfəlik ödənişin həcmi" təsdiq edilsin (2 nömrəli əlavə).

3. Bu Qərara 1 nömrəli əlavənin 2-ci hissəsində müəyyən edilən utilizasiya haqları traktorlar, həmçinin meşə və kənd təsərrüfatında istifadə edilən, siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 14 avqust tarixli 187 nömrəli Qərarı ilə müəyyən edilən mexaniki nəqliyyat vasitələri üçün 2024-cü il fevralın 1-dən 2 (iki) il müddətinə 50 (əlli) faiz həcmdə tətbiq edilir.

4. Bu Qərarın 1-ci və 3-cü hissələri 2024-cü il fevralın 1-dən, 2-ci hissəsi 2024-cü il sentyabrın 1-dən qüvvəyə minir.

5. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 yanvar tarixli 61 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*
*1 nömrəli əlavə*

### Nəqliyyat vasitələrinin utilizasiya haqqının məbləği

| Sıra №-si | Kateqoriya | Tutulma vaxtı | İstehsal-buraxılış ili | Utilizasiya haqqının məbləği (manatla) |
|---|---|---|---|---|
| 1. | Minik avtomobilləri (raritet minik avtomobilləri və gömrük ərazisinə müvəqqəti gətirilən minik avtomobilləri istisna olmaqla) | Gömrük rəsmiləşdirilməsi zamanı | 4 ildən 7 ilədək olduqda | 400 |
| | | | 7 il və daha çox olduqda | 700 |
| 2. | "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununun 27-ci maddəsinin II və III hissələrində nəzərdə tutulan nəqliyyat vasitələri | Hər dövlət texniki baxışı zamanı | 4 ildən 10 ilədək olduqda | 10 |
| | | | 10 ildən 20 ilədək olduqda | 20 |
| | | | 20 ildən 30 ilədək olduqda | 30 |
| | | | 30 il və daha çox olduqda | 40 |

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 yanvar tarixli 61 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*
*2 nömrəli əlavə*

### Utilizasiyaya verilən nəqliyyat vasitəsi üçün tətbiq edilən güzəştin məbləği və birdəfəlik ödənişin həcmi

1. Utilizasiyaya verilən nəqliyyat vasitəsinə görə tətbiq edilən güzəştin məbləği aşağıdakı kimi müəyyən edilir:

| Sıra №-sı | Nəqliyyat vasitələri | Təsnifat | Güzəşt məbləği (manatla) |
|---|---|---|---|
| 1.1. | Kvadrisikl və təkərləri dörddən az olanlar | L | 200 |
| 1.2. | Oturacaq yerlərinin sayı sürücü oturacağından əlavə, 8-dən artıq olmayan və sərnişindaşımada istifadə olunanlar | M1, M1G | 1500 |
| 1.3. | İcazə verilən maksimum kütləsi 3,5 tonu aşmayan və yükdaşımada istifadə olunanlar | N1, N1G | 1500 |
| 1.4. | Oturacaq yerlərinin sayı sürücü oturacağından əlavə, 8-dən artıq olan, lakin icazə verilən maksimum kütləsi 5 tonu aşmayan və sərnişindaşımada istifadə olunanlar | M2, M2G | 2000 |
| 1.5. | İcazə verilən maksimum kütləsi 3,5 tondan yuxarı, lakin 12 tondan aşağı olan və yükdaşımada istifadə olunanlar | N2, N2G | 2000 |
| 1.6. | Oturacaq yerlərinin sayı sürücü oturacağından əlavə, 8-dən artıq olan, icazə verilən maksimum kütləsi 5 tonu aşan və sərnişindaşımada istifadə olunanlar | M3, M3G | 3000 |
| 1.7. | İcazə verilən maksimum kütləsi 12 tonu aşan və yükdaşımada istifadə olunanlar | N3, N3G | 3000 |
| 1.8. | Təkərli və tırtıllı traktorlar | T, TK, TT | 2000 |
| 1.9. | Mexaniki və ya hidrostatik transmissiyalı özügedən maşınlar, o cümlədən yükləyicilər | H, HT | 3000 |
| 1.10. | Meliorasiya və yol-tikinti maşınları, o cümlədən ekskavatorlar | HK | 3000 |

2. Utilizasiyaya verilən nəqliyyat vasitəsi üçün birdəfəlik ödənişin məbləği bu Əlavənin 1-ci hissəsində göstərilən müvafiq güzəşt məbləğinin 70 (yetmiş) faizi həcmində müəyyən edilir.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 58 **QƏRAR** Bakı şəhəri, 31 yanvar 2024-cü il

## "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 18 iyun tarixli 174 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 18 iyun tarixli 174 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (IV kitab), maddə 680) 2-ci hissəsində "2024-cü il 1 yanvar" sözləri "2025-ci il 1 yanvar" sözləri ilə əvəz edilsin.

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 62 **QƏRAR** Bakı şəhəri, 31 yanvar 2024-cü il

## "Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə Qaydası"nın təsdiq edilməsi haqqında

"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun tətbiqi və "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 iyul tarixli 2253 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin 2-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

3. Bu Qərar 2024-cü il fevralın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 yanvar tarixli 62 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

### Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 14-3-cü maddəsinin üçüncü hissəsinə uyğun olaraq hazırlanmışdır və "Nəqliyyat vasitələrinin utilizasiyası fondu"nun (bundan sonra - Fond) vəsaitinin formalaşdırılması və istifadəsi ilə bağlı məsələləri tənzimləyir.

1.2. Fond məqsədli büdcə fondu olmaqla dövlət büdcəsinin tərkibində yaradılır və onun vəsaitinin idarə olunması "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa və digər normativ hüquqi aktların tələblərinə uyğun olaraq həyata keçirilir.

1.3. Fondun vəsaitinin idarə olunması Qanunun 14-2-ci maddəsinin birinci hissəsinə uyğun olaraq "Təmiz şəhər" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra - operator) tərəfindən həyata keçirilir.

**2. Fondun vəsaitinin formalaşdırılma mənbələri**

2.1. Fondun vəsaiti Qanunun 14-3-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq aşağıdakı müstəqil mədaxil mənbələri hesabına formalaşır:

2.1.1. utilizasiya haqqı;

2.1.2. kreditlər və qrantlar;

2.1.3. hüquqi və fiziki şəxslərin könüllü ianələri;

2.1.4. beynəlxalq təşkilatların və digər donorların ayırmaları;

2.1.5. qanunla qadağan olunmayan digər mənbələr.

2.2. Bu Qaydanın 2.1.1-ci yarımbəndində qeyd olunan utilizasiya haqlarının Fonda ödənilməsini fəaliyyət istiqamətlərinə uyğun olaraq gömrük orqanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında nümunəvi Əsasnamə"nin 1.1-ci bəndində göstərilən orqanlar təmin edirlər.

**3. Fondun vəsaitinin istifadə qaydası**

3.1. Fondun vəsaiti aşağıdakı istiqamətlər üzrə istifadə edilir:

3.1.1. yeni istehsal olunmuş yerli nəqliyyat vasitələri utilizasiyaya verilmə barədə təsdiqedici sənəd təhvil verilməklə satın alınan zaman tətbiq edilən güzəşt məbləğlərinin nəqliyyat vasitələrinin satıcılarına geri ödənilməsi;

3.1.2. utilizasiyaya verilmiş nəqliyyat vasitələri üçün birdəfəlik ödənişlərin ödənilməsi;

3.1.3. operatorun nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı funksiyalarının icrasının təşkili və təmin edilməsi üçün vəsaitin ödənilməsi.

3.2. Bu Qaydanın 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərində qeyd olunan istiqamət üzrə köçürmələr Qanunun 14-8-ci maddəsi ilə müəyyən edilən sənədlər əsasında və müddətlər nəzərə alınmaqla həyata keçirilir.

3.3. Fonda daxil olan aylıq vəsaitin 3 (üç) faiz həcmində hissəsi bu Qaydanın 3.1.3-cü yarımbəndi ilə müəyyən edilmiş istiqamət üzrə hər növbəti ayın 10-dək operatorun cari hesabına köçürülür.

3.4. Bu Qaydanın 3.3-cü bəndinə uyğun olaraq operatorun cari hesabına köçürülmüş vəsait onun gəlirlərinə aid edilməklə nəqliyyat vasitələrinin utilizasiyası üzrə tədbirlərin stimullaşdırılması və təşviqi, operatorun göstərdiyi xidmətlərin elektronlaşdırılması və qanunla qadağan edilməyən digər istiqamətlərdə istifadə olunur.

3.5. Fond hesabında ilin sonuna qalan vəsait növbəti ilə keçirilərək bu Qaydanın 3.1-ci bəndində qeyd edilən istiqamətlər üzrə istifadə olunur.

**4. Nəzarətin həyata keçirilməsi**

4.1. Fondun vəsaitindən səmərəli istifadə olunmasına Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzarət edir.

4.2. Fondun vəsaitindən istifadə olunması haqqında illik hesabat operator tərəfindən növbəti ilin yanvar ayının 31-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilir.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 53 **QƏRAR** Bakı şəhəri, 29 yanvar 2024-cü il

## "Dəmiryol keçidlərinin istismarı Qaydaları"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol keçidlərinin istismarı Qaydaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# EASST prezidenti: "Azərbaycanla nəqliyyat təhlükəsizliyi sahəsində uğurlu əməkdaşlığımız var"

"Təhlükəsiz və Davamlı Nəqliyyat üçün Şərq Alyansı (EASST) 2009-cu ildən Azərbaycanda və digər ölkələrdə təhlükəsiz, sosial inklüziv və dayanıqlı nəqliyyatı təşviq etmək üçün fəaliyyət göstərən Böyük Britaniya təşkilatıdır. İyirmi ildir ki, mütəmadi olaraq Azərbaycana səfər edirəm və hər dəfə bu ölkəyə gəlişimdə yol nəqliyyatında və təhlükəsizlik məlumatlılığında əhəmiyyətli irəliləyişlərin şahidi oluram".



Bu fikirləri EASST-in prezidenti və baş direktoru Emma MakLennan (Emma MacLennan) İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OCED) mənzil-qərargahında qurumun gender və nəqliyyat üzrə 9-cu İllik Məsləhətləşmə iclasından sonra AZƏRTAC-a müsahibəsində deyib. Bildirib ki, Azərbaycan Milli Avtomobil Klubu (AMAK) kimi yerli tərəfdaşları var və onlar yol nəqliyyatının təhlükəsizliyini artırmaq və təkmilləşdirmək üçün hökumət, yol polisi və yerli ictimaiyyətlə sıx əməkdaşlıq edirlər.

Dekabr ayında Bakıda keçirilən Beynəlxalq Avtomobil Federasiyası (FİA) Baş Assambleyası çərçivəsində hökumət və yerli hakimiyyət orqanlarının maraqlı tərəfləri ilə bu yaxınlarda keçirilmiş yüksəksəviyyəli görüşdə təhlükəsiz yol mühəndisliyi və məktəblərin ətrafında təhlükəsiz sürətin vacibliyi vurğulanıb.

Avropa İttifaqı (Aİ) Şərq Tərəfdaşlığı Nəqliyyat Panelinin üzvü kimi Azərbaycanda yol təhlükəsizliyinin təkmilləşdirilməsi Avropa Komissiyası tərəfindən dəstəklənən yeni observatoriyanın mövzusu olacaq.

"Düşünürəm ki, Azərbaycan bu yeni observatoriya - müşahidə məntəqəsi ilə bağlı çoxsaylı təkliflərini irəli sürəcək və böyük töhfələr verəcək. Buraya təhlükəsiz məktəb yolları üçün pilot layihələr, əlçatan və inklüziv nəqliyyat üzrə tədqiqat işləri kimi yaxşı təcrübə nümunələrinin paylaşılması daxildir. Bu yeni observatoriya - müşahidə məntəqəsinin inkişafı ilə bağlı məlumatları da gələcəkdə bölüşəcəyik", - deyə E.MakLennan bildirib.

Qeyd edək ki, EASST-nin prezidenti E.MakLennan dünən Parisdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OCED) mənzil qərargahında qurumun gender və nəqliyyat üzrə 9-cu İllik Məsləhətləşmə iclasında Asiya və Avropa arasında əsas körpü olan Azərbaycanın nəqliyyat sahəsində gördüyü işlərdən, böyük imkanlarından söz açaraq yüksək qiymətləndirib.

# Baş nazir Əli Əsədov Türkiyənin milli təhsil naziri ilə görüşüb



Yanvarın 31-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının milli təhsil naziri Yusuf Tekin ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub.

Təhsil sahəsinin Azərbaycan-Türkiyə əlaqələrinin vacib istiqaməti olduğu vurğulanıb, bu sahədə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

# Türkiyənin milli təhsil naziri Ulu Öndərin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət edib







Türkiyənin milli təhsil naziri Yusuf Tekinin rəhbərlik etdiyi nümayəndə heyəti yanvarın 31-də Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, həmçinin Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə tər çiçəklər düzülüb.

Türkiyənin nümayəndə heyəti Şəhidlər xiyabanında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının da əziz xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər güllər düzüb.

Daha sonra Bakıdakı "Türk şəhidliyi" abidəsi ziyarət olunub, Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçən qəhrəman və fədakar türk əsgərlərinin əziz xatirəsi anılıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın Baş katibi ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova yanvarın 31-də ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu səfərin Baş katibin Azərbaycana ikinci səfəri olduğunu bildirən spiker Sahibə Qafarova beynəlxalq tədbirlər çərçivəsində Parlamentlərarası İttifaqın Baş katibi və prezidenti ilə müxtəlif görüşlərini xatırladıb, tərəflər arasında aktiv dialoqun münasibətləri inkişaf etdirmək niyyətinin göstəricisi olduğunu diqqətə çatdırıb.

Görüşdə Azərbaycanın bu təşkilatla əməkdaşlığa mühüm əhəmiyyət verdiyi qeyd olunaraq bildirilib ki, qısa müddət ərzində Azərbaycan parlamentinin beş üzvünün təşkilatın bir sıra komitələrinin bürolarına və forumlarının idarə heyətinə üzv seçilməsi də bunu sübut edir. Sahibə Qafarova Parlamentlərarası İttifaqın bütün ölkələrin rəylərinin əks olunduğu əsl dialoq platforması olduğunu qeyd edərək, təəssüflə vurğulayıb ki, bəzi beynəlxalq təşkilatlarda bu cür obyektiv münasibət və müsbət əməkdaşlıq mühiti yoxdur. O bu mənada Avropa Şurası Parlament Assambleyasının ikili standartlara söykənən fəaliyyətini tənqid edib.

Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq yenidən ölkəmizdə olmaqdan məmnunluğunu bildirərək, təşkilatla ölkəmiz arasında əməkdaşlığı təqdir edib. O, Baş katib kimi məqsədinin təşkilatda hər bir dövlətin səsinin eşidilməsi olduğunu qeyd edərək, Parlamentlərarası İttifaqın hansısa ölkələrin, qrupların maraqlarını əks etdirən klub olmasını istəmədiyini söyləyib. O, Azərbaycanın təşkilatdakı nümayəndə heyətinə, büro və komitələrdə fəaliyyət göstərən parlamentarilərimizə istənilən dəstəyi göstərməyə hazır olduqlarını da qeyd edib.

Söhbətdə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Parlamentlərarası İttifaq arasında əməkdaşlığı daha da dərinləşdirmək niyyəti ifadə olunub. Milli Məclisin Sədri xatırladıb ki, Azərbaycan Hərəkata sədrliyi dövründə təşkilatın institusional potensialının inkişafı üçün Parlament Şəbəkəsinin, Gənclər Təşkilatının yaradılması kimi bir sıra təşəbbüslər irəli sürüb. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması ölkəmizin parlamentlərarası əməkdaşlığa güclü dəstəyinin və sadiqliyinin təzahürüdür.

Baş katib Martin Çunqonq da deyib ki, Qoşulmama Hərəkatı əvvəllər fəal olmayıb. Lakin Azərbaycanın təşkilata sədrliyi sayəsində Hərəkatın fəallığı və beynəlxalq münasibətlər sistemində mövqeyi güclənib. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ideyasının gerçəkləşməsini çox yüksək qiymətləndirən Baş katib Hərəkatın dünyada vacib rolunu qeyd edib. O, Parlamentlərarası İttifaqın bu Parlament Şəbəkəsinin fəaliyyətinə istənilən dəstəyi göstərməyə hazır olduğunu vurğulayıb.

Görüşdə iqlim dəyişmələri üzrə mümkün əməkdaşlıq imkanları müzakirə olunub. Martin Çunqonq COP29-un 2024-cü ildə ölkəmizdə keçirilməsi ilə bağlı təbriklərini çatdırıb və Azərbaycanın bu tədbirə uğurla evsahibliyi edəcəyinə inamını ifadə edib.

Söhbətdə Milli Məclisin Sədri Sahibə Qafarova Baş katibə Ermənistanın 30 ilə yaxın ərazilərimizin 20 faizini işğal altında saxlaması, beynəlxalq təşkilatların Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamə və qərarlarının yerinə yetirilməməsi, Azərbaycanın 2020-ci ildə bu əraziləri öz gücü hesabına işğaldan azad etməsi və hazırda regionda mövcud olan vəziyyət barədə də məlumat verib. O həmçinin xatırladıb ki, 2023-cü ildə Azərbaycan Ermənistanın hərbi-siyasi təxribatlarına cavab olaraq antiterror tədbirləri həyata keçirib və bu tədbirlər yalnız qeyri-qanuni hərbi birləşmələri və hərbi infrastrukturu hədəfə alıb. Mülki əhaliyə və obyektlərə heç vaxt hücum edilməyib. BMT-nin bölgədəki 3 missiyası mülki əhaliyə, mülki və sosial infrastruktura heç bir zərərin dəymədiyini təsdiq edib.

Spiker vurğulayıb ki, bu işğal nəticəsində bir milyona yaxın soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. O, təəssüflə qeyd edib ki, hələ də bəzi beynəlxalq təşkilatlar, xüsusən də Avropa Şurasının Parlament Assambleyası işğal dövründə məcburi köçkün düşmüş və Ermənistandan qaçqın olmuş azərbaycanlıların hüquqları barədə danışmaq istəmir.

Milli Məclisin Sədri xatırladıb ki, Ermənistan İkinci Qarabağ müharibəsindən sonra da hərbi-siyasi təxribatlarına, o cümlədən Azərbaycan ərazilərini minalamağa davam edib. Onun sözlərinə görə, Ermənistan bu ərazilərə 1 milyondan çox mina basdırıb. Müharibə başa çatdıqdan sonra mina partlayışları nəticəsində 340-dan çox azərbaycanlı həlak olub və ya ağır yaralanıb. Azərbaycan hələ də Ermənistandan minalanmış ərazilərin dəqiq xəritələrini təqdim etməsini gözləyir.

Sahibə Qafarova xatırladıb ki, Ermənistanın son dövrlərdə ritorikası Azərbaycanın guya sülh sazişini imzalamaq istəməməsi üzərində qurulub. Onun sözlərinə görə, 30 il Azərbaycan torpaqlarını işğal altında saxlamış bir ölkənin bu fikri səsləndirməsi təəccüblüdür. Spiker bir daha vurğulayıb ki, məhz Azərbaycan 44 günlük Vətən müharibəsindən dərhal sonra sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə çıxış edib. Ermənistan isə hələ də sülh müqaviləsinin imzalanması ilə bağlı prosesi uzadır.

Ermənistanın müstəqil ölkə olmadığını deyən Sahibə Qafarovanın sözlərinə görə, bəzi Avropa dövlətləri Cənubi Qafqaz regionunda sülhün təmin olunmasını istəmirlər. Bu ölkələrdən biri də Fransadır. Fransa neokolonializm siyasətini bu regiona da daşımaq istəyir.

Spiker Sahibə Qafarova bir daha vurğulayıb ki, Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünə hörmət edir və regionda uzunmüddətli sülh və sabitliyin bərqərar olunmasını, Ermənistanla tezliklə sülh sazişinin imzalanmasını istəyir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun bəyanatı

ABŞ Senatının Xarici əlaqələr komitəsinin sədri Benjamin Kardinin Azərbaycanda insan haqlarının vəziyyəti ilə bağlı əsassız, qərəzli bəyanatı dərin məyusluq hissi doğurur.

B.Kardinin nəzərinə çatdırırıq ki, ölkəmiz 1991-ci ildə müstəqilliyini əldə edəndən bəri beynəlxalq ictimaiyyətin etibarlı və məsul üzvüdür. Azərbaycanın əksər beynəlxalq platformalarda uğurlu fəaliyyəti məhz beynəlxalq ictimaiyyətin qəti və birmənalı dəstəyinə əsaslanır. Ölkəmizin xüsusilə də Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində faktiki olaraq ölkələrin sayı və təsir imkanlarına görə BMT-dən sonra dünyanın ikinci ən böyük platformasının inkişafına verdiyi töhfələr Hərəkata üzv olan 120 ölkə tərəfindən hörmətlə qarşılanır.

Təsadüfi deyil ki, beynəlxalq dialoq və əməkdaşlığın daha da genişləndirilməsində oynadığı rola, beynəlxalq qaydalara və qarşılıqlı fəaliyyət normalarına hörmətlə yanaşmasına, öz prinsipial mövqeyinə görə ölkəmiz 2024-cü ildə qlobal səviyyədə ən mötəbər tədbirlərdən biri olan COP29-a evsahibliyi etməyə layiq görülmüşdür. Bu qərarı beynəlxalq aləmin bütün üzvləri, o cümlədən ABŞ-nin özü dədəstəkləmişdir. Buna baxmayaraq, COP29 ərəfəsində senator B.Kardinin ölkəmizi şantaj edərək, qərəzli təşkilat və dairələrin yalan, yoxlanılmamış məlumatlarından istifadə etməsi Azərbaycana qarşı olan həmin dairələr, xüsusən də erməni lobbisi tərəfindən təhrik edilmiş əsassız və təxribat xarakterli yanaşmadır.

B.Kardinə tövsiyə edirik ki, Azərbaycan əleyhinə birtərəfli və qərəzli fikirlər səsləndirmək əvəzinə, öz diqqətini ABŞ Senatının Xarici əlaqələr Komitəsində kök salmış korrupsiya, rüşvətxorluq və digər bu kimi qanunsuz əməllərə yönəltsin. Sələfi senator R.Menendesin uzun müddət komitə çərçivəsində rüşvətxor əməlləri, oğurluq faktları, erməni himayədarları ilə şəxsi maraqlar üzərində qurulmuş birgə fəaliyyəti nəzərə alındıqda, bu ağır korrupsiya irsinin araşdırılması senator Kardin üçün daha faydalı olar.

# Böyük qayıdışın yeni mərhələsi

## 2024-cü ilin təkcə ilk ayı ərzində yüzlərlə keçmiş məcburi köçkün əzəli yurduna qovuşub

*Əvvəli 1-ci səh.*

### Uğurlu yol

Dövlətimizin bu istiqamətdə gördüyü işlərin müvəffəqiyyətli nəticəsidir ki, 2022-ci il iyulun 19-da Zəngilanın Ağalı kəndinə sakinlərinin qaytarılması ilə Böyük qayıdışa uğurlu start verilib.

2023-cü ili isə başdan-başa bərpa edilən ərazilərimizə dönüşü şadlıq əhvalı içərisində keçirdik. Ötən ilin martında Tərtərin Talış kəndinin sakinləri yurda qayıdış sevincini yaşadılar. Mayda Laçın şəhərinin sakinləri doğma yurdlarına qovuşdular. Avqustun 18-də Füzuli şəhərinə, 25-də isə Laçın rayonunun yenidən salınan Zabux kəndinə ilk köç karvanı yola salındı. Ötən il ərzində fərqli tarixlərdə sadalanan ərazilərə xeyli qayıdış həyata keçirildi. Minlərlə keçmiş məcburi köçkün illərlə həsrət qaldıqları torpaqlarında yenidən xoşbəxt həyata başladılar.

Xəbər verildiyi kimi, 2024-cü ildə də Qarabağ və Şərqi Zəngəzura intensiv qayıdış həyata keçirilir. Artıq bu il yanvarın 18-də 30 ailə (127 nəfər), 22-də 30 ailə (106 nəfər), 24-də 30 ailə (125 nəfər), 26-da 30 ailə (104 nəfər), 29-da 27 ailə (115 nəfər) Füzuli şəhərinə, 30-da isə 23 ailə (72 nəfər) Laçın şəhərinə köçürülüb. Keçmiş məcburi köçkünlərin bu il qaytarılacaqları şəhərlər arasında Şuşa, Cəbrayıl, Kəlbəcər, Xankəndi, Xocalı da olacaq.

Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə isə keçmiş məcburi köçkünlərin 2025-ci ildə qayıtması nəzərdə tutulur.

### Qayıdış hədəfi

İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 431 ailə (1627 nəfər) Laçın şəhərinə, 527 ailə (1969 nəfər) Füzuli şəhərinə, 203 ailə (783 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb. Ümumilikdə isə 1356 ailə - 5340 nəfər öz doğma yurduna qovuşub. Ümumiyyətlə, Böyük qayıdış proqramına əsasən hədəf 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkünü dədə-baba torpaqlarına qaytarmaqdır.

Qısa zamanda Qarabağ və Şərqi Zəngəzurda Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti-quruculuq işləri, o cümlədən qayıdış proqramının uğurla icra edilməsi onu göstərir ki, qarşıya qoyulan hədəflərə uğurla nail olunacaq və çox keçməz ki, bütün keçmiş məcburi köçkünlər qayıdış karvanları ilə yurdlarına dönərlər.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Vətəndaş qəbulu keçirilib

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev yanvarın 31-də qabaqcadan müəyyən edilmiş qəbul qrafikinə uyğun olaraq Milli Məclisdə şəhid ailələrinin, qazilərin və müxtəlif məsələlərlə əlaqədar müraciət etmiş vətəndaşların növbəti qəbulunu keçirib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qəbul zamanı vitse-spiker Adil Əliyev vətəndaşları dinləyərək, onlar tərəfindən qaldırılmış müxtəlif sosial, humanitar, təhsil və digər məsələlərin bir qismini yerindəcə həll edib. Vətəndaşların digər müraciətləri isə icraata alınıb.

Vətəndaşların müraciətlərinə yüksək həssaslıqla yanaşılması ilə bağlı dövlət başçısının verdiyi tapşırıq və tövsiyələrə uyğun olaraq, Milli Məclisin Sədr müavinin ünvanına daxil olmuş müraciətlərin hər biri geniş şəkildə təhlil edilir və həlli məqsədilə qanunvericilik çərçivəsində bütün mümkün addımlar atılır.

# "Azərişıq" ASC-nin sədri Saatlıda vətəndaşları qəbul edib

Cənab Prezident İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov yanvarın 30-da Saatlı və Sabirabad rayonlarından olan vətəndaşları qəbul edib. Şirvan RETSİ-nin Saatlı rayonunda yerləşən inzibati binasında baş tutan qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

*"Azərbaycan"*

# Fəaliyyət Planı imzalanıb

Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının mülki müdafiə, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə naziri general-leytenant Aleksandr Kurenkovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə qonaqlar Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirələrini anıb, məzarları üzərinə güllər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Daha sonra Fövqəladə Hallar Nazirliyində keçirilən görüşdə qonaqları salamlayan nazir Kəmaləddin Heydərov xatırladıb ki, xalqlarımız arasındakı sıx dostluq və qarşılıqlı hörmət ənənələrinə söykənən Azərbaycan-Rusiya münasibətləri bu gün ölkələrimizin liderlərinin siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində yüksələn xətlə inkişaf edir.

Nazir ölkəmizdə fövqəladə halların idarə olunması sahəsində görülən işlərdən danışıb, iki nazirlik arasında fövqəladə hallarla mübarizə üzrə mövcud sıx əməkdaşlıq münasibətlərinin daim genişləndiyini vurğulayıb. Bu çərçivədə, Beynəlxalq Mülki Müdafiə Təşkilatının xətti ilə Azərbaycan FHN-in Akademiyasına xüsusi trenajor komplekslərinin, o cümlədən bir sıra təlim-məşq avadanlıqları və laborator cihazların verilməsini, əməkdaşların müxtəlif təlim kursları və seminarlarda iştirakı üçün şəraitin yaradılmasını məmnunluqla qeyd edib, göstərilən dəstəyə görə təşəkkürünü bildirib. İmzalanacaq "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyi arasında 2024-2026-cı illər üçün birgə Fəaliyyət Planı"nın əməkdaşlığın daha da inkişaf etdirilməsinə əlavə təkan verəcəyinə əminlik ifadə olunub.

Səmimi görüşə görə təşəkkürünü bildirən Rusiya Federasiyasının mülki müdafiə, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə naziri general-leytenant Aleksandr Kurenkov iki nazirlik arasında münasibətlərin genişlənməsindən məmnunluq ifadə edib, müxtəlif istiqamətlər üzrə əməkdaşlığın daha da dərinləşməsinin qarşılıqlı faydasından danışıb. Bu məqsədlə hər iki nazirlik arasında müxtəlif səviyyəli səfərlərin, keçirilən görüş və müzakirələrin əhəmiyyətini vurğulayıb.

Nazir A.Kurenkov həmçinin Rusiya ərazisində müxtəlif vaxtlarda baş vermiş fövqəladə hadisələr zamanı göstərilən dəstəyə görə təşəkkürünü bildirib. Qonaq deyib ki, imzalanacaq Fəaliyyət Planı iki ölkənin uyğun qurumları arasında fövqəladə halların idarə olunması sahəsində müxtəlif əməkdaşlıq formalarının reallaşdırılması üçün yeni imkanlar açacaq.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Sonra Azərbaycan Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş "Bakı-2023" beynəlxalq təlim haqqında videoçarx nümayiş olunub.

Yekunda "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyi arasında 2024-2026-cı illər üçün birgə Fəaliyyət Planı"nın imzalanması mərasimi keçirilib. Sənədi Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov və Rusiya Federasiyasının mülki müdafiə, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə naziri general-leytenant Aleksandr Kurenkov imzalayıblar.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycanın uğurları AŞPA-dakı bir sıra deputatların yuxusuna haram qatıb

"Avropa Şurası Parlament Assambleyasında təmsil olunan 306 deputatdan 90 nəfərin iştirakı ilə Azərbaycan əleyhinə müzakirə olunan sənədin lehinə 76 deputat səs verib. Sənədə əsasən, Azərbaycan nümayəndə heyəti səsvermə hüququndan məhrum edilib. Eyni zamanda səlahiyyətləri bir il müddətinə təsdiq edilməyib. Azərbaycanın AŞPA-da təmsil olunan nümayəndələri isə yekun qərarı gözləmədən dərhal bəyanatla çıxış edərək bu təşkilatdakı fəaliyyətlərini qeyri-müəyyən müddətə dayandırıblar. Bunun əsas səbəbi AŞPA-da ölkəmizə qarşı sərgilənən qərəzli mövqe, təşkilatı çənginə almış azərbaycanofobiya, türkofobiya və islamofobiyadır".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat bildirib ki, AŞPA-nın bu ədalətsiz qərarını şərtləndirən əsas fundamental səbəb onunla bağlıdır ki, Azərbaycan öz torpaqlarını işğaldan azad edib: "AŞPA və bu kimi qurumlar hesab edirdilər ki, Azərbaycan təkbaşına öz ərazi bütövlüyünü və suverenliyini bərpa edə bilməz. Amma ölkəmiz buna nail oldu. Bu səbəbdən Vətən müharibəsində və ötən ilin sentyabrın 19-20-də həyata keçirilən antiterror tədbirlərində qazandığımız zəfərlərimizlə barışa bilmirlər. Azərbaycanın Qarabağda separatizmin kökünü kəsməsi AŞPA-dakı deputatların bir çoxunun yuxusuna haram qatıb. Onu da qeyd etmək lazımdır ki, həmin şəxslər birbaşa və ya dolayısı ilə erməni lobbisi ilə bağlıdırlar".

Deputatın dediklərinə görə, Azərbaycana təzyiq göstərmək məqsədilə hazırlanan layihənin müəllifi Frank Şvabe etnik almandır, lakin məşuqəsi ermənidir. Onun məşuqəsi ilə erməni milli geyimində olan fotoları sosial şəbəkələri bəzəyir. Azərbaycan əleyhinə sənədin lehinə səs verən digər şəxsin, Frank Engelin də həyat yoldaşı ermənidir. Digərləri də bu və ya başqa şəkildə erməni lobbisi ilə bağlıdırlar. AŞPA o qədər rəzil hala düşüb ki, Avropa qitəsinin strateji maraqlarına deyil, erməni maraqlarına xidmət edən qərarlar qəbul edir. Bu, dözülməz haldır və bu təşkilatın nə qədər eroziyaya uğradığının ifadəsidir.

Elman Nəsirov onu da bildirib ki, son vaxtlar beynəlxalq təşkilatlar nəinki beynəlxalq hüququn keşiyində dayana bilmir, hətta özləri bu hüququ pozan tərəf kimi çıxış edirlər: "Belə təşkilatlar arasında ən böyüyü olan BMT və onun Təhlükəsizlik Şurası bu gün çox ciddi islahatlara möhtacdır. Bu təşkilatın nüfuzu xeyli aşağı düşübsə, statusca daha zəif olan nüfuzsuz AŞPA-dan nə gözləmək olar? Dünyada ikili standartlar baş alıb gedir, beynəlxalq təşkilatlar sifarişlə işləyirlər. Bu sifarişlər isə əsasən okeanın o tayından, eləcə də Parisdən gəlir. Buna qətiyyən şübhə yoxdur. Bütün dünyaya bəllidir ki, ölkəmiz əleyhinə belə bir sənədin qəbulu hər bir halda regionda sülhə və təhlükəsizliyə xidmət göstərmir".

Deputat onu da vurğulayıb ki, AŞPA beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq Azərbaycanın qazandığı uğurları alqışlamaq, dəstəkləmək əvəzinə işğalçı Ermənistanın yanında yer alır. Azərbaycanı isə guya ermənilərə məxsus ərazilərə təcavüz etməkdə ittiham edir.

"Ümid edirəm, AŞPA bu addımı ilə özünün nüfuzuna və imicinə necə xələl gətirdiyinin, nə qədər böyük bir səhv addım atdığının fərqinə varacaq. İstisna edilmir ki, AŞPA da Avropa İttifaqının yolu ilə gedib, bir müddət sonra Azərbaycan Prezidentindən xahiş edəcək ki, onun nümayəndə heyətini qəbul etsin. Azərbaycanın isə şərti var, münasibətlərimizin bərpasını istəyən qüvvələr ikili standartlara son qoymalıdırlar", - deyə deputat əlavə edib.

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

## Kimlərinsə diktəsi ilə AŞPA-da mövqeyini göstərənlər etibarlarını itirirlər

### Azərbaycan hər zaman dost ölkələrin ərazi bütövlüyünə yanaşmada prinsipial mövqe tutub

"AŞPA-dakı səsvermə Ukrayna, Gürcüstan və Moldova təmsilçiləri üçün ilk növbədə Qərbdəki bəlli çevrələrin təzyiqləri qarşısında milli maraqlarını qorumaq qüdrətində olub-olmamaları baxımından test idi. Açığını deməliyik ki, bu testdən heç də uğurlu çıxmadılar".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Sahib Alıyev deyib. O bildirib ki, arxasında Fransa və Almaniyanın durduğu bu səsvermə Qərbdəki çevrələrin istəməmələrinə rəğmən Azərbaycanın öz torpaqlarını işğaldan qurtararaq üzərində suverenliyini tam təmin etməsi ilə bağlıdır. Azərbaycandan fərqli olaraq torpaqları bu gün də işğal altında qalanlar doğrudanmı elə düşünürlər ki, Qərbdəki bəlli dairələr onları həmişə indiki kimi dəstəkləyəcəklər? Onların Ukraynada savaş başlayarkən ilkin reaksiyaları unudulubmu? Əgər Ukrayna xalqı ayağa qalxaraq əzm ortaya qoymasaydı, Avropa hərəkətə keçəcəkdimi?

Deputat qeyd edib ki, ABŞ prezidenti Co Bayden 2023-cü ilin əvvəlində Ukraynaya "nə qədər ehtiyac duyulursa, bir o qədər yardım" ediləcəyini desə də, ilin sonunda həmən fikirlər "nə qədər mümkündür, bir o qədər"lə əvəzləndi: "Son zamanlar isə görürük ki, "bir o qədərin" verilməsi də sual altındadır. Bundan nəticə çıxarılmadımı? Ukrayna, Gürcüstan və Moldova son bir neçə ildə baş verənlərdən sonra elə düşünürlər ki, sabah Rusiya Çinə qarşı ABŞ-nin maraqlarına uyğun siyasət yeritməyə razılıq versə, Qərbdəkilər onların ərazi bütövlüyünə yanaşmada bu gün sərgilədikləri mövqelərini dəyişməyəcəklər? Maraqlıdır, görəsən, Ukrayna təmsilçiləri AŞPA-da Azərbaycana qarşı qısqırdılanlara pərdə arxasında bir başqası olsa da, üzdə başçılıq edən Frank Şvabenin 2014-cü ildə Krımın işğalı ilə bağlı səsvermə zamanı niyə Rusiyanın maraqlarına uyğun davrandığının üzərində düşünübmü? Xatırladım ki, o, Krımın işğalına görə Rusiya təmsilçilərinin AŞPA-da səsvermə haqlarının əllərindən alınmasına qarşı çıxanlardan biri idi".



S.Alıyev vurğulayıb ki, Ukraynanın siyasi elitası zamanında Qərbdəki bəlli çevrələrin diktəsi ilə deyil, öz milli maraqlarına uyğun hərəkət etsəydi, nə Krım işğal olunacaqdı, nə də indiki savaş baş verəcəkdi. Ukraynanın vaxtında məhz milli maraqlardan çıxış edə bilməməsinin nəticəsi idi ki, 1990-cı ildə Ukraynada ÜDM 93,5 milyard dollar, Polşada 66, Rumıniyada 40,3, Macarıstanda 37,2 milyard dollar olduğu halda, 2022-ci ilin statistikasında bu göstəricilər Ukraynada 160 milyard, Polşada 688 milyard, Rumıniyada 301 milyard, Macarıstanda isə 179 milyard dollar olub. Göründüyü kimi, ötən əsrin 90-cı ilində ümumi daxili məhsulun Avropanın 3 orta çəkili dövlətindən yüksək olan Ukrayna indi onlardan geridədir. Polşa ilə aralarındakı fərq isə azı 4 dəfədir. Polşanın ÜDM-in 17 faizinin formalaşmasında məhz savaş nəticəsində orada sığınacaq tapan ukraynalıların əməyi var. Almaniya isə savaşdan sonra ora pənah aparan mütəxəssis kimi özünü doğruldan yüz minlərlə ukraynalıya bir neçə ildən sonra vətəndaşlıq verməyi planlaşdırır. Budur, həmin ölkənin elitasının zamanında qərbdəkilərin şirin vədlərinə aldanaraq öz milli maraqlarından çıxış edə bilmələrinin ortaya çıxardığı reallıq.

Deputat bildirib ki, hazırda dünyada ən aşağı doğum göstəricisi (0,7) məhz Ukraynadadır. "Son iki ildə orada əhalinin sayı 36 milyondan 25 milyona düşüb, proqnozlara görə, hətta savaş bitəndən sonra belə ölkəni tərk edənlərin sayı azalmayacaq.

Beləliklə, bir daha vurğulayıram ki, AŞPA-dakı səsvermə zamanı sözügedən üç dövlətin təmsilçilərinin davranışları öz milli maraqlarından çıxış etməmənin sonda necə acı reallıqlara yol açdığından nəticə çıxarmadıqlarını göstərir. Azərbaycan həmin ölkələrin ərazi bütövlüyünə yanaşmada həmişə prinsipial mövqe tutub, onlarla dostcasına və səmimi davranıb və bu, indi də belədir", - deyə o bildirib.

O vurğulayıb ki, Azərbaycan strateji tərəfdaş gözündə gördüklərinin kimlərinsə təzyiqi altında onlara bəslənən ümidləri doğrultmamalarını təbii ki, dəftərin bir qırağına yazır: "Yeri gəlmişkən, qaranlıq məqam odur ki, AŞPA-dakı səsvermədən dərhal sonra bizimlə strateji tərəfdaşlıq anlaşması olan qonşu Gürcüstanla Ermənistan arasında tez-tələsik imzalanan o memorandum nə idi? Maraqlıdır, "Strateji əlaqələr" haqqındakı bu memorandum da Qərbdəki bəlli çevrələrin diktəsi ilə imzalanıb və ya belə bir sənədə birdən ehtiyac nədən yaranıb?"

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## AŞPA kimlərinsə siyasi oyunbazlıq meydanına çevrilib

Avropa Şurası Parlament Assambleyasının ölkəmizin əleyhinə qəbul etdiyi qətnamə heç də insan haqları ilə bağlı məsələ deyil. İnsan hüququ məsələsi ölkəmizə qarşı hücumları təşkil edənlərin simalarını gizlətmək üçün bir bəhanədir. Bunun əsas səbəbi 2020-ci ilin Vətən müharibəsində qazandığımız qələbənin regionda yaratdığı yeni reallıqlardır...




Başda Fransa olmaqla bəzi Qərb dövlətləri regionda sabitliyin olmasını heç də sözdə dedikləri kimi arzu etmirlər. Hətta bacarsalar, bütün imkanlarından istifadə edib yenidən müharibə ocağını alovlandırarlar. Regionda sülhə, sabitliyə təhlükə olan Ermənistanın hərb maşını Azərbaycan Ordusu tərəfindən darmadağın edildiyi üçün keçmiş münaqişədən öz məqsədləri üçün istifadə edən Fransa kimi dövlətlər bu imkanlarından məhrum olublar. Ermənistanın müharibə etmək gücündə olmadığı üçün bu dövlətlər indi də himayələrində olan beynəlxalq təşkilatlar vasitəsi ilə ölkəmizə qarşı avantüralarını genişləndiriblər. Bu həmişə belə olub. Bəzi böyük dövlətlər himayələrində olan beynəlxalq təşkilatlar vasitəsilə bu və ya digər ölkələrə təzyiq göstərərək onları nəzarətlərində saxlamağa çalışırlar. Fransanın da həmsədr olduğu, uzun illər Qarabağ probleminin həllində vasitəçilik edən ATƏT-in Minsk qrupunun nümayəndələri bizi inandırmağa çalışırdılar ki, problemin hərbi həlli yoxdur. Elə əsl həngamə də ölkəmizin problemi hərbi yolla həll etməsindən sonra başladı.

Müstəqil siyasət yürüdən Azərbaycan beynəlxalq hüquqla tanınan ərazi bütövlüyünü tam bərpa etdi. Nə qədər ki Qarabağda müharibə gedirdi. Qərb dövlətləri "vasitəçilik" adı ilə regionu nəzarətdə saxlaya bilirdilər. Artıq müharibə bitib. Bu başda Fransa olmaqla Qərb dövlətlərinin regiondakı maraqlarına ağır zərbə vurub. İndiyə kimi Qarabağ problemindən məqsədləri üçün faydalanan, Ermənistanı şirnikləndirici vədlərlə aldadan Azərbaycana müxtəlif üsullarla təzyiq göstərməyə çalışan Fransa oyundan kənar qalıb.

"Demokratiya", "insan hüquqları" adı ilə istər Aİ-nin, istərsə də AŞPA-nın ölkəmizə qarşı ədalətsiz hücum etdiklərini çox görmüşük. Bu, bir qaydadır ki, Qərb dövlətləri, beynəlxalq güclər ürəklərindən keçənləri, istədiklərini açıq mətnlə deyə bilməyəndə himayələrində olan beynəlxalq təşkiltaları işə salıb istədikləri dövlətə təzyiq etməyə çalışırlar. Guya ölkəmizdə insan haqlarından narahat olan AŞPA-nın qəbul etdiyi qətnaməyə baxanda əsl həqiqətin nədən ibarət olduğunu görmək elə də çətin deyil. "Dağlıq Qarabağdakı vəziyyətlə bağlı assambleya özünün "Laçın dəhlizi ilə sərbəst və təhlükəsiz gediş-gəlişin təmin edilməsi" adlı 2508 (2023) saylı qətnaməsində Laçın dəhlizi boyunca azad və təhlükəsiz hərəkətin olmamasını müəyyən edib və Azərbaycan rəhbərliyinin 10 aya yaxın davam edən bu vəziyyətin humanitar və insan hüquqları nöqteyi-nəzərindən çox ciddi nəticələrini qəbul etməməsindən sarsılıb".

Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tam bərpa etməsi, Qarabağın illərlə sülhə və sabitliyə təhdid olan separatçılardan təmizlənməsi Qərbi məmnun etməyib. Hətta bundan sarsılıblar da. Azərbaycanın müharibədəki qələbəsinədək Qarabağ problemindən öz məqsədləri üçün istifadə edib yararlanan ölkələr indi Azərbaycana qarşı hücuma keçib.

Bu gün Azərbaycan əleyhinə aparılan böhtan kampaniyasının mərkəzinə çevrilən Fransaya qəti surətdə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması maraqlı deyil. Regionda sülh istəyən qüvvələr Ermənistanı yenidən silahlandırmaz. Fransanın, Aİ-nin, AŞPA-nın ölkəmizə qarşı başladıqları "səlib yürüşü" Ermənistanı müdafiə etdiklərini, bu ölkəyə verdikləri şirnikləndirici vədlərin üstündə durduqlarını göstərmək, əslinə qalsa, bu ölkədən istifadə edərək qlobal niyyətlərini həyata keçirmək üçün edilən siyasi oyunbazlıqdır.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

## Qərbi Azərbaycan İcması senator Ben Kardinin azərbaycanofob fəaliyyətini kəskin şəkildə pisləyir

**Qərbi Azərbaycan İcması senator Ben Kardinin azərbaycanofob fəaliyyətini kəskin şəkildə pisləyir. Qondarma "amerikan müstəsnalığı"nın əsiri olan Ben Kardinə görəsən kim "beynəlxalq ictimaiyyət" adından danışmaq səlahiyyəti verib?**

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının açıqlamasında bildirilib.

İcmanın açıqlamasında qeyd olunub ki, "beynəlxalq ictimaiyyət" təkcə ABŞ senatından ibarət deyil. Beynəlxalq ictimaiyyət dünyada BMT-dən sonra ən böyük təsisat olan Qoşulmama Hərəkatına dörd il rəhbərlik edən Azərbaycana 120 ölkənin etimadıdır. Beynəlxalq ictimaiyyət dünyada ən böyük tədbir hesab olunan COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərar verən dünya ölkələridir.

"Səlibçi düşüncəli Ben Kardin insan hüquqları ilə bağlı çox narahatdırsa, onda qoy elə ABŞ-ın özündə yerli amerikalıların hüquqlarının təmin edilməsi ilə məşğul olsun, polis vəhşiliyinə, silahlı zorakılığa qarşı səsini qaldırsın", - deyə Qərbi Azərbaycan İcmasının açıqlamasında vurğulanıb.

## Fransa ermənipərəst mövqeyini həyasızcasına nümayiş etdirir

"Fransanın ölkəmizə qarşı qərəzli addımları bu dövlətin xarici siyasətinin tərkib hissəsinə çevrilib. Bunlar Azərbaycana qarşı aparılan nifrət kampaniyasının davamlı olduğunu göstərir".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. O bildirib ki, Fransanın ermənipərəst mövqeyini açıq şəkildə ortaya qoyduğu birinci hal deyil. Vətən müharibəsinin ilk günlərində Fransa prezidentinin "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik", - deyə beynəlxalq hüquqa zidd olan bəyanat verməsini yaxşı xatırlayırıq.

"Vətən müharibəsindən üç ildən artıq vaxt keçməsinə baxmayaraq, Fransa keçmiş münaqişənin həllində heç vaxt maraqlı olmadığını və özünün əsl ermənipərəst mövqeyini bu gün də həyasızcasına nümayiş etdirir, Azərbaycana təzyiq göstərməyə çalışır. Bu gün Avropa Şurasının Almaniyanın və Fransanın əlində oyuncağa çevrildiyi inkaredilməzdir", - deyən deputat vurğulayıb ki, tarixi zəfərimizdən sonra Fransanın Azərbaycana qarşı apardığı əks təbliğat kampaniyası davamlılığı ilə diqqət çəkir. Avropa Şurasının ədalətə sığmayan, ikili standartlara əsaslanan siyasətini bir daha təsdiqləyən məlum qərarı Fransanın Almaniya vasitəsilə AŞPA-nı Azərbaycana qarşı vasitə kimi istifadə etməsi cəhdini ortaya qoydu.



Deputat qeyd edib ki, Fransa və Avropadakı erməni lobbisi AŞPA-nı anti-Azərbaycan platformasına, Frank Şvabenin timsalında isə Almaniyanı muzdluya çevirib: "Təşəbbüs formal olaraq Frank Şvabe tərəfindən irəli sürülsə də, məsələnin arxasında AŞPA rəhbərliyinin özünün durduğu faktdır. AŞPA-nın sabiq və hazırkı prezidentinin əleyhimizə səs verməsi təşkilat rəhbərliyinin mövqeyinin göstəricisidir. Bu təşkilat açıq-aşkar Ermənistana dəstəyini nümayiş etdirir. AŞPA 23 oktyabr 2023-cü il tarixdə "Dağlıq Qarabağda humanitar vəziyyət" adlı qətnamə qəbul etdi. Həmin qətnamənin 23-cü bəndində təşkilat qərəzli mövqe sərgiləyərək 19 sentyabrda baş tutan lokal xarakterli antiterror tədbirlərini hərbi əməliyyatlar kimi qiymətləndirərək, "Dağlıq Qarabağın erməni əhalisinin humanitar vəziyyəti"ndən ciddi narahatlıq ifadə etdi. AŞPA Azərbaycan nümayəndə heyətinin etimadnaməsini 2024-cü ilin ilk iclasında tanımamaqla Ermənistana dəstəyini bir daha təsdiqlədi".

Bu gün AŞPA-nın heç bir məntiqə sığmayan qərarının Azərbaycanın qələbəsindən keçirdiyi narahatlıq hissindən irəli gəldiyini vurğulayan K.Bayramov bildirib ki, ölkəmiz 30 il dünyadan ədalət gözləsə də, bunu görmədi, ədalət və beynəlxalq hüquq prinsipləri maraqların arxasında əridi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu, erməni silahlı birləşmələrinin bu ərazilərdən qeyd-şərtsiz çıxarılması öz əksini tapsa da, dünya gücləri Ermənistanın bu qətnamələrə məhəl qoymamasını görməzdən gələrək münaqişənin həlli prosesinin 30 il uzanmasına səbəb oldular. Azərbaycan 44 günlük İkinci Qarabağ müharibəsində bu qətnamələri təkbaşına icra etdi. Təbii ki, bu gün bəzi beynəlxalq təşkilatların, dövlətlərin ölkəmizə qarşı qarayaxma kampaniyalarını aparmasına səbəb onların 30 ildə edə bilmədiklərini Azərbaycanın təkbaşına etməsidir.

K.Bayramovun fikrincə, regionda dəyişən reallıqları qəbul etməyən Fransa və onların əlaltıları olan qurumlar anlamalıdırlar ki, 30 illik işğal dövrü geridə qalıb. "44 günlük müharibədə əldə etdiyimiz zəfər ilə regionda yeni geosiyasi reallıqlar yaranıb. Bu gün Azərbaycan hüquqi olaraq qalib və diktə edən tərəfdir", - deyə deputat bildirib. Onun sözlərinə görə, Azərbaycan tarixi Zəfəri ilə əksər dünya güclərinə bir daha sübut etdi ki, heç bir təzyiq, təhdid, riyakarlıq bizi tutduğumuz düzgün yoldan döndərməyib və döndərə bilməz. Belə qərarlar Azərbaycanın yürütdüyü siyasətə təsir etmək imkanında deyil.

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***

# 7 FEVRAL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

## Prezident seçkiləri ilə əlaqədar veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçirilib





Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev prezident seçkiləri ilə əlaqədar yanvarın 31-də Komissiyanın inzibati binasında yerləşən veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçirib, seçkilərin şəffaflığının təmin edilməsində müstəsna əhəmiyyət daşıyan veb-kameraların quraşdırılması istiqamətində son hazırlıq işləri ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, onlar veb-kameraların quraşdırılması prosesində seçki qanunvericiliyinin tələblərinə dəqiqliklə riayət olunmasının vacibliyini diqqətə çatdırıb və bu fəaliyyətlə bağlı mühüm tövsiyələr veriblər.

Tədbirdə bildirilib ki, prezident seçkilərinin yüksək səviyyədə hazırlanıb keçirilməsi üçün lazımi addımlar atılıb, seçki prosesinin iştirakçılarına hərtərəfli şərait və geniş imkanlar yaradılıb. Çoxsaylı yerli və beynəlxalq müşahidəçilər, media mənsubları, müxtəlif aşkarlıq institutları seçki kampaniyasında heç bir maneə olmadan, azad və sərbəst şəkildə iştirak edə bilirlər. Seçkilərdə bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının ən son innovativ nailiyyətlərinin effektiv tətbiq olunması səsvermə günü seçki məntəqələrindəki prosesləri əvvəldən axıradək fasiləsiz izləməyi, arasıkəsilmədən, dolğun və əhatəli müşahidə aparmağı və beləliklə, şəffaflığı tam təmin edir. Fərqli aşkarlıq institutlarının seçki prosesində rahat və asanlıqla iştirakı, sərbəst fəaliyyətləri üçün yaradılan hərtərəfli və geniş imkanlar baxımından Azərbaycan nümunə sayıla bilər.

Respublikamızın ictimai-siyasi həyatında çox mühüm əhəmiyyət daşıyan, ilk dəfə ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olunmuş bir şəraitdə, işğaldan azad edilmiş regionlar da daxil olmaqla, hər bir bölgədə keçirilən prezident seçkilərində şəffaflığın yüksək səviyyədə təmin edilməsinə xüsusi diqqət yetirilib. Azərbaycanın seçki təcrübəsində artıq 16 ildir uğurla reallaşdırılan və səsvermə günü seçki məntəqələrində prosesləri internet üzərindən hamı üçün açıq platformada canlı nümayiş etdirən, seçki məntəqələrinə getmədən də gün ərzində əvvəldən axıradək fasiləsiz müşahidə imkanı verən veb-kameralardan istifadə təcrübəsi prezident seçkilərində də davam etdirilir. Hazırda bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb.

Səsvermə günü seçki məntəqələrində proseslərin birbaşa izlənilməsi, keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin olunması üçün veb-kameraların tənzimlənməsi və digər texniki parametrlərinin gücləndirilməsi diqqət mərkəzində saxlanılaraq daha da təkmilləşdirilib. Belə ki, veb-kameraların müşahidə sistemi tam yenilənərək yeni nəsil müşahidə sistemi tətbiq olunub və əvvəlki illərdəkindən 2 dəfə daha yüksək görüntü effektinə, optimal şəbəkə utilizasiyasına, avtofokuslama və s. kimi mühüm xüsusiyyətlərə malik kameralar quraşdırılıb. Həm müşahidə sisteminin avadanlıq və proqram təminatı baxımından komponentləri, həm də səsvermə günü seçki məntəqələrindəki prosesləri canlı izləmək üçün nəzərdə tutulan internet səhifəsi tam şəkildə yenilənib.

Sözügedən veb-kameralar istər ölkə daxilində, istərsə də xaricdəki internet istifadəçilərinə səsvermə günü Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olaraq heç bir qeydiyyat tələb edilmədən seçki məntəqəsindəki bütün prosesləri - səsverməni, səslərin sayılmasını və nəticələrin müəyyənləşdirilməsini fasiləsiz müşahidə imkanı yaradacaq.

## Müasir tariximizin ən qürurverici seçkisi

Ölkəmizin siyasi həyatında çox mühüm önəm daşıyan növbədənkənar prezident seçkilərinə sayılı günlər qalır. Hər yerdə bu mühüm siyasi kampaniyaya ciddi hazırlıq işləri görülür. Dairə və seçki məntəqələri seçki gününə hazırlanıb.

Bütün məntəqələr lazımi avadanlıqlarla, işıq, rabitə və digər xidmətlərlə, təşviqat materialları və müvafiq təlimatlarla təchiz edilib. Məntəqələrdə veb-kameralar quraşdırılıb. Seçkilərin ədalətli, demokratik, şəffaf və yüksək səviyyədə keçirilməsi üçün hərtərəfli şərait yaradılıb.

7 fevral 2024-cü ildə ölkəmizdə keçiriləcək növbədənkənar prezident seçkiləri ən qürurverici seçki kimi tarixə düşəcək. 27 sentyabr 2020-ci ildə erməni işğalçılarının təxribatı nəticəsində başlanan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu Qarabağı və ətraf rayonları erməni işğalçılardan təmizlədi. 2023-cü il sentyabrın 19-20-də isə uğurlu antiterror əməliyyatları ilə Azərbaycan beynəlxalq qanunlarla təsbit olunmuş ərazilərində suverenliyini, ərazi bütövlüyünü tam bərpa etdi. Beynəlxalq vasitəçilərin uzun illər edə bilmədikləri və yaxud etmək istəmədikləri işin öhdəsindən Azərbaycan özü gəldi.

Fevral seçkilərinin ən şərəfli və qürurlu anı ondan ibarətdir ki, 30 il əvvəl erməni işğalçıları tərəfindən evlərindən didərgin salınan yurddaşlarımızın bir hissəsi əvvəllər müvəqqəti məskunlaşdıqları bölgələrdə deyil, öz doğma torpaqlarında - Zəngilanda, Laçında, Şuşada, Füzulidə, Cəbrayılda və azad olunmuş digər yerlərdə səs verəcəklər. Təbii ki, öz doğma ocaqlarında prezident seçkilərində iştirak etmələri böyük xoşbəxtlikdir, ikiqat sevincdir.

Növbədənkənar prezident seçkilərinin bu il keçirilməsi həm də beynəlxalq ictimaiyyətə verilən önəmli bir mesajdır. Çünki dünya ictimaiyyəti ilk dəfə olaraq postsovet məkanında torpaqlarını işğaldan azad edən ilk dövlətin bütün ərazilərində seçki keçirəcəyini görəcək. Bütün ərazilərimizdə seçki keçirilməsi böyük tarixi hadisədir. Bu seçkilər həm də Azərbaycanın ərazisində separatçı qüvvələrin mövcudluğuna son qoyulmasının ən bariz göstəricisidir.

İnamla deyə bilərik ki, Azərbaycan beynəlxalq arenada qüdrətli ordusu, güclü iqtisadiyyatı ilə önəmli mövqe tutan, müstəqil xarici siyasət yürüdən qalib ölkədir. Azərbaycanın həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli olması onu dünyada söz sahibinə çevirdi. Məhz bu güc, bu qüdrət sayəsində Qarabağın 30 ilə yaxın davam edən işğalına 44 gündə son qoymaq mümkün oldu. Biz, həqiqətən, tarixi günlər yaşadıq və yaşayırıq.

Ölkəmizdə 7 fevral növbədənkənar prezident seçkiləri dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Beynəlxalq media qurumları da qarşıdan gələn seçkilərə böyük maraq göstərirlər. Xəbər verildiyi kimi, 61 beynəlxalq media nümayəndəsi 7 fevral növbədənkənar prezident seçkilərində iştirak etmək üçün müvafiq qaydada Mərkəzi Seçki Komissiyasına müraciət edib. ABŞ-dən "Associated Press", Yaponiyadan "Kyodo News", "Nikkei", Almaniyadan "ZDF Televiziyası", İtaliyadan "La Repubblica", Türkiyədən "Anadolu Ajansı", "TRT", "İhlas Haber Ajansı", Rusiyadan "Rossiya 24", "RTR", "TASS", "İzvestiya" və digər mühüm xəbər mərkəzləri seçki prosesinə qoşulacaqlar.

2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri ilə əlaqədar nəzərdə tutulan seçki bülletenlərinin böyük əksəriyyəti çap edilib. Naxçıvan Muxtar Respublikası və işğaldan azad edilmiş ərazilərdə yerləşən seçki məntəqələrini təmsil edən dairə seçki komissiyalarının təmsilçilərinə bülletenlərin təhvil verilməsinə başlanılıb.

7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkilərinə son hazırlıq işləri gedir. Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımov bu barədə mətbuata verdiyi müsahibəsində deyib: "Mərkəzi Seçki Komissiyası seçki prosesinin başlamasının ilk günündən özünün fəaliyyət planını müəyyənləşdirib. Əlbəttə, təvazökarlıqdan kənar olsa da, MSK-nın öz işini yaxşı bilən peşəkar kollektivi var. Burada komissiya üzvlərinin, komissiya katibliyinin əməkdaşlarının, dairə və məntəqə seçki komissiyalarının üzvlərinin öz işinin öhdəsindən layiqincə gəlməsi üçün hər zaman əlindən gələni etməsi heç kəsə sirr deyil. Niyyətimiz qanunvericiliyin tələblərinin nəzərə alınması və qanunvericiliyə uyğun bütün addımların atılmasıdır. Mərkəzi Seçki Komissiyası ilk növbədə aşağı seçki komissiyalarında müxtəlif parametrlər üzrə monitorinqlər həyata keçirib. Həmin monitorinqlər nəticəsində dairə və məntəqə seçki komissiyalarının ehtiyacları öyrənilib, habelə onlar üçün maarifləndirmə proqramları işlənib və reallaşdırılıb. Bunun əsasında aşağı seçki komissiyalarının bütün lazımi avadanlıqlarla təchizatı həyata keçirilib, habelə onlar üçün çoxlu sayda sənəd nümunələri tərtib edilib. Seçki prosesində məntəqələrin tam hazır olub-olmaması barədə soruşulanda biz prosesin yekunlaşmaq üzrə olduğunu deyirik. Əslində, öz prinsiplərimizdən kənara çıxsaq, tam hazırdır deyə bilərik".

7 fevral növbədənkənar prezident seçkiləri Azərbaycanın yüz illik tarixinə düşəcək bir seçki olacaq. İşğaldan azad olunmuş bütün torpaqlarda - Xankəndi, Şuşa, Laçın, Kəlbəcər, Xocalı, Cəbrayıl, Zəngilanda bu gün Azərbaycan bayrağı dalğalanır. Bu bayraq altında prezident seçkiləri keçirilir. Əminliklə deyə bilərik ki, Azərbaycan xalqı fevralın 7-də əvvəlki seçkilərdə olduğu kimi, yenə tarixi seçimini düzgün edəcək - sabitliyə, əmin-amanlığa, xoşbəxt gələcəyimizə səs verəcək, inkişafı və tərəqqini dəstəkləyəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Qərb bölgələrində də seçkilərə hazırlıq işləri başa çatıb

Tovuzda 3 seçki dairəsi fəaliyyət göstərir. Onlardan biri - 105 saylı Dairə Seçki Komissiyasının sədri Mahir Həsənovla söhbətdən məlum oldu ki, prezident seçkilərində dairəni əhatə edən məntəqələrdə 53 min 741 nəfər seçici qeydiyyata alınıb və onlar 53 seçki məntəqəsində prezidentliyə namizədlərə öz munasibətlərini bildirəcəklər.

Seçkilərin demokratik və şəffaf keçirilməsi üçün 8 seçki məntəqəsində veb-kamera quraşdırılmışdır. Bundan başqa, 649 nəfər yerli müşahidəçi və 2 nəfər beynəlxaq müşahidəçi qeydiyyatdan keçmişdir. Bütün məntəqələr zəruri avadanlıqlarla, müxtəlif təlimatlar, müşahidəçilər üçün yaddaş kitabçaları və digər vasitələrlə təmin olunmuş, hətta əlillərin rahat səs vermələri üçün bir neçə məntəqədə panduslar quraşdırılmışdır. Seçkilərin keçirilməsi ilə əlaqədar bütün seçicilərə bildirişlər paylanmışdır. İlk dəfə səs verəcək gənclərlə söhbətlər aparılmış, bu siyasi kampaniyada fəal iştirak etmələrinin vacibliyi onların diqqətinə çatdırılmışdır. Məntəqələrdə 10 nəfər yaşı 100-dən çox olan seçici qeydiyyata alınmışdır. Onların prezident seçkilərində iştirakını təmin etmək üçün daşınan seçki qutusundan istifadə ediləcəkdir. Bunun üçün məntəqə üzvlərindən ibarət qrup yaradılmışdır.

106 saylı Seçki Dairəsini əhatə edən seçki məntəqələri də, demək olar, seçkilərə tam hazırdır. DSK-nın sədri Azər Hacıyev məlumat verərək bildirdi ki, prezident seçkilərinə hazırlıq Mərkəzi Seçki Komissiyasının müvafiq təlimatına uyğun aparılır. Namizədlərin hamısına bərabər səviyyədə təbliğat və təşviqat şəraiti yaradılmışdır. Bunun üçün yerlər ayrılmış, insanların sıx olduğu yerlərdə təşviqat materialları vurulmuş, seçicilərə səsvermənin keçirilmə tarixi, vaxtı və yeri barədə bildirişlər paylanmışdır.

Qeyd edək ki, 106 saylı Tovuz Seçki Dairəsində 47 min 743 seçici qeydiyyata alınıb. Onlar 41 məntəqədə səs verəcəklər. Seçkiləri izləmək üçün 12 seçki məntəqəsində veb-kamera quraşdırılmışdır. 488 nəfər yerli, 2 nəfər beynəlxalq müşahidəçi qeydiyyatdan keçmişdir. Məntəqələrdə 3 min 394 nəfər ilk dəfə səs verəcəkdir. 1049 nəfər isə yaşı 80-100 arası olan vətəndaş qeydiyyata alınmışdır. Onların bir çoxunun sağlamlıq durumu imkan vermədiyinə görə məntəqə üzvlərindən ibarət təşkil olunmuş nümayəndələr daşınan seçki qutuları ilə həmin ahıl insanların evlərinə gedərək səs vermələrini təmin edəcəklər.



Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərinə 107 saylı Tovuz-Qazax-Ağstafa Seçki Dairəsində də ciddi hazırlıq işləri görülmüşdür. Dairəni əhatə edən seçki məntəqələrində 47 min 44 nəfər seçicinin qeydiyyatı aparılmışdır. Onlar 53 seçki məntəqəsində səs verəcəklər.

DSK-nın sədri Fərman Qurbanov dedi ki, dairəni əhatə edən məntəqələrdə 1728 gənc ilk dəfə səs verəcəkdir. Onlardan Ağdam kəndinin sakini Aytən Hacıyevanın 18 yaşı fevralın 6-da, Göyəbaxan kəndinin sakini Tacirə Həsənovanın isə 18 yaşı seçki günü, yəni fevralın 7-də tamam olacaq.

Dairə Seçki Komissiyası sədrinin sözlərinə görə, rayonda 80-100 yaş arası seçicilərin sayı 1221 nəfərdir. Onlardan Aşağı Öysüzlü kəndinin sakinləri Talıb Mehdiyevin yaşı 96, Məhərrəm Babayevin yaşı 89-dur. Seçki günü həmin ahıllar diqqətdə saxlanılaraq, səsvermədə iştirakları təmin ediləcəkdir. Həmin kənddə fəaliyyət göstərən 2 saylı seçki məntəqəsində aparılan hazırlıq işləri bir neçə gündür ki, başa çatıb. Məntəqənin sədri İlqar Həsənovun sözlərinə görə, məntəqədə 1304 seçici səs verəcək. Bütün hazırlıq işləri yüksək səviyyədə aparılıb. Məntəqədə veb-kamera da quraşdırılmışdır ki, bu da seçkilərin daha şəffaf və demokratik keçirilməsinə imkan verəcəkdir.

Ağstafa rayonunda da növbədənkənar prezident seçkilərinə hazırlıq işləri yekunlaşıb. Rayonda fəaliyyət göstərən 108 saylı Seçki Dairəsinin tərkibinə daxil olan bütün məntəqələr təmir edilmiş, onlar elektrik generatorları, rabitə və digər lazim olan vasitələrlə təmin olunmuşlar. Məntəqələrdə təbliğat kampaniyası mütəşəkkil gedir. Seçicilərə bildirişlərin paylanması da başa çatmışdır.

Dairə üzrə 48 min 845 seçici qeydə alınıb. 47 seçki məntəqəsinin 8-də veb-kamera quraşdırılmışdır. DSK-da 543 nəfər yerli, 2 nəfər beynəlxalq müşahidəçi qeydiyyatdan keçmişdir. Məntəqələrdə 4 nəfər yaşı 100-dən yuxarı olan, 49 nəfər isə ilk dəfə səs verən gənc qeydiyyata alınmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## *Yevgeni KOZYAK:* "Müşahidələrimiz səsvermə gününə hazırlığın yüksək səviyyədə olduğunu göstərir"

"Bizim müşahidə missiyamız Azərbaycanda yanvarın 17-dən etibarən işə başlayıb. Burada uzunmüddətli müşahidəçilərimiz çalışırlar. Uzunmüddətli müşahidə missiyası kimi artıq Azərbaycanın 20-dən çox rayonunda səfərdə olmuşuq və seçki mühiti ilə bağlı yaxından müşahidə aparmışıq".

AZƏRTAC xəbər verir ki, bu fikirləri MDB müşahidə missiyası qərargahının rəhbəri Yevgeni Kozyak deyib.

Y.Kozyak bildirib ki, aparılan müşahidələr səsvermə gününə hazırlıq prosesinin yüksək səviyyədə olduğunu deməyə əsas verir: "Bu günə qədər apardığımız müşahidələrə əsasən fevralın 7-də Azərbaycanda prezident seçkilərinin yüksək səviyyədə keçiriləcəyini deyə bilərik. Seçki günü bizim 170-ə yaxın uzunmüddətli müşahidəçimiz bir çox regionlarda olacaq, seçki prosesini yaxından izləyəcək. Onu da vurğulamaq istərdim ki, bu, MDB müşahidə missiyasının Azərbaycana artıq 11-ci gəlişidir".

## Seçkilərdə gücümüzü, birliyimizi qorumalıyıq ki...

### düşmənlər bundan sonra da qarşımızda duruş gətirə bilməsinlər

Hər bir xalqın tarixində elə nadir hadisələr olur ki, aradan qərinələr, əsrlər keçsə də, heç vaxt unudulmur, yaddaşlardan silinmir. Bu baxımdan qarşıdan gələn prezident seçkiləri də hamımız üçün qürurlu bir dövrə təsadüf edir.

Azərbaycan seçkilər ərəfəsində heç vaxt belə nadir və fərqli bir tarixi reallıq yaşamamışdır - ilk dəfədir ki, müstəqil ölkəmizin bütövləşmiş ərazisində qalib xalq kimi prezident seçklərinə gedirik.

Ermənilərin yüzilliklərlə ölçülən işğalçılıq ambisiyalarına birdəfəlik son qoyduq, onları illərlə qamarlayıb kök saldıqları torpaqlardan iti qovan kimi qovduq, işğalçı ayağını torpaqlarımızdan kəsdik. Etiraf edək ki, bu qələbə bizə heç də asan başa gəlmədi. Xalq kimi qələbəyə doğru uzun yollardan və çətin sınaqlardan keçdik. Xalqımız və ordumuz bu döyüşə illərlə hazırlaşdı. Yeni zabitlər korpusu yetişdirildi, orduda köklü islahatlar aparıldı, yeni və xüsusi qoşun növləri yaradıldı, müxtəlif ölkələrdə ən çətin şəraitlərdə ağır təlimlər keçən əsgərlərimiz cəsur və qüdrətli ordunun cəngavərlərinə çevrildilər.

Həmin zaman ermənilər toz basan səngərlərdə iylənmiş "qələbə"ləri ilə öyünürdülər. Onlar elə bilirdilər ki, nəinki Azərbaycan, bütün dünya onların ayaqları altındadır. Ona görə də qəflət yuxusuna getmişdilər. Azərbaycan Ordusunun isə faktiki olaraq gecəsi-gündüzü yox idi, vətən torpağını işğaldan azad etməyə hazırlaşırdı. Biz 10-15 il ərzində möhtəşəm ordu islahatlarından keçdik, elə müasir silahlara yiyələndik ki, bunların heç birini indi də ermənilər ağıllarına gətirməkdə çətinlik çəkirlər. Onlar sadəcə elə düşünürdülər ki, çaldıqları "qələbə" əllərində əbədi qalacaq. Haylar saxta "qələbə" yorğanının altında mürgülədikcə özlərini hamıdan ağıllı, uzaqgörən və döyüşkən görürdülər. Amma unudurdular ki, Qarabağda qamarladıqlarını onların qabağına atan var idi, işğal etdikləri ərazilərdə bərkimələrinə dəstək verən qəyyumları peyda olmuşdu.

İt yatıb qaya kölgəsində, elə bilirdi ki, öz kölgəsidir. Elə bu ilğımla 30 il torpaqlarımızı talan etdilər, evlərin daşını, damını söküb, dağıdıb satdılar, görünməmiş vəhşiliklər törətdilər. Ara-sıra bizimkilərlə qısa görüşlərdə qalib pozalarında şişib partlayan erməni generalları dərilərinə sığmırdılar. Qarnının qatlarından, buxaqlarının qalınlığından piy damırdı. Sanki dünyada onlardan möhtəşəm, nəhəng millət yox imiş. 30 il idi ki, onların ədaları, yuxarıdan aşağı iyrənc baxışları, saxta "qələbə"nin havasından pörtüb yağ daman üzlərinin ifadələri pozulmurdu.

Amma sonuna baxın. Qələbənin möhtəşəm bayrağını göylərə qaldıran bizik! Buna görə də xalqımızı seçkilərə aparan bu yolda sanki əzəmətli döyüş cəngisi çalınır. Onun bəstəsi şüurumuza həkk olunub, notları nəbzimizdə döyünür. Biz xalq kimi birik, "dəmir yumruq" kimi möhkəmik. Möhkəmik ona görə ki, dünya ədalətsiz və haqsızdır. Zəif xalqların ədaləti, haqqı axtarmaq, özünü təsdiq etmək imkanları məhduddur. Amma biz zəif olmadıq, gücümüzün, birliyimizin hesabına tarixi ədaləti bərpa etdik. Anladıq ki, güclü olmasaydıq, bizi basıb əzməyə çalışacaqdılar. Ona görə də bu seçkilərdə gücümüzü, birliyimizi qorumalıyıq ki, qarşımızda indidən sonra da heç bir düşmən duruş gətirə bilməsin.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Seçkilərdən seçkilərə

# Dost həm də şad gündə tanınır

## Türkiyə, Pakistan, İsrail, Macarıstan - bunlar Qarabağın dirçəlişində Azərbaycanın yanında olan ölkələrin tam siyahısı deyil

**Müharibə başa çatan kimi Qarabağın və Şərqi Zəngəzurun bərpa-quruculuq işlərinə başlanılıb. Azərbaycan dövləti bu istiqamətdə mühüm qərarlar qəbul edib, o sıradan 2021-ci ilin yanvarında "Qarabağ Dirçəliş Fondu" yaradılıb. Fond azad olunmuş ərazilərin bərpa prosesində könüllülük və bərabərhüquqluluq prinsipi əsasında iştirak etmək istəyən bütün vətəndaşlarımız üçün yaradılmış vahid bir platforma kimi fəaliyyətə başlayıb.**



Sonra dövlət səviyyəsində elan edildi ki, dost ölkələr bərpa prosesində iştirak edə bilərlər. Üstəlik, yerli və xarici şirkətlərə çağırış olundu ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasında iştirak etsinlər, bölgənin gələcəyi üçün investisiya qoysunlar. Bu, dünya təcrübəsində də belədir. Müharibədən çıxan ölkəyə dost dövlətlər, beynəlxalq birliklər, qurum və təşkilatlar yardım edirlər - investisiyalar qoyur, kredit, qrant və ianələr verir, bəzən borcları silir və digər bu kimi təşəbbüslər irəli sürürlər.

Azərbaycanda da zəfərdən dərhal sonra bir sıra dost ölkələr - Türkiyə, Pakistan, İsrail, Macarıstan, İran, İtaliya, Böyük Britaniya və s. işğaldan azad olunmuş ərazilərimizin bərpası prosesində iştirak etmək arzusunda olduqlarını bildirdilər və çox keçmədi ki, fəaliyyətə başladılar. Bu həm də o demək idi ki, dövlətlərimiz arasındakı siyasi-iqtisadi əlaqələr, dostluq, qardaşlıq münasibətləri möhkəmdir. Bu yerdə qeyd edək ki, həmin ölkələrin şirkətləri regionda podratçı kimi iştirak edirlər, bərpa işləri Azərbaycanın öz vəsaiti hesabına maliyyələşdirilir. Yəni Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri, tikinti layihələri xarici şirkətlərlə Azərbaycan arasında bağlanmış müqavilələr əsasında yerinə yetirilir.

Konkret faktlara müraciət edək. Elektroenergetika infrastrukturunun yaradılması məqsədilə "Azərenerji" ASC ilə İtaliyanın "Ansaldo Energia" şirkəti arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Bu müqaviləyə əsasən, Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunan 110 kilovoltluq 4 yarımstansiyanın avadanlıqlarla təchizatını "Ansaldo Energia" həyata keçirir. Türkiyədə fəaliyyət göstərən, 130 texnologiya şirkətinə dəstək göstərən "GOSB" texnoparkı ilə Azərbaycan İnnovasiyalar Agentliyi arasında imzalanmış "Mədəni və Elmi Əməkdaşlıq" memorandumuna əsasən isə Qarabağda Yüksək Texnologiyalar Parkı yaradılıb. Texnoparkın nəzdində 12 investisiya layihəsi üzrə 11 rezident və 2 inkubator rezident fəaliyyət göstərir. Hazırda Yüksək Texnologiyalar Parkı innovasiya yönümlü yeni texnologiyaların hazırlanması və təkmilləşdirilməsi istiqamətində fəaliyyətini davam etdirir. Elmlə biznesin vəhdətinin təşkilinə təkan verən texnopark yalnız ölkə daxilində deyil, xaricində fəaliyyət göstərən elmi müəssisələrlə də əməkdaşlıq edir. Həmçinin texnologiya və innovasiya sahəsində baş verən yeniliklərlə yaxından tanış olmaq üçün müxtəlif ölkələrin texnoparkları, müvafiq qurumları ilə sıx əlaqə saxlayır.

Müharibədən sonra macar şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinə qoşulmağa hazırlaşması iki ölkənin dostluq münasibətlərinin və iqtisadi əməkdaşlığının inkişafını göstərir. Bu baxımdan dost ölkənin "EximBank"ı tərəfindən 100 milyon dollar kredit, eləcə də Qarabağın və Şərqi Zəngəzurun minalardan təmizlənməsi üçün 25 min avro qrant ayırması təsadüfi deyil. Amma Macarıstanla bağlı bu, tək fakt deyil. Soltanlı Cəbrayılın iri kəndlərindəndir. "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, kəndin yenidən qurulması mərhələli şəkildə həyata keçiriləcək. Soltanlının baş plan layihəsi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Macarıstanın tikinti və layihələndirmə sahəsində fəaliyyət göstərən "KESZ" şirkətlər qrupu və Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanıb. Kəndin təməlqoyma mərasimində iştirak edən Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto demişdir: "Biz ilk zamanlardan bildirmişik ki, hazırda Azərbaycanda gedən bərpa və yenidənqurma işlərində iştirak etməkdə maraqlıyıq. Məmnunluqla bildirmək istəyirəm ki, Azərbaycanla Macarıstan hökumətləri arasında əldə olunan razılaşmaya görə, Macarıstan şirkətləri Soltanlı kəndində aparılacaq yenidənqurma işlərinə öz töhfələrini verəcəklər. Biz bilirik ki, burada əvvəl yaşayanlar kəndlərini zorla tərk ediblər. İndi geri qayıtmağa imkan yaranıb, belə şərait yetişib. Bugünkü Soltanlı kəndinin təməlqoyma mərasimi bu prosesin başlanğıcıdır".

Ağalı və Talışdan sonra növbəti "ağıllı" yaşayış məntəqəsi Ağdamın Baş Qərvənd kəndi olacaq. Baş Qərvənd Slovakiya Respublikasının mütəxəssisləri tərəfindən layihələndirilir. Azərbaycan dövlətinin vəsaiti hesabına hazırlanan layihə çərçivəsində ümumi ərazisi 476 hektar olan kəndin tamamilə yenidən qurularaq "ağıllı kənd" kimi bərpası nəzərdə tutulur. Kəndə birinci mərhələdə 5500, ikinci mərhələdə isə 1170 nəfərin köçürülməsi planlaşdırılır.

Qarabağı və Şərqi Zəngəzuru dünyanın ən abad bölgələrindən birinə çevirməyi hədəfləyən Azərbaycana bərpa işlərində daha çox Türkiyə şirkətləri kömək edir. Türkiyə iş adamları azərbaycanlı həmkarları ilə birlikdə bu gün Qarabağın yenidən qurulmasında canbaşla çalışırlar. Onların ilk addımı Zəfər yolunun tikintisi oldu. Füzuli Hava Limanının tikintisində də qardaş türklərin əməyi çoxdur. Avropadan, Afrikadan Azərbaycana dəvət edilən türk iş adamları bu gün Toğana-Kəlbəcər yolunu tikirlər. Ümumilikdə Türkiyənin iş adamları Qarabağ və Şərqi Zəngəzurda infrastruktur layihələrinin həyata keçirilməsində, mənzil tikintisində, hava limanı və yolların inşasında əllərindən gələni edirlər ki, "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulanlar vaxtında gerçəkləşsin.

Qazaxıstan və Özbəkistan da 30 illik işğala son qoymuş böyük Zəfərə sevinən, Azərbaycana mənəvi dəstək olmaqla bərabər, işğaldan azad edilmiş ərazilərdə aparılan tikinti-quruculuq işlərinə töhfəsini verən ölkələr sırasındadırlar. Özbəkistan Prezidenti Şafkat Mirziyoyevin təşəbbüsü ilə Füzuli şəhərində inşa edilən Mirzə Uluqbay adına 960 şagirdlik 1 saylı tam orta məktəbin 2023-cü il avqustun 23-də açılışı oldu. Açılışda iştirak edən Özbəkistan Prezidenti bu təhsil ocağını ən dəyərli abidə kimi qiymətləndirərək dedi: "Babamız Əmir Teymurdan başlayan münasibətlərimiz indi də çox yaxşıdır. Qardaşımın qələbəsindən sonra iki xalqın böyüklüyü, gələcəkdə də bir-biri ilə dostluğunu davam etdirməsi üçün bir məktəb tikdirmək arzusunda idim. Bu gün arzum gerçəkləşdi". 3 hektar ərazidə Özbəkistan Prezidentinin şəxsi vəsaiti hesabına inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. 40 sinif, 2 informatika və 5 funksional tədris otağı, 6 laboratoriya akt zalı, idman zalı, yeməkxana və kitabxanası olan məktəbin ərazisində futbol meydançası, qaçış zolaqları, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası var.

Ötən il martın 7-də isə Füzuli şəhərində Qazaxıstan tərəfindən hədiyyə olaraq inşa edilən Kurmanqazı adına "Uşaq Yaradıcılığının İnkişafı Mərkəzi"nin təməli qoyuldu. Tikintini Qazaxıstanın "Bi-Group" şirkəti həyata keçirir. Layihəyə əsasən, incəsənət məktəbi ümumi sahəsi 1,5 hektar ərazidə yerləşir. Sahəsi 2708 kvadratmetr, 2 mərtəbəli binadan ibarət olacaq məktəbdə hər biri 300 nəfər olmaqla növbəli şəkildə 600 şagirdin təhsil alması üçün hər cür şərait yaradılacaq. Mərkəzdə şagirdlər xanəndəlik, xalçaçılıq, heykəltaraşlıq və zərgərlik sənətlərini, musiqi və rəssamlığı, həmçinin qrafik dizayn işlərini öyrənəcəklər.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan daha mötəbər beynəlxalq tədbirləri keçirməyə qadirdir

## Ölkəmizdə COP29-a yüksək səviyyədə hazırlıq işləri görülür

**Həmişə qonaqlı-qaralı olan paytaxtımız bu ilin sonunda qapılarını daha çox müsafirin üzünə açacaq. Bu, ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a evsahibliyi etməsi ilə bağlıdır. Postsovet məkanında indiyədək bu qlobal tədbirə evsahibliyi edən ölkə olmayıb, Azərbaycan yenə də birincidir.**




Azərbaycan mötəbər beynəlxalq tədbirlərin ev sahibi olmaqda zəngin təcrübə qazanıb. Xüsusilə son illər Bakıda çoxlu sayda forum, sammit, idman yarışı, musiqi festivalı və s. keçirilib. Təqdirəlayiq haldır ki, indi ölkəmizin təkcə paytaxtı deyil, digər iri şəhərləri və rayon mərkəzləri də böyük tədbirlərin keçirilməsi üçün hər bir şəraitə malikdir. Elə cəmi üç il əvvəl yağı tapdağından azad etdiyimiz Şuşada son vaxtlar bu qəbildən neçə-neçə tədbir keçirilib.

Azərbaycanın COP29-a evsahibliyi etməsi hər birimiz üçün qürurvericidir. Bu, eyni zamanda böyük məsuliyyətdir və geniş hazırlıq işlərinin görülməsini tələb edir. Belə ki, Bakı iki həftə ərzində dünyanın mərkəzi olacaq və şəhər təqribən 70-80 min xarici qonağı qarşılayacaq.

Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramovun qeyd etdiyi kimi , COP29-un Azərbaycanda keçirilməsi əlamətdar bir hadisədir: "Bununla bağlı qərarın qəbul edilməsi bir daha təsdiq edir ki, ölkəmizin bu sahədəki fəaliyyəti BMT daxil olmaqla, beynəlxalq və qlobal təşkilatlar tərəfindən yüksək qiymətləndirilib. Məhz bu səbəbdən də Azərbaycanın namizədliyi dəstək olunub və təsdiqlənib".

Deputat eyni zamanda diqqətə çatdırıb ki, COP29 Azərbaycanın potensialının və iqtisadi imkanlarının daha yaxından təqdim edilməsinə şərait yaradacaq. Bu da çox vacib amillərdəndir. Çünki belə tədbirlər bir tərəfdən turizm-xidmət sektorunun dəstəklənməsi və inkişafına xidmət edir, digər tərəfdən isə ölkənin iqtisadi potensialı ilə daha yaxından tanış olmağa fürsət yaradır. Tədbirə hazırlığa gəlincə, V.Bayramov Azərbaycanın COP29-a evsahibliyi etməsinin ciddi uğur olduğunu bir daha vurğulayaraq deyib: "Çünki əvvəlki illərin təcrübəsi göstərir ki, bu tədbirə evsahibliyi qazanmaq kifayət qədər çətin və dəstək tələb edən məsələdir. Bu baxımdan tədbirin uğuru üçün hazırlıqların sistemli keçirilməsi vacibdir. Bu kontekstdə həm qarşılama, həm yerləşdirmə, həm də müxtəlif tədbirlərin keçirilməsi ilə bağlı əlavə tədbirlərin görülməsinə ehtiyac var. Beynəlxalq əhəmiyyət kəsb edən tədbirin keçirilməsinə lazımi bütün işlər görüləcək".

Beləliklə, bu mötəbər tədbir zamanı ölkəmizə çoxlu sayda qonağın gələcəyi gözlənilir. Sözsüz ki, bu məsələyə turizm sektoru da yüksək səviyyədə hazır olmalıdır.

Azərbaycan Hotellər Assosiasiyasının (AHA) baş icraçı direktoru Günay Sağlam da mediaya müsahibəsində məhz bunu qeyd edib ki, qonaqların yüksək səviyyədə qarşılanması ən böyük prioritetdir: "Hotel sənayesinin tədbirdəki öhdəliyi qonaqların yüksək səviyyədə məmnunluğunu təmin etməkdir. Bu tədbirə gələn qonaqların əksəriyyəti müxtəlif ölkə və cəmiyyətlərin liderləridir. Onlar Azərbaycan haqqında təəssüratlarını paylaşacaqlar və ölkəmiz üçün sözsüz ki, gələcək turizm imkanları yaranacaq. COP29 tədbirinin hotellər üçün tələbləri minimal standartları əhatə edir. Təmizlik, hotelin ümumi vəziyyətinin yaxşı olması, peşəkar işçilər, "Wi-Fi", 24 saat qəbul servisi, otaq servisi, hərəkət qabiliyyəti məhdud olan insanlar üçün əlçatanlıq və ən vacibi dayanıqlıq prinsipinə uyğun standartlar, onların arasında su və enerjinin qənaətli istifadəsi, plastikdən olduqca az istifadə olunması və s. nəzərdə tutulur. Hazırlıq səviyyəsinə gəldikdə, Bakı şəhəri, Abşeron və Sumqayıtda yaxın zamanda hotellərin və bütün yerləşmələrin tam monitorinqi həyata keçirildi. Hazırda Bakı, Sumqayıt və Abşeronda yerləşən hotelləri Milli Ulduz Təsnifatına müraciət etməyə çağırırıq ki, tədbir zamanı tam keyfiyyəti təmin edək. Əsas hədəfimiz hər zaman olduğu kimi, bu il də hotellərdə xidmət keyfiyyətinin yüksəldilməsidir. Cari ildə bu, xüsusi əhəmiyyət daşıyır".

Turizm xidmətlərinin keyfiyyətinin daha da yüksəldilməsi haqlı olaraq konfransın müsbət nəticələri üçün ən vacib şərtlərdən biri kimi qeyd edilir. Təbii ki, turizm və logistika sahəsində yüzlərlə yeni peşəkar mütəxəssis hazırlanacaq, turizm xidmətlərinin keyfiyyəti daha da yüksəldiləcək. Regional turizm sahəsində də keyfiyyət dəyişikliyi gözlənilir, yeni marşrutlar və səhər turları təşkil olunacaq.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKKM) baş məsləhətçisi Gültac Miralıyeva COP29-un Azərbaycanda keçirilməsinin ölkəmizin davamlı inkişafına və beynəlxalq əməkdaşlığa sadiqliyini vurğulamaqla yanaşı, beynəlxalq arenada nüfuzunun daha da güclənməsinə müsbət təsir edəcəyini bildirib. Ölkəmizin namizədliyi məsələsində beynəlxalq aləmin vahid mövqedən çıxış etməsi Azərbaycanın dünyada getdikcə güclənən mövqeyinin, artan nüfuzunun əyani göstəricisidir. O, həmçinin qeyd edib ki, Bakıdakı mövcud infrastrukturu (hotel, nəqliyyat sistemi, hava limanı və s. baxımından) da ciddi sınaq gözləyir: "Statistika Komitəsinin bu ilin əvvəlinə olan göstəricisinə görə, Bakıdakı bütün hotellərin günlük əsasda birdəfəlik tutumu cəmi 24 minə, bütün Azərbaycandakı hotellərin birdəfəlik tutumu isə 56 minə bərabərdir. Yəni rəsmi rəqəmlərdən görünür ki, COP29 üçün gözlənilən turist sayı nəinki Bakının, bütün ölkənin hotellərinin birdəfəlik tutumundan çox ola bilər. Bakının bu tədbirə özündən öncəki şəhərlərdəki qədər qonağı qəbul edərək evsahibliyi etmək üçün infrastruktur imkanlarının qısa müddətdə ciddi artırılması zəruridir".

Bir sıra digər ekspertlər də hotellərin, restoranların öz imkanlarından maksimum istifadə etməsinin, xidmətin yüksək səviyyəsinin vacibliyini qeyd edirlər. Təbii ki, ölkəmizin evsahibliyi etdiyi əvvəlki böyük tədbirlərin təcrübəsi nəzərə alınacaq. Odur ki, COP29-un ən yüksək səviyyədə keçiriləcəyinə heç bir şübhə yoxdur.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Vətən müharibəsi iştirakçısı Zabuxda evlə təmin edilmişdir

**Laçının Zabux kəndində 44 günlük İkinci Qarabağ müharibəsi qazisi Taleh İsgəndərliyə evinin açarları təqdim olunub. Bu barədə "Azərbaycan" qəzetinə Şərqi Zəngəzur 2 saylı Bərpa, Tikinti-İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.**



Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin, eləcə də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və Şərqi Zəngəzur 2 saylı Bərpa, Tikinti-İdarəetmə Xidmətinin əməkdaşları qazinin evində ona yaradılan şəraitlə tanış olmuşlar.

Qeyd edək ki, Taleh İsgəndərov Füzulinin, Xocavəndin, Cəbrayılın və Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Hazırda Zabux kənd tam orta məktəbində hərbi hazırlıq və fiziki tərbiyə müəllimi işləyən Taleh İsgəndərov bir müddət əvvəl evlə təmin olunması üçün nümayəndəliyə müraciət etmişdi.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Əmək, məşğulluq, sosial müdafiə sahəsində islahatlar ötən il 22 beynəlxalq mükafat və sertifikata layiq görülüb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qurumları ötən il 22 beynəlxalq mükafat və sertifikatla təltif olunub.**

Nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu (DSMF) fəaliyyət sahələrində innovativ həllərin tətbiqinə əsaslanan islahatlara, əhaliyə çevik və şəffaf, proaktiv və əlçatan xidmətlərin qurulmasına görə son bir ildə 10 beynəlxalq mükafat və sertifikat əldə edib. DSMF-nin sədri isə ötən il beşillik müddətə Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının sədri seçilib.

Nazirliyin tabeliyindəki DOST Agentliyi daha bir beynəlxalq mükafat olaraq keçən il "Global HR Summit 2023" tədbiri çərçivəsində "Ən yaxşı KSM Strategiyası" kateqoriyası üzrə, Nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi isə "Business Awards UK" və "IDDA Awards 2023" müsabiqələrində qaliblər sırasında olublar.

Ötən il dövlət xidmətlərinin "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsində 1-ci yerə layiq görülən nazirliyin rəqəmsal sosial layihələri də 2023-cü ildə 10 beynəlxalq mükafatla təltif olunub.

O cümlədən e-sosial.az portalı və "Əmək və Məşğulluq altsistemi" Beynəlxalq Telekommunikasiya İttifaqının "Çempion layihə" mükafatlarına layiq görülüb. Nazirliyin tabeliyindəki DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi "VII FinTech Awards - 2023" və Texnologiya Təchizat Şəbəkəsinin "İnnovasiya Mükafatları - 2023", "Texnoloji İnnovator Müsabiqəsi-2023" və s. kimi beynəlxalq müsabiqələrin qalibi seçilib.

Ümumilikdə son iki ildə nazirliyin qurumları 44 beynəlxalq mükafat və sertifikatla təltif olunub.

# Davamlı inkişaf, möhtəşəm quruculuq, böyük Zəfər

**Yəqin bilirsiniz ki, dünyanın ən böyük gölü olan Xəzər dibində okean tipli yer qatı yerləşdiyinə və dəniz ölçülərinə malik olduğuna görə həm də dəniz adlanır. Amma çoxlarına bəlli deyil ki, illərlə dünyanın ən böyük bərələrində, tankerlərində çalışan təcrübəli gəmiçilər Xəzərdə heç də asanlıqla üzə bilmirlər. Şıltaq Xəzərdə əsən küləklərin yaratdığı fəsadlar, sərt dalğalar təcrübəli kapitanları belə çətin sınağa çəkir.**

## Xəzərin nəhəngi

### "Zərifə Əliyeva" gəmisi dünyanın ən böyük gölünün ən müasir sərnişin və yük bərəsidir



Sual edə bilərsiniz ki, məgər, dünya sularında külək əsmir və ya hündür dalğalar yaranmır?! Əlbəttə ki, baş verir. Lakin Xəzərdə tez-tez dəyişkən küləklərin əsməsi və ən əsası da hündür dalğaların ara tezliyinin qısa olması dənizi çox fərqləndirir. Xəzər bütün dünya sularında baş verən hadisələri özündə cəmləyir. Ona görə də Xəzərdə üzən gəmiçilər böyük təcrübəyə malik olurlar. Bu səbəbdən də beynəlxalq dəniz şirkətləri məhz Xəzər gəmiçiliyinin dənizçilərinə böyük ehtiyac duyurlar. Gəmi idarəçiliyi ilə bağlı verilən vakansiya yerlərinə ilk olaraq Xəzərdə təcrübəsi olan dənizçiyə üstünlük verilir. Çünki onlar dünya sularında çox rahatlıqla işləyə bilirlər.

Bu maraqlı məlumatı Azərbaycanın istehsal etdiyi "Ro-Pax" tipli "Zərifə Əliyeva" gəmisi ilə Qazaxıstana səfərimiz zamanı öyrəndik.

### 25 saat dalğaların üstündə ləngər vuran gəmi

Xəzərin Qazaxıstan sularındayıq. Limana çatmağa bir saatlıq yolumuz var. Amma yenicə başlayan şimal küləyinə yaxalanırıq. Dənizçilərin təbirincə desək, yavaş-yavaş "kaçka"ya (ləngərvurma) düşürük.

Kapitan Əbuzar Həsənov Qazaxıstanın Manğıstau vilayətinin Qarakiyə rayonunun Kurık limanı ilə əlaqə saxlayır və portdan bildirirlər ki, külək səbəbindən limana giriş 1 sutka dayandırılıb. Bu səbəbdən də kapitan küləyin istiqamətini müəyyən edib gəmini üzü küləyə döndərir. Çünki külək gəmini yan tərəfdən tutarsa, böyük təhlükə yarana bilər. Buna baxmayaraq, yenə də gəmi ləngərləməyə başlayır. Gəminin hər iki lövbəri suya endirilir. Beləliklə, külək səbəbindən 1 saatlıq yolumuz 25 saatla əvəzlənir...

Maraqlısı odur ki, gəminin sağa, sola ləngər vurması təkcə sərnişinlərə təsir göstərmir, bəzi dənizçilərdə də müəyyən hallar yaranır. "Kaçka" zamanı əksər sərnişinlərdə ürəkbulanma, qusma halları olur. Bəzi dənizçilərdə və sərnişinlərdə isə bu zaman qəribə aclıq hissi yaranır. Yəni hamı ləngərvurma zamanı dayanmadan nəsə yemək istəyir.

...Gəmi lövbər rayonunda dayanıb küləyin zəifləməsini gözləyir. Biz də bu imkandan yararlanıb kapitanın növbə köməkçiləri Pərviz Əliheydərov və Nurlan Vəliyevlə söhbətləşirik. Köməkçilərin hər ikisi Dövlət Dəniz Akademiyasının məzunudurlar. Pərviz gün ərzində heyət və sərnişinlərin gəmiyə giriş və çıxışı ilə bağlı sənədləşmə işlərini həyata keçirir. Nurlan isə yükləmə, boşaltma əməliyyatlarının və yüklərin sənədlərinin qeydiyyatını aparır. Hər iki gənc dənizçi olması ilə qürur duyur və məqsədləri gəmi kapitanı vəzifəsinədək yüksəlməkdir. Onlar üçün 3 ay dənizdə qalmaq o qədər də çətin deyil.

### Daşınan yüklər, qısalan məsafə, 1 illik bilet

Şam zamanıdır. Aşpazın menyusunda soyutma hindtoyuğu ilə soyutma kartof, bibər salatı var. Adətən, gəmi dalğaya düşəndə quru yeməklərə üstünlük verilir. Çünki ləngərvurma zamanı sulu xörək qazanlarının aşma təhlükəsi olur. Amma gəminin təcrübəli aşpazı qazanların sürüşməməsi üçün kənarlarını "çəpərləyərək" tam təhlükəsiz şəkildə heyətə lobya şorbası da bişirmişdir.

*(Əvvəli qəzetimizin 30, 31 yanvar tarixli nömrələrində)*



Ələt Beynəlxalq Dəniz Ticarəti Limanı



Qazaxıstan Kurık limanı

Sərnişinlər - yük avtomobillərinin sürücüləri yeməklərini yeyib "qırmızı guşə"də (foyedə yaradılmış istirahət yeri) bir-biri ilə söhbət edir, həm də Zərifə Əliyeva guşəsinə daxil olub kitabları, eksponatları maraqla izləyirlər. Biz də fürsətdən yararlanıb onların bəziləri ilə söhbətləşirik.

TIR sürücüsü Murat Kutlu və Özbəkistan vətəndaşı Xeyrulla Xalmatoğlu 4-cü dəfədir ki, gəmi ilə yük aparırlar. Türkiyədən keçməklə Avropa ölkələrinə polietilen məhsulu daşıyan sürücülər gəminin çox rahat marşrut olduğunu deyirlər. Sözlərinə görə, quru yolla məsafə həm də uzaq olur: "Mən Avropaya məhsul daşıyıram. Rusiyadan Avropaya keçidə qadağa qoyulduğu üçün gəmi ilə gedirik. Quru yolla getsək, məsafə çox uzaq olur. Gəmi ilə Azərbaycandan keçəndə məsafə 1000 kilometr qısalır. Həm də gəmidə rahatlıq tapır, istirahət edirik", - deyə Murat Kutlu bildirir.

Söhbət əsnasında o da bəlli olur ki, əgər sürücü gediş-dönüş üçün bilet alırsa, həmin biletin 1 il qüvvədə qalma müddəti olur. Yəni bu gün gəmimizdə olan hansısa TIR sürücüsü gediş və dönüş üçün bilet alıbsa, Qazaxıstanda yükünü götürüb limandan çıxdıqdan sonra bir il müddətində həmin biletlə gəmi ilə geri qayıda bilər.

### Əlverişli coğrafi mövqeyə malik liman

Artıq 24 saatdan çoxdur ki, lövbər rayonundayıq...

Tam bir gün gəmi dənizin dalğaları üzərində ləngər vurur. Heyətin bəzi üzvləri asudə vaxtda domino, nərd-taxta oynayır, bəziləri idman zalında məşq edirlər.

Küləyin sürəti getdikcə azalır və bir qədər sonra Kurık limanından gəmiyə xoş xəbər gəlir - limana daxil ola bilərsiniz.

Kapitanın komandası ilə lövbərlər yığılır və bərə yoluna davam edir. Təxminən 1 saatdan sonra limana yaxınlaşırıq. Limanın kiçik yedək gəmisi bizə yardıma gəlir. Bu, bütün limanlarda belədir. Gəmi limana yan alarkən yedək gəmiləri yanalmaya kömək göstərir. Bərə yerində fırlanır və geriyə üzməklə limana yan alır. Arxa körpü açılır və dəmir yolu xətləri ilə limanın dəmir yolu xətləri birləşdirilir. Sahil bələdçiləri gəminin arxa və ön kəndirlərini limana bərkidirlər. Bundan sonra yüklərin boşalmasına start verilir.

Qazaxıstanın Kurık limanı haqqında məlumat da yəqin ki, sizin üçün maraqlı olar. 2016-cı ildə istismara verilən limanın ümumi sahəsi 40 hektardır və əlverişli coğrafi mövqeyə malikdir. Burada suyun dərinliyi böyük tutumlu gəmilərin yan almasına imkan verir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əsas tərkib hissəsindən biri sayılan Kurıkdan yüklər Azərbaycan və Gürcüstandan keçərək Avropaya göndərilir. Liman vasitəsilə Qazaxıstan neft və neft məhsulları, metal, gübrələr, kimya məhsullarının nəqli həyata keçirilir. Çin və Mərkəzi Asiya ölkələrindən Azərbaycan, Gürcüstan, Türkiyə, sonra Şərqi Avropaya və əks istiqamətə yüklərin tranziti artır. Hazırda limanda taxıl terminalının tikintisi aparılır. Onun üzərindən ildə milyon tona qədər taxıl daşınacaq.

Göyərtə komandası yükləri tam boşaltdıqdan sonra Qazaxıstanın gömrük və sərhəd xidmətinin əməkdaşları gəmiyə daxil olub sənədləri yoxlamadan keçirirlər.

Bir qədər sonra gəmiyə yeni yüklər qəbul edilir. Helikopter meydanından həm təkərli yüklərin göyərtəyə necə daxil olmasını izləyir, həm də günəşin al-qırmızı rəngdə qürub etməsini arzulayırıq. Çünki dənizçi təbirincə desək, günəş batarkən ətrafının qırmızı rəngə boyanması sabah küləksiz, aydın və günəşli havaya işarədir. Yüklər gəmiyə yığılıb bitənə qədər günəşin hər tərəfi al-qırmızı rəngə boyanmışdı. Bu, təhlükəsiz və uğurlu səfərin xoş müjdəsi idi...











### Tarixinin ən qüdrətli dövrünü yaşayan milli gəmiçiliyimiz

38 yük avtomobili, 1 ekskavator, 2 kran, ümumilikdə 1224 ton yük və (27 heyət üzvü, 39 sərnişin) 66 nəfərlə gəmi Azərbaycana geri qayıdır.

Dünən axşam günəş qürub edərkən ətrafının al-qırmızı rəngi bu sabah gəminin yoluna sanki nur saçır. Gəminin hərəkətinə heç bir maneə yoxdur. Sanki bir rahatçılıq var. Amma kapitan Əbuzar Həsənov tez-tez naviqasiya və digər aparatlara diqqət edir, ətrafa boylanır və müxtəlif göstərişlər verir. Təcrübəli dənizçi deyir ki, çox vaxt qəzalar məhz belə sakit, aydın, günəşli havalarda baş verir: "Hər gəminin hərəkət trayektoriyası var. Belə havada dənizdə üzən bir neçə gəminin kapitan heyəti rahatlaşıb hərəkətə nəzarəti boş buraxsa, bərələrin, tankerlərin bir-birinə yaxınlaşması baş verə bilər. Bu da qəzanı qaçılmaz edər. Ona görə də bir an belə gəmini nəzarətsiz qoymaq olmaz".

Məhz bunun səbəbidir ki, peşələrinə sadiq olan Azərbaycan dənizçiləri onlara göstərilən xüsusi diqqət və qayğı sayəsində ölkəmizin tranzit imkanlarının daha da şaxələndirilməsi, əlverişli nəqliyyat qovşağı kimi nüfuzunun daim yüksəlməsi üçün töhfələrini verirlər.

Ümumiyyətlə, Azərbaycanda gəmiçiliyin hazırkı inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə dəniz nəqliyyatı sahəsinə xüsusi diqqət göstərib. Heydər Əliyev bu sahədə çalışanların əməyini daim yüksək qiymətləndirib. Buna görə də dənizçilərimiz dahi liderin gəmiçiliyin inkişafındakı əvəzsiz xidmətlərini heç vaxt unutmur, əziz xatirəsini hər zaman uca tuturlar. Hazırda Xəzərdə üzən "Prezident Heydər Əliyev" tankeri də bu sevginin bariz nümunəsidir.

Əminliklə deyə bilərik ki, bu gün milli gəmiçiliyimiz tarixinin ən qüdrətli dövrünü yaşayır. Azərbaycan gəmiçiliyi müasir standartlara çatıb, nəhəng tankerlərimiz beynəlxalq sularda üzür. Gəmiçiliyimiz Azərbaycanın logistika və ticarət qovşağı kimi aparıcı mövqeyinin gücləndirilməsində, ölkədə yaradılmış tranzit potensialından tam istifadə olunmasında, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə şərq-qərb və əks istiqamətdə, həmçinin Xəzərdənkənar hövzələrdə - əsasən Qara dəniz və Aralıq dənizi hövzələrində yükdaşımalarda mühüm rol oynayır.

### Asiyadan Avropaya ən qısa yol Azərbaycandan keçir

Bir gün öncə Kurık limanından yola çıxan gəmi artıq Azərbaycan sularına daxil olub. Bir qədər sonra kapitan aidiyyəti qurumlardan Ələt limanına daxil olmaq üçün icazə istəyir.

Beləliklə, 2022-ci ilin mayın 5-də ilk səfərinə Qazaxıstanın Kurık limanı ilə başlayan gəmi daha bir reysini uğurla başa vurur. Uzaq Şərqdən gələn yüklər indi Azərbaycandan Avropanın müxtəlif ölkələrinə ötürüləcək. Bu, Azərbaycanın nəqliyyat-tranzit qovşağı kimi yaratdığı imkanların reallıqlarıdır.

2023-cü il ərzində "Zərifə Əliyeva" bərəsi 177 reys edib. Bu reyslərdə 207 vaqon, 6225 yük maşını, 907 minik maşını, 24 göyərtə yükü, 5864 sərnişin daşınıb. Bu səfərlər zamanı gəmiçilərimiz heç bir ciddi problemlə qarşılaşmayıblar.

Biz də gəmi ilə ilk reportajımızı uğurla başa vururuq. Amma "Zərifə Əliyeva" gəmisi və onun heyəti bir neçə saatdan sonra yenidən Qazaxıstana üz tutacaq.

Arzu edirik ki, bütün dənizçilər üçün günəş hər axşam qürub edərkən al-qırmızı rəngə boyansın!

Həyatını mavi sulara həsr edən, ömrünün yarısını dalğalarla mübarizədə keçirən qəhrəmanlara "kil altından 7 fut təmiz dəniz" arzulayırıq...

Bizim gəmi ilə reportajımız yekunlaşsa da, gəmiçiliklə işimiz bitmir. İndi yolumuz məhz "Zərifə Əliyeva" bərə-gəmisinin və onun "kiçik qardaşlarının", nəhəng tankerlərin istehsal edildiyi Gəmiqayırma Zavodunadır. Gedək görək mavi sularda üzən nəhəng gəmilərimizi necə hazırlayırlar...

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

*Azərbaycan-Qazaxıstan-Azərbaycan*









## Elm xadimləri

# Ömrünü "yaşıl dünya"nın sirlərinə həsr etmişdi

**Böyük alim və ictimai-siyasi xadim, akademik Cəlal Əliyevin haqq dünyasına qovuşmağından səkkiz il ötür. Azərbaycan və dünya elminin tarixində özünəməxsus iz qoyub getmiş, bütün həyatı alimlik, müəllimlik və insanlıq nümunəsi olan bu fenomenal şəxsiyyətin itkisi, bu itkidən yaranmış boşluq hər gün hiss olunur.**



Sanki Tanrı akademik Cəlal Əliyevin üzərinə bir alim və vətəndaş kimi elmin təmizliyi və elmi həqiqətin təntənəsi naminə haqq carçısı olmaq, özündən sonra yaşamını və parlaq əməllərini davam etdirəcək böyük bir elmi məktəb yaratmaq, Azərbaycan elmini, Azərbaycan idrakını, xalqımızın zəkasını bütün dünyada tanıtmaq, müstəqilliyimizin və dövlətçiliyimizin möhkəmlənməsinə xidmət göstərmək missiyası qoymuşdu.

Bu gün Azərbaycan dövləti tarixinin ən möhtəşəm dövrünü yaşayır. Növbəti prezident seçkilərinə hazırlaşan müstəqil ölkəmizdə dayanıqlı inkişaf və tərəqqi dönməz xarakter almışdır. Azərbaycanı yüksək inkişaf etmiş ölkələrin sırasına daşıyacaq yeni mərhələ hər bir vətəndaşa dünya miqyasında rifah və təhlükəsizlik standartları, davamlı sülh və əmin-amanlıq vəd edir. Şəksiz bir həqiqətdir ki, bu uğurların əsasında Ulu Öndər Heydər Əliyev tərəfindən irəli sürülmüş və reallaşdırılmış milli qurtuluş konsepsiyası dayanır. Ümummilli Liderin 1980-1990-cı illərdə Azərbaycan uğrunda apardığı mücadilənin ön sıralarında yer almış şəxslərdən biri olmuş akademik Cəlal Əliyevin müasir Azərbaycan elminin inkişafında xidmətləri danılmazdır. Elmdə və elmə münasibətdə daim həqiqət axtaran Cəlal Əliyev bu yolda bəzən siyasi və mənəvi təzyiqlərlə üzləşmiş, lakin şəxsi iradəsi və cəsarəti, daim haqqa, ədalətə tapınması sayəsində bütün çətinlik və bəlalardan üzüağ çıxmağa müvəffəq olmuşdur.

Bu gün Azərbaycan elm və təhsildə, yüksək texnologiyalara, süni intellektə və rəqəmsal idarəetməyə əsaslanan cəmiyyət quruculuğunda böyük uğurlara doğru iri addımlarla irəliləməkdədir. Bu sahədə, xüsusən biologiya elminin dünya reytinqlərində ön sıralara yüksəlişində, ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində, biomüxtəlifliyin qorunmasında Cəlal Əliyevin dühasının, yaratdığı və xeyirdua verdiyi böyük elmi məktəbin öz çəkisi, öz yeri, öz rolu vardır.

Bu böyük şəxsiyyətin elmi uzaqgörənliyi sayəsində Azərbaycanda biologiya elminin ən müasir istiqamətlərinin, o cümlədən fiziki-kimyəvi biologiyanı inkişaf etdirməklə molekulyar biologiya, molekulyar genetika, gen və hüceyrə biotexnologiyaları, riyazi biologiya, bioinformatika, kompüter biologiyası və s. kimi mühüm elm sahələrinin təşəkkülü və inkişafı yüksək şəkildə təmin edilmişdir. Xüsusi qeyd olunmalıdır ki, biologiyada inteqrativ, multidissiplinar yanaşmaların dünyada ilk təşəbbüskarlarından və təşkilatçılarından biri, bəlkə də birincisi məhz Cəlal Əliyev olmuşdur.

Keyfiyyətli insan kapitalının cəlb edilməsi ilə elmin inkişafı üçün atılması vacib olan addımlardan danışarkən, bu sahədə Azərbaycanda mövcud olmuş, unikallığı ilə seçilən təcrübəni xatırlatmaq lazımdır.

Heydər Əliyevin elmin ən müasir və perspektiv sahələrində yüksəkixtisaslı alim kadrların hazırlığı ilə bağlı məqsədyönlü siyasətinin həyata keçirilməsində akademik Cəlal Əliyev tərəfindən görülmüş işlər olduqca böyük dəyərə malikdir. Bu böyük elm ağsaqqalı və müəllim perspektivli, istedadlı gəncləri ətrafına toplayır, elmə fanatikcəsinə vurğunları həmişə qiymətləndirir, çətin anlarda onlara dayaq olaraq inamla irəli getmələri üçün zəmin yaradırdı. Onun ustad himayəsi, müəllim qayğısı və şəxsi təşəbbüsü ilə 300-ə yaxın gənc dissertasiya müdafiə edərək alim adı qazanmışdır. Cəlal müəllim onlardan 80-dən çoxunun namizədlik dissertasiyasının bilavasitə elmi rəhbəri, 12-nin doktorluq dissertasiyasının elmi məsləhətçisi olmuşdur. Böyük alimin gərgin zəhməti sayəsində Azərbaycanda müxtəlif elm sahələri (kimya, fizika, riyaziyyat və s.) üzrə savadlı mütəxəssislərin biologiya və aqrar elmlərin ən müasir istiqamətləri üzrə tədqiqatlara cəlb olunması, kadrların hazırlanmasında keçmiş ittifaqın və uzaq xaricin tanınmış elm və təhsil mərkəzlərindən, görkəmli alimlərin elmi rəhbər kimi cəlb edilməsi təcrübəsindən istifadə edilməsi öz bəhrəsini vermişdir.

Hər hansı bir sahənin inkişafında başlıca nailiyyətlərin yalnız keyfiyyətli insan kapitalının düzgün seçilməsi və inkişafı ilə əldə edilə biləcəyini dahiyanə surətdə dərk edən akademik Cəlal Əliyevin yaratdığı və Azərbaycanda biologiya elminin əsas potensial qüvvəsini təşkil edən elmi məktəbinin nümayəndələri bu gün ABŞ, Kanada, İsveç, Böyük Britaniya, Yaponiya, Cənubi Koreya, Avstraliya, Rusiya və onlarla digər qabaqcıl ölkənin tanınmış universitetlərində, elmi-tədqiqat müəssisələrində, beynəlxalq mərkəzlərdə çalışmaqla elmə ləyaqətlə xidmət edir, vətənimizə dünya səviyyəsində nüfuz qazandırırlar. Azərbaycanda biologiya elminin gələcək inkişafı çox cəhətdən bu adamlardan, onların Cəlal Əliyev yolunu davam etdirmək cəhdləri və bacarıqlarından, elmi və təşkilati cəhətdən məqsədyönlü yüksəlişlərindən, həmrəyliyindən və Azərbaycan elminin dünya elminə inteqrasiyasına göstərdikləri dəstəyin səviyyəsindən asılı olacaqdır.

Azərbaycan elmi tarixində ilk dəfə olaraq apardığı tədqiqatların əhəmiyyətli bir hissəsini yer üzərində həyatın əsasını təşkil edən, işığın enerjisini həyatın davamına yönəldən fotosintez prosesinin sirlərinin, nəzəri əsaslarının öyrənilməsinə həsr edərək özünün orijinal, fundamental tədqiqatları ilə bütün dünyada qəbul edilən ən mühüm elmi nailiyyətlərə imza atmış Cəlal Əliyev, əslində, ilahi nurun daşıyıcısı, işləri, əməlləri, yazıları, çıxışları, hər bir sözü isə bu nurun qaranlığı, nadanlığı, məchulluğu parçalayıb dağıdan şüaları olmuşdur.

Akademik Cəlal Əliyev fotosintez prosesinin müxtəlif tədqiqat istiqamətlərinin inteqrasiyası hesabına "yaxşı" fotosintez haqqında təsəvvür yaratmış, kənd təsərrüfatı bitkilərindən yüksək və keyfiyyətli məhsul əldə edilməsi üçün prosesin optimallaşdırılması məsələlərini araşdırmışdır. O, dünya elmində bitkilərdə fototənəffüsün israfçılıq olması və məhsuldarlığı artırmaq üçün bu prosesi azaltmaq zərurəti ilə bağlı uzun illər mövcud olan təsəvvürlərin əksinə olaraq, tarla şəraitində yetişdirilən kontrast buğda və soya genotipləri ilə aparılan 40 illik təcrübələrlə sübut etmişdir ki, fototənəffüs təkamülün gedişində formalaşmış həyati əhəmiyyətli metabolik proseslərdən biridir və bitkilərin məhsuldarlığını artırmaq məqsədilə müxtəlif yollarla fototənəffüsü azaltmaq cəhdləri əsassızdır. Əminliklə demək olar ki, fototənəffüs prosesi ilə bağlı əldə etdiyi bu qlobal nəticə dünya elminin tarixinə qızıl hərflərlə yazılmışdır.

Qeyd edək ki, fotosintez elminə verdiyi dəyərli töhfələr böyük alimə dünya şöhrəti qazandırmışdır. Beynəlxalq Fotosintez Cəmiyyətinin (ISPR) akademik Cəlal Əliyevin adına mükafat ("The Jalal Aliyev Lecture Award") və medal təsis etməsi bunun əyani sübutu olmaqla Azərbaycan elm tarixi üçün çox önəmli bir hadisə, xalqımız üçün qürurverici bir faktdır.

Akademik Cəlal Əliyevin bütün elmi fəaliyyəti Ulu Öndər Heydər Əliyevin "Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə gətirə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur" kimi dahiyanə fikirlərinə əsas verir. Azərbaycanda kənd təsərrüfatı biologiyası və bitkilərin seleksiyası sahəsində yeni elmi nəzəriyyənin formalaşdırılması akademik Cəlal Əliyevin mühüm xidmətlərindəndir və o, ilk dəfə təcrübi yolla yeni intensiv tipli sortların yaradılmasına və tətbiqinə imkan verən fundamental elmlə sahə tədqiqatlarının yeni formada vəhdətini, inteqrasiyasını yaratmışdır.

Alimin fundamental tədqiqatlarının nəticələri praktikada tətbiqini tapmaqla Azərbaycanda taxılçılığın inkişafına və ərzaq təhlükəsizliyinin təmin edilməsinə dəyərli töhfələr vermişdir. Fotosintez əlamətlərinin irsən keçməsinin, ümumiyyətlə, irsiyyətin öyrənilməsi, genotiplərin donor xüsusiyyətlərinin aşkar olunması və ən başlıcası "ideal" tipə yaxın sortların yaradılması üzrə məqsədyönlü seleksiya işlərinin seleksiyaçılarla genetiklərin, fizioloqların, kimyaçıların, fitopatoloqların, entomoloqların birgə fəaliyyəti çərçivəsində kompleks şəkildə həyata keçirilməsi onun adı ilə sıx bağlıdır.

Cəlal müəllimin ideal buğda konsepsiyasına uyğun olaraq, Azərbaycanın mürəkkəb torpaq-iqlim şəraitinə malik müxtəlif bölgələrinə uyğun yaratdığı sortlar yüksək məhsuldar, quraqlığa, aşağı və yuxarı temperatura, xəstəlik və zərərvericilərə davamlı, şoran torpaqlarda da nisbətən yüksək məhsul vermək qabiliyyətinə malik olmaqla ölkəmizin hüdudlarından çox-çox uzaqlarda şöhrət qazanmış, beynəlxalq təşkilatlar tərəfindən də dəfələrlə təqdir edilmişdir. Bu bir danılmaz həqiqətdir ki, son 50 il ərzində Cəlal Əliyevin yaratdığı buğda sortlarının unundan bişirilmiş çörəyin ətri Azərbaycanda, demək olar ki, hər ailəyə, hər evə daxil olaraq bərəkət və əmin-amanlıq simvoluna çevrilmişdir. Təsadüfi deyil ki, bu gün ölkədə ərzaqlıq buğda istehsalı ilə bağlı qarşıya qoyulan vəzifələrin icrasında akademik Cəlal Əliyev və davamçıları tərəfindən yaradılmış sortlar həlledici rol oynayır.

Akademik Cəlal Əliyevin respublikada biomüxtəlifliyin qorunub saxlanması və səmərəli istifadəsi sahəsində də xidmətləri böyük olmuşdur. Azərbaycanda "yaşıl inqilab"ın atası hesab edilən böyük alim biomüxtəlifliyə həm canlı həyatın davamı üçün yeganə vasitə, həm də seleksiya proqramlarında səmərəli istifadə üçün tükənməz gün mənbəyi kimi baxırdı.

Böyük alimin Azərbaycanın biomüxtəlifliyi sahəsində istiqamətverici fəaliyyəti, rəhbərliyi altında həyata keçirilmiş layihələr, vaxtilə yazı və çıxışlarında verdiyi tövsiyələr "Yaşıl dünya naminə həmrəylik ili"ndə xüsusilə aktuallıq kəsb edir. Azərbaycan təbiətinin, nadir və itməkdə olan növlərin bərpası və mühafizəsi, milli bitki və heyvan genefondunun qorunub saxlanması sahəsində son illərdə əldə edilmiş nailiyyətlərdə onun və tələbələrinin xidmətləri əvəzsizdir. Akademik Cəlal Əliyev 2013-cü ildə çap edilmiş Azərbaycan Respublikasının "Qırmızı kitab"ının II nəşrinin redaksiya heyətinə rəhbərlik etmiş, "Qırmızı kitab"ın 2023-cü ildə işıq üzü görmüş və Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş III nəşrinin hazırlanmasında isə onun davamçıları və elmi məktəbinin nümayəndələri həlledici rol oynamışlar.

2023-cü ildə Azərbaycanın elmi ictimaiyyəti və böyük alimin tələbələri tərəfindən akademik Cəlal Əliyevin anadan olmasının 95 illiyi qeyd edilmişdir. Hər zaman olduğu və özünün də vəsiyyət etdiyi kimi, yubiley tədbirləri elmi xarakter daşımışdır. 16 noyabr 2023-cü il tarixdə AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi və AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun təşkilatçılığı ilə "Fotosintez, ətraf mühit və bitkilərin məhsuldarlığı" mövzusunda "Akademik Cəlal Əliyev qiraətləri" keçirilmişdir. Beynəlxalq iştirakla təşkil edilən bu mühüm elmi tədbirdə plenar məruzəçi fotosintez sahəsində dünyaşöhrətli alim, Beynəlxalq İpək Yolu Elmlər Akademiyasının Start Komitəsinin üzvü, Macarıstanın Elmlər Akademiyasının Bioloji Tədqiqat Mərkəzinin professoru, Çexiya Respublikasının Ostrava Universitetinin dəvətli professoru, Biofotonika R&D Ltd.-nin baş direktoru Gyozo Qarab olmuşdur.

Akademik Cəlal Əliyevin ideya və nəzəriyyələri, Azərbaycan və dünya elminə gətirdiyi yeniliklər, mühüm elmi nailiyyətləri, onların əks olunduğu 800-ə qədər elmi əsər, o cümlədən 25 fundamental monoqrafiya və kitab, 20 müəlliflik şəhadətnaməsi, yadigarı olan Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, yaratdığı bitki sortları, daim təkamüldə olan elmi məktəbi Azərbaycan xalqının milli sərvətləridir. Əminliklə demək olar ki, bu sərvət nəinki heç vaxt tükənməyəcək, əksinə, zaman keçdikcə artacaq, genişlənəcək və bununla böyük alim, ictimai-siyasi xadim və müəllimin əziz xatirəsini əbədi yaşadacaqdır.

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti,***
***AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik***

## Vətəndaş cəmiyyəti

# Cənubi Qafqaz regionu üçün ekoloji ədalət tələb edir

### 22 ölkədən 50-dək QHT Azərbaycan və Ermənistan QHT-lərinə həmrəylik mesajı verib

22 ölkədən 50-dək qeyri-hökumət təşkilatı və ekofəal Ermənistanın dağ-mədən sənayesində beynəlxalq ekoloji norma və standartları pozaraq həyata keçirilən işlərin dünyanın ekosistemini pozmasına dair bəyanat yayıb. Onlar Cənubi Qafqaz regionu üçün ekoloji ədalət tələb edir.

AZƏRTAC bəyanatı təqdim edir:

"Biz, aşağıda imza edən xarici ölkələrin vətəndaş cəmiyyəti təşkilatları və fəalları Ermənistan Respublikasının dağ-mədən sənayesində beynəlxalq ekoloji norma və standartları pozaraq həyata keçirilən işlərin ekologiyaya vurduğu ciddi ziyanla bağlı dərin narahatlığımızı bildiririk.

Ermənistanın dağ-mədən sənayesindəki hava və suyun çirklənməsi vaxtilə lokal xarakterli olsa da, artıq onun fəsadları təkcə Cənubi Qafqaz üçün deyil, bütün dünya üçün ciddi təhdidə çevrilib. Ermənistanın mədən sənayesi transsərhəd çayları çirkləndirməklə Şərqi Avropadan Mərkəzi Asiyaya qədər geniş coğrafiyada bir sıra ekoloji problemlərə səbəb olmaqda davam edir.

BMT təmiz, sağlam və davamlı ətraf mühiti əsas insan hüququ kimi tanıyır. Qlobal ictimaiyyətin BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün səfərbər olduğu, ekoloji problemlərin həlli üçün səylərini gücləndirdiyi bir vaxtda Ermənistanın bu hərəkətləri Transsərhəd Çaylar Konvensiyası və BMT-nin Avropa İqtisadi Komissiyasının Transsərhəd Kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasının (Espoo Konvensiyası) tələblərini ciddi şəkildə pozur.

Yaxın zamanda BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflər Konfransı - COP29-un Cənubi Qafqaz regionunda, Azərbaycanda keçiriləcəyini nəzərə alaraq, Ermənistan da ətraf mühitə ziyan vuran əməllərdən çəkinməli, bununla da beynəlxalq konvensiyalardan irəli gələn öz öhdəliklərini yerinə yetirməlidir.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC), iqlim dəyişmələrinə həsr olunmuş əsas beynəlxalq razılaşmanın, inkişaf etmiş ölkələr üçün emissiyaların məcburi azaldılması hədəflərini müəyyən edən UNFCCC ilə əlaqəli beynəlxalq müqavilə olan Kioto Protokolunun, eləcə də UNFCCC çərçivəsində qlobal istiləşməni sənayedən əvvəlki səviyyədən 2 dərəcədən çox aşağı səviyyədə məhdudlaşdırmaq məqsədi daşıyan beynəlxalq müqavilə - Paris Sazişinin tərəfi kimi, Ermənistan qlobal miqyasda iqlim dəyişmələri ilə mübarizə aparmaq və planetin qorunmasında qaydalara riayət etmək öhdəliyini götürüb.

Biz, Ermənistan hökumətini və Ermənistanın dağ-mədən sənayesi müəssisələrinin məxsus olduğu özəl şirkətləri həmin müəssisələrdə təftiş, qiymətləndirmə və monitorinq işləri aparmaq üçün ekologiya və sağlamlıq sahəsində ixtisaslaşmış beynəlxalq ekspertlərə, o cümlədən qonşu ölkələrdən olan ixtisaslaşmış QHT-lərə şərait yaratmağa çağırırıq.

Biz, həmçinin Amulsar (Qeyd: Amuldağ nəzərdə tutulur) qızıl mədənində ekosistem üçün əhəmiyyətli dərəcədə zəhərli və radioaktiv çirklənmə riskləri yaradan mədən işlərinin dayandırılması ilə bağlı Ermənistan və Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatlarının bu yaxınlarda Ermənistan hökumətinə və bütün maraqlı şirkətlərə ünvanlanmış müraciətində qeyd olunan dərin narahatlığı da bölüşürük.

İmzalar:

| | | | |
|---|---|---|---|
| 1. | Məryəm Daneş | Vaşinqton və Li Universiteti, ekofəal | ABŞ |
| 2. | Aleksandr Eames | Planet 2030 təşkilatı | Birləşmiş Krallıq |
| 3. | Saurab Kumar | YOUNGO - BMT-in Gənc İqlim Çempionları | Hindistan |
| 4. | Patsi Stillo | "Partners in Health" təşkilatı | ABŞ |
| 5. | Şəmsiyə Kukanbekova | Stop TB Tərəfdaşlığı | Tacikistan |
| 6. | Kristina Zhorayeva | "AFEW" | Qazaxıstan |
| 7. | Manoj Prabhu | "Dure" | İsveçrə |
| 8. | Erna Yasareviç | "Dostluq körpüləri" | Bosniya və Herseqovina |
| 9. | Met Qarnet | Miçiqan Universiteti, eko-fəal | ABŞ |
| 10. | Qleb Yevqeniy | "MADI" | Rusiya |
| 11. | Nikolay Russu | "Gənc Baxış" | Moldova |
| 12. | Fernando Sançes | "Braziliya Tibb Bacıları" Assosiasiyası | Braziliya |
| 13. | Prof.Dr.Ejaz Khan | İctimai Səhiyyə və Epidemiologiya üzrə Səhiyyə Xidmətləri Mərkəzi | Pakistan |
| 14. | Mohmad Hüseyn Lon | Beynəlxalq İnsan Hüquqları Komissiyası | İsveçrə |
| 15. | Əhməd Hudu Abdullahi | Afrihealth Optonet Assosiasiyası | Nigeriya |
| 16. | Karm Sitro | "Partners in Health" təşkilatı | ABŞ |
| 17. | Ermin Yasareviç | "Dostluq körpüləri" | Bosniya və Herseqovina |
| 18. | Naomi NguemadciIbaue Dabot | "ONG" Çad İqliminin Yaşıl Akademiyası | Çad |
| 19. | Kristina Yakama | "Yaxşı Səhiyyə İcma Təşəbbüsü" Qrupunun rəhbəri | Keniya |
| 20. | Konadu | "Altar" İnam Fondunun rəhbəri | Qana |
| 21. | Peter Owiti | "Wote" Gənclərin İnkişafı Təşkilatının direktoru | Keniya |
| 22. | Zeki Kılıçaslan | İstanbul Vərəm Savaş Dərnəyi | Türkiyə |
| 23. | Sergey Uçayev | "Ishonch və Hayot" | Özbəkistan |
| 24. | Stiven Anquva Şikoli | Kenyanın Vərəm çempionları Şəbəkəsi | Keniya |
| 25. | Şəmsəddin Kuzəçi | Kərkük Mədəniyyəti İctimai Birliyi | Türkməneli-İraq |
| 26. | Ere Qabriel Erukudi | ətraf mühit üzrə ekspert, ekofəal | Nigeriya |
| 27. | Festus Ngisipaan | "Kakuma" Sağlamlıq Təhlükəsizliyi Assosiasiyası | Keniya |
| 28. | Norman Kagiso Matiting | "TBpeople" | Botsvana |
| 29. | Ezekiel Odeoh | Aqro Ətraf Mühit Fermerləri Assosiasiyası (AGEFA) | Keniya |
| 30. | Endalkchew Fekadu | "VHS" təşkilatı | Efiopiya |
| 31. | Əli Iklaqa | "Təbii Eko Paytaxtı" təşkilatı | Nigeriya |
| 32. | Gabriel Ekalale | Asegis İcma Şəbəkəsi | Keniya |
| 33. | Nişan Çavan | İctimai Səhiyyə üzrə ekspert | Hindistan |
| 34. | Alfred Edapal | Lomeds Təşkilatı | Keniya |
| 35. | Çarlz Quist | "Carepol" Fondu | Qana |
| 36. | Rebekka Abulon | "Asegis" İcma şəbəkəsi | Keniya |
| 37. | Filiz Duyar Ağca | Türk Toraks Dərnəyi | Türkiyə |
| 38. | Olorun Femi | "Təbii Eko Paytaxtı" təşkilatı | Nigeriya |
| 39. | Emerı Elıud | Beynəlxalq TUBAE Təşkilatı | Keniya |
| 40. | Coz Mariya | GEP Fondu | Argentina |
| 41. | Lemaya Lumbasi | "A4ek" QHT-si | Keniya |
| 42. | Erlina Burhan | Respirator Xəstəliklər üzrə İndoneziya Assosiasiyası | İndoneziya |
| 43. | Loçuç Yatu | "TODANYATU" İcma-əsaslı Təşkilatı | Keniya |
| 44. | Karani Franklin | Loyifam Təşkilatı | Keniya |
| 45. | Cozef Ngaukon Açuqa | "Ayok" Multi-inkişaf Təşkilatı (AMDO) | Keniya |
| 46. | Con Akinnuba | Ekologiya və İcma İnkişaf Mərkəzi | Nigeriya |
| 47. | Samuel Iro Tomoro | TUNETAD | Keniya |
| 48. | Kolins Mayor Kinyuru | Pamoja TB group | Keniya |
| 49. | Cozef Kilonzo | "BİSK" Gənclər təşkilatı | Keniya |

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 7 fevral (Cümə günü) tarixli 108-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Cümə, 6 cəmadiyələvvəl sənə 1337.
7 şubat sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA
## (Keçən nömrənin mabədi)

Hökumət tərəfindən Daxiliyyə naziri Xəlil bəy Xasməhəmmədov cənabları dəxi izahat verir.

**Xəlil bəy** - Möhtərəm məbuslar! Sorğuya cavab verməzdən əvvəl bir neçə kəlmə söz söyləmək istərəm. Əvvəla bunu nəzərə almalısınız ki, sorğu Parlaman əlində böyük bir ixtiyardır. Sorğu ixtiyarı Parlaman üçün bir kontrol, təftişdir. Sorğu elə bir şeydir ki, onun vasitəsilə hökumətin cəmi işlərini bilə bilərsiniz. Böylə də olmalıdır, xüsusən o yerlərdə ki, parlamentarizm üsulu ilə idarə olunurlar. Hər nazir özünü borclu bilir, varid olan [verilən] sorğuya cavab versin. Mən Daxiliyyə naziri və bütün hökumət o fikirdəyik ki, hökumət düz, doğru və qanuni olsun gərək və hər sorğu barəsində doğru cavab versin və sizin fikrinizi bilsin. Bunların həpsi məmləkətin səlaməti və xeyri üçündür.

Siz görürsünüz ki, sorğu nə qədər böyük işdir, həm Parlaman, həm Hökumət buna əhəmiyyət verir. Siz bilirsiniz ki, sorğunun qaydası nədir, nə cür verilə bilər. Əvvəla, sorğu o vaxt verilir ki, qanunsuzluq ola, xəyanət ola. Saniyən [ikincisi] daxili və siyasi işlərdə, nazirlərin fəaliyyətindən məmləkətə zərər yetişə. Üçüncü, sorğu o vaxtı olar ki, məmurlar xəyanət işləyələr, Nəzarət [Nazirlik] onun müqabilinə çarə görməyə, işlər basdırılıb gedə. Bu nöqteyi-nəzərdən baxılsa, sorğunun da böyük xeyri olar. Bu ümumi bir qaydadır. Ancaq bizim Parlamanımızın nizamnaməsi olmadığından, hər sorğu qanuni hesab edilərək cavab veririz. Halbuki, adətən öylə sorğular olur ki, sorğu dairəsindən çıxır. Böylələrinə hökumət ələlədə cavab vermir. Siz soru[şu]rsunuz ki, Azərbaycan daxilində buğda yığılıb dağıldığı və hökumət məmurlarının da iştirak etdikləri məlumdurmu? Azərbaycan Hökuməti heç öylə bir qanun verməmişdir ki, əhalidən bir "dən" də yığılsın. Siz bilirsiniz ki, buğda yığılıb Türk Komandanlığı dövründə əsgər ehtiyacı üçün və bu işdə hökumətin əli olmamışdır. Ola bilər ki, bu işdə Daxiliyyə Nəzarəti məmurları Komandanlığa kömək etmiş olalar, amma təkrar edirəm, Azərbaycan Hökuməti əhalidən üşr yığmamışdır. Bu işlər türklər gedənədək davam etmiş və bu xüsus tamamilə onların öz əllərində olmuşdur. Sonra Türk Ordusu gedəndə hökumət o şeylərin mövcud olduğunu bildikdən Komandanlığa müraciətlə şeylərin bizim məmləkətdən yığılmış və binaənileyh [o səbəbdən] bizə məxsus olduğunu bəyanla təvəqqe eylədi ki, hər nə varsa kağız və siyahı ilə bizə təhvil versinlər. Fəqət, rəsmi cavab gəldi ki, Türk Ordusu getməyəcəkdir, ona görə də heç bir şey verilməyəcəkdir. İş bu mərkəzdə qaldı. Biz də məcburən almağı özümüzə rəva görmədik. Bir vaxt eşitdik ki, ordu gedir. Əsgərlər hər şeyi atıb gedirlər. Şeylər idarəsiz, başına qalıb. Azuqədən əlavə, ləvazimi-əsgəriyyəni [hərbi sursatı] də buraxıb gedirlərdi. Bunu eşidərək Daxiliyyə Nəzarəti qubernatorlara əmr etdi ki, o şeyləri mühafizə etsinlər ki, talan olmasın. Ancaq hökumət heç bilmirdi ki, harada, nə qədər, nə şey var. Bununla bərabər mühafizəsi üçün tədbir görüldü. Deyə bilərəm ki, türklər buraxdıqları əşyanın çoxu əlimizə çatdı. Bir qismi Hərbiyyə, digər qismi Ərzaq Nəzarətinə verilmiş, bəzi yerlərdə də bir qədər qalmışdır. Onu Daxiliyyə Nəzarəti saxlayır. Bu, arpa və buğdadır ki, mühafizəsi üçün tədbir görülür.

Mənim sözümdən bu çıxmır ki, buğdanı, arpanı yığanda xırsızlıq [oğurluq] ya sui-istemal [sui-istifadə] olmamışdır, amma hökumət lazımi tədbir görmüşdür. Hangi yerdə nə olduğunu biz bilmirdik. Ancaq ən əvvəl bizə xəbər gəldi ki, Quba mahalında yığılan buğdadan bir qismi bizə çatmamışdır. Oraya məmur göndərdik, hal-hazırda təhqiqat icra olunur. Əgər məmurların əli olduğu kəşf edilərsə, o halda əlbəttə ki, müqəssirlər məhkəməyə veriləcək və qanuna görə cəzalandırılacaqlardır. İkinci dəfə Göyçaydan xəbər gəldi ki, orada da böylə bir iş olmuşdur. Nəzarət böyük bir komissiya göndərmişdir ki, orada işi təhqiq etsin, görək müqəssir kimdir. Kəşfi-həqiqətdən sonra əlbəttə orada da müqəssirlər məhkəmə və məsuliyyətə cəlb edilib cəzalandırılacaqlardır. Yenə bir xəbər varid oldu ki, Gəncə mövqifində [stansiyasında] olan malları dağıdırlar. O barədə də binagüzarlıq edildi [sərəncam verildi] ki, Gəncədəki mallar məhəlli [yerli] ərzaq idarəsinə təhvil verilsin; verilmişdir. Türklər getdikdən sonra heç kəsdən pulsuz-parasız buğda ya sair mal alınmamışdır. Daxiliyyə Nəzarəti bir məmurun sui-istemalını kəşf etsə, dərhal onu cəzalandıracaqdır. Buğda məsələsi bununla qurtarır.

Sorğuda çox hekayətlər göstərirlər. Əzcümlə [o cümlədən] natiqlər dedilər ki, neft məsələsində də məmurların əli var. Doğrudan da neft məsələsi böyük bir məsələdir. Burada derlər ki, Qazağa külli miqdarda neft aparılmışdır. Həm Gürcüstanda və həm Ermənistanda neft qəhətliyi var. Onlar da çalışırlar Azərbaycandan neft aparsınlar. Qazaxda bir vaxt çox neft vardı. Bu miqdardan məmurların əli ilə qanundan xaric olaraq Gürcüstana çox neft aparılmışdır. Bu işdə bir neçə məmurun əli olduğu anlaşılmışdı. Şimdi bu iş təhqiq edilmiş, müstəntiqə verilmişdir və istintaqdan sonra məhkəmədə baxılacaqdır. Dəmiryolundan başqa Qazağın özündə də noyabrın əvvəllərində bəzi şeylər olmuşdur. Söz burasındadır ki, Qazax mahalına çox neft getmişdir. Neft alanların da həpsi nefti Ağstafaya aparır və orada böyük pula satırlar. Oradan da çalışıb nefti araba, dəvə ilə, yainki dallarında Gürcüstana və Ermənistana aparırlar. Orada bu iş ətrafında böyük ehtikar [möhtəkirlik] dəxi olmuşdur. Böylə ki, Daxiliyyə və bəzi sair Nəzarətlər məmurları və Türk Komandanlığı iştirakı ilə böyük bir komissiya əmələ gətirərək neft aparanlardan puta 20 manat naloq kimi pul almışlardır. Məzkur [deyilən] pulların nerəyə getdiyini sual etdikdə cavab vermişlər ki, Qazaxdakı qışlalara [kazarmalara] xərc edilmişdir. Daxiliyyə Nəzarəti bu əhvalatı bilər-bilməz dərhal binagüzarlıq etdi [sərəncam verdi] ki, heç kəsdən pul alınmasın və şimdi artıq alınmır. Müqəssirlərlə də əlbəttə məmləkətin qanununa müvafiq rəftar ediləcəkdir.

Sorğuda daha başqa bir şey yoxdur.

Bir neçə söz də deyəyim. Mən sizin hüzurunuzda deyirəm, qüsurlarımız var, Nəzarətin hər bir işi düzdür demirəm, ancaq işlərin həpsini bu üç-dörd ayda düzəltmək mümkün olmamışdır. Böyük müşkülat vardır. Nəzarət ixtiyarında olan bütün vəsilə və qüvvə ilə bunları düzəltməyə çalışmağa borcludur. Nəzarət çalışır ki, o qüsurlar rəf oluna [aradan qaldırıla] və idarəni öylə yola qoyaq ki, camaat razı, məmləkət səlamətdə qalsın.

## TELEQRAF XƏBƏRLƏRİ

**İngiltərənin məlumati-rəsmiyyəsi**

İstanbuldan Osmanlı Hökuməti tərəfindən göndərilən əmrnamə mövcibincə [əmrnaməyə əsasən] Qars mahalını təxliyə edən 12-ci Türk firqəsi [diviziyası] komandanı Əli Rüfət bəy fevralın 2-sində Tiflisə ingilis komandanı general-mayor ser Forester-Volker yanına gəlmişdir. Əli Rüfət hal-hazırda həbsdədir və kəndisi də divani-hərb [hərbi məhkəmə] tərəfindən mühakimə edilməsini gözləyir. Mumaileyh [adı çəkilən şəxs] Türkiyə ilə Müttəfiqlər arasındakı mütarikə [atəşkəs] şərtnaməsini pozmaqda ittiham edilir.

**Almaniyada**

Veymarda milli iclasın rəsmi-güşadı [açılışı] günü Almaniya bolşeviklərinin (Spartak) çıxışı gözlənir. Şuralar rəsmi-güşad günü heç bir nüfuzları olmayacağından ehtiyat edirlər. Hökumət Veymara külli qoşun cəm etmək istəyir. Zira spartakların yenidən hökuməti əllərinə alacağı Berlində fevralın 3-də şaye olmaqda [yayılmaqda] imiş. Ona görə də hökumət qoşunları bütün böyük imarətləri pulemyotla işğal etmişlərdir. O cümlədən "Forverts" qəzetəsi idarəsini qoşunlar tutmuşlardır.

## SÜLH ƏTRAFINDA

Parisdən rəsmi surətdə məlum edilir ki, Rəisi-cümhur [Prezident] Vilson, Müttəfiq dövlətlərin Baş nazirləri, Xariciyyə nazirləri və Yaponiya nümayəndələri fevralın 3-də Venizelosun Yunanıstan barəsində olan tələbnaməsini dinləmişlərdir.

**Yunanıstanın iştahası**

Parisdən göndərilən teleqramdan anlaşılır ki, Yunanıstan tələbnaməsinə fevralın 3-də baxılacaqdır. Görünür ki, bu tələbat mübahisəyə bais olacaqdır. Yunanıstan Kiçik Asiyada olan vüsətli xülyasından başqa Dodekanes, İmros, Kipr və Qara dənizədək olan bütün Türkiyə və Bolqariya Trakyasını istəyir. Yunanıstan istəyir ki, sərhədi Çatalca xəttindən keçsin. Yunanıstan, paytaxtı İstanbul olacaq (?) yeni beynəlmiləl bir dövlətlə qonşu olmaq istəyir.

**Cəmiyyəti-Əqvam**

Parisdən verilən teleqramdan anlaşılır ki, beş böyük dövlətlər arasında Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsində saziş əmələ gəlmişdir. Necə ki, əvvəldən hiss edilirdi, Cəmiyyəti-Əqvam əsası Amerika təklifindən ibarət olmuşdur. Hərçənd, bəzi mühüm maddələri İngiltərə planı üzərinə keçir. Vilson; lord Robert Sesil və general [Yan Xristian] Smets ilə bərabər işləyir. Lloyd Corcun London səfərinədək bu məsələdə mükəmməl saziş əmələ gələcəyi gözlənir.

## QƏZETƏLƏRDƏN

**Rusiyada**

Yekaterinodarda alınan xəbərlərə görə Perm şəhəri amiral Kolçak əsgərləri tərəfindən işğal edildikdən sonra, Vyatka və Samara üzərinə hərəkət başlanmışdır.

Arxangelsk tərəfdə hərəkət edən Sibirya dəstələrinin rus və əcnəbi əsgərləri ilə birləşəcəyi müşahidə edilir. Bununla da bolşeviklər əleyhinə vahid cəbhə vücuda gətirmək mümkün olar.

**Daşnaksaqan firqəsi üzvlərinin həbsi**

İstanbuldan alınan teleqrafa görə, Daşnaksaqan firqəsinin mərkəzi komitə üzvlərindən Zavriyev və Nazaryans Petroqradda bolşeviklər tərəfindən həbs edilmişlərdir. Bunların həbs edilməsi Bakıda qalan bolşeviklərin ingilislər tərəfindən həbs olunmaları əvəzidir.

**Varşavada**

Varşavadan xəbər verirlər ki, iğtişaşda iştirak edən zabitlər tutulub xüsusi qatarla Novogeorgiyevsk şəhərinə göndərilmişlərdir. Hökumət tərəfindən əhaliyə xitabən nəşr edilən müraciətnamədə deyilir ki, hökumət öz ixtiyarını ancaq Seymə verə bilər. Varşavada mühasireyi-əsgəriyyə elan edilmişdir.

**Ukraynanın boşeviklərə müharibə elanı**

Kiyevdən xəbər verirlər ki, Ukrayna Hökuməti Rusiya Bolşevik Hökumətinə böylə bir nota göndərmişdir:

Rusiya Cümhuriyyətinin Xalq Komissarları Şurasına

Xariciyyə İşləri komissarının göndərdiyi cavab teleqrafında doğru cavab verməkdən imtina edilməsi təkrar olunur. Rusiya Şura Hökuməti əsgərlərinin Ukrayna tərəfə edilən hərəkətdə iştirak etmələri həqiqəti rədd edilir. Eyni zamanda yenə də sülh müzakiratına [danışıqlarına] başlanması təklif olunur. Bu da Ukrayna ilə Rusiya arasında müharibə halı olduğunu təsdiq edir. Ukrayna Hökuməti belə ədd [hesab] edir ki, Rusiya Şura Hökuməti bu cavabla Ukrayna Hökumətinə rəsmi müharibə elan edir. Rusiya Şura Hökuməti Getman ilə mübarizəyə başlayandan Ukrayna xalqı əleyhinə müharibə etməkdədir. Rusiya Hökuməti bu mübarizədən istifadə edib Ukrayna iğtişaşının birinci günlərində Ukrayna torpağını zəbt etməyə və Getman əsgərləri ilə müharibə edən Ukrayna Cümhuriyyəti əsgərlərinin əhdşikənanə [xaincə] bir surətdə arxalarına durmağa başlamışdır. Ukrayna Hökuməti izhar edir ki, Xariciyyə İşləri komissarının cavabında açıq bir surətdə göstərilən müharibə elanını Ukrayna Hökuməti etiraf [qəbul] edir. Bu müharibə nəticəsinin də hər bir günahı hücum edən tərəfin öhdəsinə düşür.

*Hökumət rəisi: Vinniçenko*
*Üzvlər: [Simon Vasilyeviç] Petlyura,*
*[Fyodor Petroviç] Şvets, [Afanasi Mixayloviç]*
*Andriyevski və [Andriy Qavriloviç] Makarenko.*

**Biçeraxov nə üçün getmiş?**

"K. S." qəzetəsi xəbər verir ki, general Biçeraxovun istefası məsələsi qəti surətdə həll edilmişdir. İndi anlaşılır ki, Biçeraxovun istefasına zeyldəki [aşağıdakı] fəqərə [hadisə] səbəb olmuşdur. Teymurxanşurada olan Dağıstan Hökumətinin üzvlərinin rəvayətinə görə, Biçeraxovun adı Dağıstanda və Çeçenistanda çox yaman tanınmışdır. Biçeraxovu dağıstanlılar yanında bədnam edən onun Bakıda gördüyü hərəkəti, Dağıstanda və Çeçenistanda çıxartdığı oyunları, Dərbənd, Petrovsk və Teymurxanşurada türklərlə dava etdiyidir. Amma indi bolşeviklər əleyhinə dağıstanlılarla bir yerdə iqdamatda [təşəbbüsdə] bulunmaq vaxtı yetişmişdir. Hərgah bu qüvvənin başında general Biçeraxov durarsa, bunu dağıstanlılar özləri üçün böyük həqarət hesab edəcəkdirlər. İştə bu münasibətlə Biçeraxov mövqeyindən istefaya məcbur olmuşdur. Yəni, onun istefası dağıstanlıların tələbi üzərinə olmuşdur. General Biçeraxov istefa verərkən demiş:

*"Mən bu məsələ ətrafında mübahisata [mübahisələrə] yol verməmək üçün iş başından çəkilirəm və bilirəm ki, məndən sonra gələn general Prjevalski Rusiya mənafeyinin layiqli müdafeyidir [müdafiəçisidir]."*

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

* Səhhəti-Ümumiyyə [Səhiyyə] naziri həzrətlərinin qanun layihəsini dinlədikdən sonra qət edilmişdir ki, Səhhəti-Ümumiyyə Nəzarətinin əhalinin hifzüssihhəsi [sağlamlığının qorunması] üçün istədiyi 4 525 000 təsvib [bəyənilmə] və təsdiqdən ötrü Məclisi-Məbusana pişnihad [təqdim] edilsin.

* Səhhəti-Ümumiyyə naziri həzrətlərinin müsri [yoluxucu] xəstəliklərlə mübarizə etmək barəsindəki məruzəsindən sonra qət edilmişdir: Səhhəti-Ümumiyyə Nəzarəti tərəfindən müsri xəstəliklərlə mübarizə etmək layihəsi və həman layihə üçün istənilən 7 835 000 rublə təxsisi [ayrılması] təsvib edilməklə nazirə tapşırılsın ki, işbu məsələyə dair qanun layihəsini tərtib verib Məclisi-Məbusana idxal etsin.

* Maarif naziri həzrətləri Şurayi-Vükəlaya bir izahat pişnihad edərək məlum etmişdir ki, Orucovların Mart hadisatından sonra milliləşdirilmiş və şimdiki Hökumət mətbəəsinə köçürülmüş olan mətbəəsi əmlakını xüsusi bir komisyon qiymət etmişdir. Oruczadələrin verdikləri ərizəyə məbni [əsasən] onların zərərləri verilməlidir. Komisyon zərəri 468 380 rublə təxmin etmişdir. Nazir həzrətləri işbu paranın Maarif Nəzarətinə buraxılmasını rica və təmənna etmişdir.

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

Bu vaxtadək bütün işlər Məsai [Əmək] Nəzarətində təsdiq edildiyindən, qövldən felə [sözdən işə] gətirilmək üçün Baş Fabriçni inspektora göndərilirdi. Bundan sonra bütün Nəzarətə aid məsələlər Nəzarətin özündə qövldən felə gətiriləcəkdir.

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

Rəisi-vükəla [Baş nazir] həzrətlərinə müraciətən Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] rica etmişdir ki, Gəncədəki fərarilər [qaçqınlar] xəstəxanası üçün dərman buraxılsın.

* Məsai Nəzarəti Maliyyə Nəzarətinin maliyyə şöbəsinə müraciətən rica etmişdir ki, dəftərxana katibi Kazımova dəftərxana təşkili üçün 10 000 manat buraxılsın.

* Məsai naziri Baş Fabriçni inspektora müraciətən rica etmişdir ki, Məsai Nəzarəti layiqli surətdə təşkil edilənədək 5 nəfər Müəssisədarlar, 5 nəfər də Kəsbkarlar İttifaqından mürrəkəb [ibarət] xüsusi bir müşavirə dəvət etsin. İşbu müşavirə, müvəqqəti fəhlə işlərinə baxacaqdır. Birinci müşavirədə nazir özü iştirak etməklə işbu məsələlər müzakirə ediləcəkdir:

1) Məvacib;
2) Fabrika-zavod komitələri.

Komitə fəaliyyəti nəticələri Məsai Nəzarətinə veriləcəkdir ki, təsdiq edilsin.

* Bu gündən etibarən Məsai Nəzarəti Mirbabayevin mülkündə, ikinci sırada, üçüncü mərtəbədə yerləşdirilmişdir. Nəzarətə həyətdən daxil olmalıdır.

* Məsai Nəzarəti Ərzaq Nəzarətinə müraciətən bəyan etmişdir ki, fəhlələrin məvaciblərinin artırılmasına baxmayaraq, mədən dairələrindəki ərzaq işləri günü-gündən fəna hal kəsb etməkdədir. Nəzarət rica etmişdir ki, mədən dairələrinə ərzaq vermək barəsində Nəzarət hangi bir vəsaitə müraciət edəcəyini məlum qılsın.

## AZƏRBAYCAN PAYTAXTI

## VII

Övliya Çələbi mərhumun hekayəsindən də anladıq ki, ruslar Bakının neftinə pək əski zamandan bəri göz dikmişlər və uzaq zamanlardan bəri burasına bir taqım hücumlar və təcavüzlərdə bulunmuşlardır.

1000 sənə əvvəl 914 səneyi-miladisində knyaz İqor zamanında ruslar Bakıya doğru bir səfər eyləmişlərdir.

942-ci sənədə Bakı və Şirvan vilayətinin zənginliyi təkrar rus kazaklarının tamahını cəlb edərək buralara axın eləmiş və Kür nəhri ilə ta Bərdə şəhərinə qədər enmişlərdir.

1553-cü sənədə Hacı-Tərxan ruslar tərəfindən alınmışdır. Hacı-Tərxanın alındığını mütəaqib [alındıqdan sonra] ruslar İran ilə münasibati-ticariyyəyə [ticarət əlaqələrinə] girmək istəmişlər. Bu səbəblə də Bakı bəndərinə [limanına] hücumları artmışdır.

17-ci əsrdə Bakı ilə Şirvan məşhur Stepan Razin komandasındakı kazak axınçılarının təərrüzlərinə [hücumlarına] düçar olmuşdur. Razin dəstəsi işlupkalarla Bakı sahilinə enir, Kür nəhrinə gəlir, sahilləri yəğma və tarac edərək müvəqqəti qələbələr ehrazından [əldə etdikdən] sonra qoyub çəkilirlərdi.

Böyük Petro siyasi geniş planlarının cüzündə Xəzər dənizinə çox əhəmiyyət verirdi. Burası Şərq məmləkətlərilə bir ticarət yolu idi. Hacı-Tərxan voyevodası Musin-Puşkinə 1700-cü ildə əmr edilmişdi ki, Tarki şamxalı ilə münasibati-ticariyyədə bulunsun. Bu andan etibarən Orta Asiya məmaliki [məmləkətləri] ilə münasibati-ticariyyəni artırmaq çarın daimi düşüncəsini təşkil eyləmişdir. Bu məqsədlə 1715-ci ildə knyaz Bekoviç-Çerkasskiyə əmr edildi ki, Orta Asiyaya doğru səfərə hazırlansın. Kəndisinə eyni zamanda bu da tapşırıldı ki, Ceyhun nəhrini əski məcrasına salaraq Xəzər dənizinə axıdılması üçün tədbirlər görsün. 1718-ci sənədə yenə böylə bir məqsədlə Volınski səfirlik sifətilə İrana göndərildi.

Volınski İran ilə təfsilən tanış oldu. Eyni zamanda Petronu [I Pyotru] Xəzərin sahillərini tutmağa təşviq eylədi. Yoxsa buralarını əfqanlılar tutacaqlar – deyə çarı əndişəyə buraxdı.

Çar Volınskinin tövsiyələrinə qulaq asdı. Bilxassə ki, şamxal Adil Giray bütün Dağıstan camaatları namına [adına] elçi göndərib ərzi-təbəiyyət eyləmişdi [tabe olduğunu bildirmişdi]. Bunun üzərinə Petro Volınskiyə İran səfərinə hazırlanmağı əmr eyləmişdi. Səfərə hazırlanmış, fəqət sonra İrana hərb elan etmək niyyətindən vaz keçilərək Dağıstana gəlməklə iktifa [kifayət] edilmişdi. Böyük Petro 1722-ci ildə Tarki şamxal[ı] Adil Girayın dəvəti üzərinə Dağıstana gəldi. Sulakda istiqbal edildi [qarşılandı].

Sonra çarın məhfili [heyəti] Dərbəndə doğru getdi. Yolda Qaytaq xanı Sultan Mahmud müqavimət göstərdiyindən dəf edildi. Böyük Petro Dərbəndi alıb oradaca qışlamışdı.

Petro Bakıya çox əhəmiyyət verirdi. Çar general Matyuşkinə əmr eyləmişdi ki: "Təcilən Bakıya get, məzkur [adı çəkilən] şəhəri al, Allah yardımçın olar, şəhərin açarlarını alar, göndərərsən."

1723-cü ildə Matyuşkin Bakını almışdır. O sənədə İran ilə əqd olunan bir müqavilə mövcibincə [imzalanan bir müqaviləyə əsasən] Bakı ilə Dərbənd Rusiyaya tərk edilmişdir. 1732 və 1735-ci sənələrdə çariça Anna İvanovna zamanında əqd olunan Rəşt müahidənaməsinə [sazişinə] görə Bakı, Quba və Dərbənd təkrar İrana qaytarılmışlardır. Bu surətlə Şimali Azərbaycandan çəkilmiş olan Rusiya Böyük Katerina [Yekaterina] zamanında təkrar övdət eləməyə [qayıtmağa] başlamışdır. 1796-cı sənədə general Zubov Dərbəndi almışdır.

1801-ci ildə Gürcüstan Rusiyaya iltihaq etmişdi [birləşmişdi]. Bu hal üzərinə bugünkü Azərbaycan Cümhuriyyətini təşkil edən Azərbaycan qitəsi, bilxassə hər növ hücumlara məruz qalan Bakı-Şirvan vilayəti artıq iki ataş içində qalmışdı. Şu sırada rusların Qafqaziyadakı ordularının komandanlığına məşhur Sisianov təyin olundu. Sisianov bir kərə Rusiya əlinə keçmiş olduğu halda tərk olunan bəhri-Xəzər sahillərini təkrar zəbt etmək fikrinə düşdü. 1805 sənəsi yaz zamanı general-mayor Zavalişin komandasında 500-dən ibarət bir qüvvə toplayaraq gəmilər vasitəsilə Bakı üzərinə göndərdi. O zaman Bakının xanı Hüseynqulu xan idi. Zavalişin Bakıya yaxınlaşınca Qubadan Bakıya kömək gəldiyini xəbər aldı. Bu xəbəri alınca təərrüz etmək cəsarətini göstərməyərək şəhəri qoyub çəkildi. Zavalişinin bu surətlə çəkildiyini xəbər alan general Sisianov bərk acığı tutmuşdu. Xəstəliyinə baxmayaraq Zavalişinə şiddətli itablarda [məzəmmətlərdə] bulundu. Qış düşdüyünü aldırmayaraq 1500 qədər piyada, 200 atlı kazak və ona qədər top ilə özü bizzat Bakı üzərinə gəldi. Dekabr ayı idi. Sisianov bilirdi ki, şiddətli hərəkət etməzsə Zavalişinin ricəti yeni ram edilmiş bəhri-Xəzər sahilindəki xanlara sui-təsir hasil edər, hərəkətə gələrlər. Bunun üçün o, rus silahının nüfuz və etibarını qüvvətləndirmək istəyirdi.

Sisianov Hüseynqulu xan ilə sabiqən də tanış idi. Xana xəbər göndərdi ki:

*"Bakıya gəlirəm, ya Bakını alacağam, ya da ki orada öləcəyəm".*

Yol üzərində Sisianov Şamaxı xanı Mustafa xanın beyətini [itaətini] aldı. Şamaxı dağlarını enərək Bakı xanlığına daxil oldu.

1806-cı sənəsi yanvarının axırlarına tərəf Sisianov Bakı surları [qala divarları] yanında idi. Hüseynqulu xan xəbər göndərdi ki, şəhəri təslim edir, kəndisi də tabe olur. Fevralın 8-nə şəhərin təslimi üçün gün təyin olunmuşdu. Təyin olunmuş gündə rus tarixlərinin yazdığına görə Sisianov yavərlərindən yalnız Eristov ilə birlikdə, bir də bir kazak nəfəri ilə bərabər Bakının qapısına doğru getdi.

Ordunu kəndisindən uzaq bir məsafədə buraxdı. Hüseynqulu xan da kəza [habelə] kiçik bir məiyyətlə [müşaiyət edənlərlə] bərabər olduğu halda knyazı istiqbal eylədi [qarşıladı].

Tərəfeyn [iki tərəf] yaxınlaşınca xanın nökərlərindən birisi tapança ilə vurub generalı haman oradaca öldürdü. Onun ardınca Eristov da öldürüldü. Kazak qaçdı. Generaldan sonra rus ordusunun komandanlığı vəzifəsində olan Zavalişin özünü o dərəcədə itirdi ki, bütün əsgərlərini toplayıb tələsik gəmilərə oturdaraq qaçdı, Tarki şamxallığı vasitəsilə rus cəbheyi-əsliyyəsinə [əsas cəbhəsinə] çəkildi.

Sisianovun sözü doğru çıxdı: "Bakıda öldü". Bu vəq'ə haqqında tarixdə bir "lejen" [legenda] (mənqəbə) dəxi rəvayət olunmaqdadır. Sisianovun başı kəsilərək Hüseynqulu xan tərəfindən şaha göndərilmişdi. Fətəli şah, rəvayət edirlər ki, qış gecələrindən birisində qarşısında manqal, Qafqaziyadan alınan nagüvar [ağır, xoşagəlməz] xəbərlər üzərinə uyumayıb sabaha qədər əlində maşa odu, külü qurdalayaraq mükəddər [kədərli] və dalğın bir vəziyyətdə oturmuş, nagah sabah xoruzlarının banladığını görüncə maşanı manqala vuraraq:

– Ey Xuda, ya məra bekoş, ya ura!... – deyə təğəyyür eyləmişdir [təbdən çıxmışdır].

Günəş doğunca general Sisianovun kəsilmiş başı paytaxta gəlir – deyə xəbər alınmışdır.

General Sisianovun bu macərasını və Zavalişinin o surətlə qayıtmasını xəbər alan general Qlazenap bu vəq'ədən Rusiya etibarı üçün hasil olacaq sui-təsiri idrakla bir qüvvə toplayıb Bakı üzərinə hərəkət eylədi isə də, Tarki şamxalının tədbiri və dostluğu sayəsində yalnız Dərbəndin açarlarını bilahərb və müqavimət [müharibəsiz və müqavimətsiz] təsliminə aldı. Quba ilə Bakıya doğru isə hərəkət edə bilmədi.

Sisianov əvəzinə Gürcüstan komandanlığına general Qudoviç təyin olundu. Qudoviç üçüncü dəfə idi Qafqaziyaya gəlirdi. Qudoviç Qlazenapı çıxarıb yerinə Bulqakovu təyin elədi. Bulqakov Bakı üzərinə gəldi. Şəhər müqavimət göstərməyib təslim oldu. Anlaşıldı ki, general Sisianovun qətli Hüseynqulu xanın rizası və xəbəri olmadan qardaşının Əmir Həmzə adında bir nökəri tərəfindən xudsəranə [özbaşına] bir surətdə icra edilmişdir.

Bakı 1806-cı sənəsi sentyabrın 3-də təslim olunmuşdur. (Bakıdan sonra Quba xanlığı dəxi bilahərb təslim olmuşdur.) General Sisianovun başsız bədəni əvvəlcə gömülmüş olduğu məzarından çıxarılaraq erməni kəlisasına [kilsəsinə] dəfn olunmuş, sonra da 1811-ci ildə Tiflisə nəql ilə Sion kəlisası dairəsində dəfn olunmuşdur. Bildiyimiz Sisianov fontanı haman məqtul generalın naminə olaraq yapılmışdır.

1812-ci ildə Gülüstan müahidənaməsi mövcibincə [müqaviləsinə əsasən] Dərbənd, Quba, Gəncə, Şəki, Şirvan xanlıqları ilə bərabər Bakı dəxi qəti surətdə Rusiyaya tərk edilmişdir.

*M. Ə. Rəsulzadə*

## ƏCZAXANALARIN
## MİLLİLƏŞMƏK TƏDBİRİ

Neçə vaxtdır ki, tamamən xaricilər əlində bulunan əczaxanaların [apteklərin] şagirdləri, bizim təbircə nüsxəbəndləri tətil yapıb əhalini vaxtlı-vaxtında dərman əxz və təhsilində [tədarükündə] aciz buraxmışlardır.

Yatalaq naxoşluğunun hər qismi kəsbi-şiddət etdiyi [şiddətləndiyi] bir zamanda, əhalinin indi hər vaxtdan artıq dərmana möhtac qaldığı günlərdə və saatlarda tətilçilər və əczaxana sahibləri kamali-asayişlə tətil meydanında uğraşaraq əhalinin göz yaşlarına heç bir məna verməyirlər. Nə bu tərəf tələbatından bir qədər azaldır, nə o tərəf tələbatın qəbuluna razı qalır. Xülasə, mübarizlərin meydanı getdikcə qızır, amma dərmansız tələf olanların halı heç kəsin ürəyini də yumşaltmayır və nə üçün də yumşaltsın. Qoy əhalinin gündə yüzü ölsün. Onlara nə borcdur. Özlərinə mənsub adamları naxoş olarlarsa, hər iki tərəf dərman əxz etməkdə bir an məəttəl olmayacaqlar. Odur ki, mübarizə davam edir və hərgah hökumət bu işə müdaxilə etməzsə, yəqin ki, tətil müddəti daha artıq sürəcəkdir.

Tətilin əsası, məvaciblərin artırılması ilə bərabər, müştərək [kollektiv] müqavilənamənin əczaxana sahibləri tərəfindən təsdiq və qəbul olunmasıdır. Yəni tətilçilərin ümdə məqsədi təmini-maaşdır.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 7 fevral (Cümə günü) tarixli 108-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Lakin bunu hangi bir əqli-səlim qəbul edə bilər ki, iki yüz minlik bir camaatın əhvali-səhiyyəsi üç cift bir tək nüsxəbəndlərin tətil vasitəsi ilə qazanıla biləcək mənfəəti-şəxsiyyələrinə qurban kəsilsin.

Doğrudur, mədəni ölkələrin əsnafı arasında tətil yapmaq, təmini-məişət üçün sahibkarlarla mübarizəyə qurşanmaq qadağan deyil. Lakin əhalinin güzəranına, asayişinə toxunma[ma]q tətilin ən böyük şərtlərindən biridir. Çörəkçilər, suçular, işıq verənlər sahibkarlardan haqq tələbi ilə tətilə qalxarlarsa, bununla bərabər çalışarlar ki, hər nə vəsilə ilə olursa-olsun əhalinin gündəlik çörəyi, suyu və işığı özünə çatsın. Bu gün Bakı əhlinə dərman əxz etmək çörək və su mənzələsində [dərəcəsində] bulunan mühüm ehtiyaclardan biridir.

Doğrudur, tətilçilər ədviyə istehzarı [dərman hazırlamaq] üçün bəzi əczaxanalara növbəçi nüsxəbəndlər göndərmişlərdir. Lakin bunların bu binagüzarlıqları [tədbirləri] yevropalıları təqlidçilikdən başqa bir şey deyildir. Çünki müsri [yoluxucu] naxoşluqların şiddətli bir dövründə iki-üç aptek əhalinin ehtiyacını rəf edə [aradan qaldıra] bilməz. Saatlarla dərmanın istehzarını bəkləyən naxoş sahibi evə qayıdarkən naxoşunun dərman intizarı ilə dərmansız vəfat etməyini müşahidə edir. Bumu əhaliyə imdad? Hələ tətilçilərin qəzetələrə yazdıqları şikayətlərdən böylə məlum olur ki, tətil əsnasında bəzi aptekçilər dərmanları dəyişik buraxırlar, qiymətlərini artırırlar, əczanın müvazinəsi düz tutulmayır, mütəxəssislər əvəzinə əczaçılıqdan başı çıxmayan adamlar dəvət olunur.

İştə əhalini düşündürən, iztirablı qorxulara düçar edən bu şikayətlərin əsaslı, yaxud əsassız olduğunu təyin etmək məhaldır [çətindir]; bəlkə bizimkilərə heç mümkün də deyil. Zira əczanın məvaddi-müxtəlifəsini [dərmanın müxtəlif maddələrini] və hər maddənin ayrıca mizanını [ölçüsünü] bilmək üçün bunu "laboratoriya" denilən emalatxanalarda təhlil vasitəsilə bilmək olar. Bu da nə əhaliyə və nə də təbiblərə müyəssər bir iş deyildir.

Bəs ədviyəyə [dərmana] möhtac qalmış əhalinin çarəsi nədir? Məgər camaatın ömrü-günü bunların əlində oyun-oyuncaqdırmı? Zənnimcə, madam ki, əczaxanalar bu işə ticarət nəzəri ilə baxanların əlində qalır, əhalinin ehtiyacı, naxoşların halı tacirlərin ayaqları altında tapdalanıb gedəcəkdir. Varsa buna bir çarə, o da əczaxanaların hökumət əlinə keçməyidir. Yəni əczaxanalar gərək milliləşsin. Əczaxanaların milliləşməsi ondan ibarət deyil ki, burada xidmət edənlər türklər olsun yaxud bunların istemal [istifadə] etdiyi lisan türk lisanı olsun. Xeyr. Bəlkə əczaxanaların təqib etdiyi maddi və mənəvi faydalar xüsusi tacirlər üçün olmayıb tamam məmləkətin, tamam bir millətin gərək olsun.

İştə əczaxanaları milliləşdirmək üçün bugünkü tətillər hökumətə böyük bir bəhanə ola bilərdi. Lakin əczaxanaları milliləşdirmək üçün hökumətin əlində hazır vəsilələr [vasitələr] mövcuddurmu ki, məsələni sürətlə bitirib öhdəsindən gələ bilsin?

Əhvalatın bu cəhəti məsələnin baş tutmasına bu dəfə mane olacaqdır. Çünki, məəttəəssüf [təəssüf ki], hökumətin əlində hazırda durmuş ehtiyat nüsxəbəndləri yoxdur ki, əczaxanaları zəbt edərək yeni nüsxəbəndlər vasitəsi ilə sabahdan işə girişilsin. Bu dəfədəki fürsət fövt olunarsa, sonralardan yenə bu məsələ başlı-başına buraxılmamalıdır. Dəmiryollar millətin mali-məxsusu [xüsusi malı] olduğu kimi, əhalinin hifzüssihhəsinə yarayan əczaxanalar da millətin gərək olsun. Gürcülər bələdiyyə və natariusxanalar kimi müəssisələrin milliləşməsi üçün ciddü cəhd edirlər, çabalayırlar. Gürcü lisanında teleqraflar çəkirlər. Ermənilər ünivərsitə kimi ali məktəb açırlar. Nə eybi var? Qoy bizim hakimiyyətimiz xırdaca işlərdən başlasın. Bu gün öhdəsindən gələ bilmədiyimiz işləri başına buraxmayıb sabahkı gün üçün hazırlaşmalıyız. Qoy hökumət bir danə nüsxəbəndlər məktəbi ilə bərabər bir hökumət əczaxanası açsın. Söz yoxdur ki, hökumət əczaxanası əhaliyə xəyanət etmədiyi üçün camaatın da etibar və etimadını qazanacaqdır. Məktəbdə bir çox nüsxəbəndlər hazır edəcəkdir ki, bunların vasitəsi ilə Azərbaycanın tamam əczaxanaları müruri-zamanla [zaman keçdikçə] milliləşə bilsin. Naxoşların ədviyəsi düzgüncə buraxılsın. Tamahkar aptekçilərin tamahına bir hədd çəkilsin. İnanılsın ki, əhaliyə saxta ədviyə buraxılmayacaqdır. İman gətirilsin ki, füqaranın dərisi soyulmayacaqdır.

Xülasə, əczaxanaların milliləşmək fəqərəsi [hadisəsi] ən mühüm məsələlərdən biri olduğu cəhətə həm hökuməti və həm də camaatı düşündürməlidir!

*Fərhad Ağazadə*

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

* Bələdiyyə İdarəsi Xidmətçiləri İttifaqı, Bələdiyyə İdarəsinə məlum etmişdir ki, şəhər arabaçılarına xəbər verilmişdir ki, müştərək müqavilənamə ləğv edildikdən sonra həftədə bir gün bayram etmək məsələsi də ləğv edilmişdir. Arabaçılar məsələni müzakirə etdikdən sonra qət etmişlər ki, bir gün bayram etmək məsələsi təcdid [bərpa] edilməlidir.

* Maliyyə Nəzarəti Xəzinə şöbəsi, Bələdiyyə İdarəsinə məlum etmişdir ki, hökumət qərardadına görə Bələdiyyə İdarəsinə faizsiz olaraq bir milyon rubləlik bir istiqraz açılmışdır.

**Binəqədidə leksiya**

Şənbə günü fevralın 8-i saat 4-də Binəqədi "Narodnı dom"da Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən Piri Mürsəlzadə cənabları əhvali-hazirəyə [hazırkı vəziyyətə] dair mühazirə (leksiya) oxuyub və Azərbaycan Məclisi-Məbusanı haqqında məlumat verəcəkdir. Ümum fəhlə və kəndli yoldaşların mühazirəyə gəlmələri rica olunur.

**"Müsavat"da**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin şöbələri. Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin zeyldəki [aşağıdakı] yerlərdə şöbələri açılmışdır:

1. Əmirhacıyanda şöbə açılıb sədrliyə Süleyman Rzazadə, katibliyə Əbdülhüseyn Heybətzadə seçilmişlər.
2. Hacı Zeynalabdin Tağıyevin fabrikasında şöbə açılıb sədrliyə Səfər Qurbanzadə, katibliyə Mahmud Salman oğlu seçilmişlər.
3. Bülbülə kəndində şöbə açılıb sədrliyə İzzətulla Şərifzadə, katibliyə Şeys bəy Bakıxanzadə seçilmişlər.
4. Quba qəsəbəsində şöbə açılıb sədrliyə Əbülqasım Rüstəmzadə seçilmişlər.
5. Quba qəsəbəsi, Rustov mahalı, Afurca qəryəsində [kəndində] şöbə açılıb sədrliyə Mahmud Məhəmməd oğlu, katibliyə İsfəndiyar Məhəmmədşah oğlu seçilmişdir.

*Türk Ədəmi-Mərkəziyyət*
*"Müsavat" firqəsi Təbliğat-təşkilat şöbəsi*

**Azərbaycan Teleqraf Acentəsi**

Eşitdiyimizə görə, bu yaxınlarda Azərbaycan Hökuməti tərəfindən Gürcüstan və Ermənistan Cümhuriyyətlərində olduğu kimi bir Azərbaycan Teleqraf Acentəliyi təşkil ediləcəkdir.

**Bir fəqərə [məsələ]**

Hal-hazırda şəhərdə davam etməkdə olan müsri [yoluxucu] tif (səpmə yatalaq) xəstəliyi ilə mübarizə etmək üçün Səhiyyə Nəzarəti cənbində [nəzdində] xüsusi bir heyət dəxi təşkil edilmişdir. Həmin heyətin binagüzarlığına [təşəbbüsünə] görə hökumət tərəfindən 7 milyon 83 min manat para təxsis edilmişdir [ayrılmışdır] ki, xəstəliklə ciddi surətdə mübarizə edib önünü almaq üçün lazımi planlar və tədbirlər ittixaz edilsin [görülsün]. Əlbəttə hökumətin böylə təşəbbüsünü alqışlayıb və məzkur [deyilən] heyətin müvəffəqiyyətini diləriz. Fəqət bir şey diqqətimizi cəlb edir ki, o da heyət tərəfindən xəstəliyə dair təb və intişar edilməkdə [çap edilib yayılmaqda] olan intibahnamələr [vərəqələr], ixtar [xəbərdarlıq] və qeyri məlumat vərəqələrinin "Prikaspiyski İttifaqı"na mütəəlliq [məxsus] "Trujenik" mətbəəsində çap edilməsidir.

İştə bu münasibətlə bir şey bizim heyrətimizə səbəb olur. Əcəba hökumətə mütəəlliq olan üç dənə böyük mətbəəni buraxıb da heyət vərəqələri, sənədləri, kitabları, dəftərləri və qeyrilərini "Trujenik" mətbəəsində çap etdirir və minlərlə manat məbləği də yabançı bir ittifaqınmı cibinə doldurur? Halbuki hökumət mətbəələri böylə lazımi işləri məccani [pulsuz] olaraq görüb və para almaq lazım olarsa hökumət nəfinə [xeyrinə] alar. Buna binaən [buna görə] Maarif Nəzarətinin diqqətini bu fəqərəyə cəlb etməyi lazım bildik.

## LƏNKƏRAN MÜSƏLMANLARI GENERAL TOMSON YANINDA

General Tomson hüzurlarına Lənkəran müsəlmanlarının nümayəndələri gedib Lənkəran haqqında bir ərizə veribdirlər. Ərizədə Muğan Hökumətinin müsəlmanlar haqqında etdikləri zülüm və sitəm bir-bir nəql edildikdən sonra axırda bu sözlər yazılıbdır:

*"Ümumən biz müsəlmanlar sülh və insaniyyət tərəfdarı cənab Tomsondan acizanə xahiş edirik Allahın rizasını mənzur tutub [nəzərdə tutub, niyyət edib] biz bipənah müsəlmanları bu xunxar [qaniçən] və vəhşi Muğanski Upravanın [Muğan Hökumətinin] zülmündən xilas buyursunlar. Lənkəran uyezdi Bakı əyalətinin bir qitəsidir. Müsəlman camaatı Azərbaycan Hökumətini təsdiq edib və təbrik edirik və arzusundayıq ki, Azərbaycan Hökumətinə mülhəq olaq [birləşək] və ümidvarıq biz Allahın məxluqunun ah-naləsi mürüvvət sahiblərinin qəlbinə təsir edib, əlacında çarələr buyururlar və bu söz məşhurdur, general Tomson vədə verib ki, Azərbaycan Hökumətinə müavinət edib və edəcək və biz Azərbaycan təbəələrini zülmdən azad edib, hürr və azad millətlər cərgəsinə daxil buyuracaqlar və bizdən ötrü nəhayət qəmginlikdir ki, bir neçə nəfər xudnüma [özünü göstərən] adlarını Muğan Hökuməti qoyub, öz mənfəətlərindən ötrü müsəlmanları qılınc altında saxlayıb, zorən istəyirlər müsəlman torpağında özləri üçün cümhuriyyət düzəltsinlər və əlavə cənab general Tomsona ərz edirəm ki, bu Muğanski hökumətin əmri ilə yüz parça kənddən artıq yanıb fəna olubdur və əhalisi didərgin olublar. Əzancümlə [o cümlədən] bu aşağıda zikr olunan kəndlərdən əkin yerlərini əllərindən alıb veriblər xaxollara: Qədirli, Xallıcalı, Qarğalıq, Şəhriyar, Dələkli, Əminli, Məhəmmədxanlı, Köcəkli, Ərəbli, Həsənli, Mollahəsənli, Ağatəpəli, Xırmandalı, Toxulçaq, Kərbəlayi Abdulla təkləsi,Ləngan.*

*Bu kəndlərin əhalisi yersiz, yurdsuz, qapılarda avara, sərgərdan qalıblar.*

*Lənkəran və uyezdinin müsəlmanlarının halı günbəgün fənalaşır. Xaxolların etdiyi zülüm və sitəm müsəlman kəndlərində şiddətlənir. Hər gecə quldur dəstəsi kimi müsəlman kəndlərinə dağılıb qarət etməyə iktifa [kifayət] etməyib, biçarə kənd qadınlarının ismətinə təcavüz edirlər. Yolları kəsib gəlib-gedən şəxslərdən pulunu, atını əllərindən alırlar. Müsəlmanların qoyun və qaramallarını ilxı sürüsü kimi özlərinin məxsusi malları hesab edib evlərinə aparırlar."*

## ƏRZAQ İŞLƏRİ

Qobu kəndi əhalisi Ərzaq nazirinə verdikləri ərizələrində deyirlər ki, kəndin oğrularından Balaş Baxşəli oğlu və Məhəmməd Molladadaş oğlu saxta möhürlər qayıtdırıb, özlərini komissar adlandırmışlar. Bunlardan Balaş Baxşəli oğlu komissar, Məhəmmədyar Xəlil oğlu müavin və Məhəmməd Molladadaş oğlu katib olub Məhəmmədin camaat tərəfindən vəkil olması üçün saxta priqovor [hökm, qərar] da düzəltmişlər. Bu qərarla bunlar oğurluğa başlamışlardır. Dekabr ayında çay və qənd paylamaqdan ötrü bu quldurlar saxta priqovor düzəltmişlərdir. Qəndi və çayı kəndə gətirəndən sonra yarım girvənkə çay əvəzinə adam başına yarım çetvert çay vermişlər. Bir paralarına hətta heç verməmişlərdir. Qənd və çay almaq üçün hazırladıqları siyahıda 2100 adam göstərmişlərdir vəhalonki [halbuki] Qobu kəndində 1900 nəfərə yaxın adam vardır ki, bunlardan da 100 nəfəri şəhərdə və qeyri yerlərdə olurlar. Bu qərar üzrə 300-dən ziyadə adamın qənd və çayını bu oğrular özləri üçün götürmüşlərdir. Bunlardan əlavə, məzkur [adı çəkilən] oğrular bir para adamların qənd və çayını verməməkdən savayı özlərini də qorxudub demişlər ki, bizim bolşevik proqrammamız vardır. Hər kəsə keyfimiz istər, o adama da qənd və çay verərik.

Ərizənin axırında Qobu əhalisi xahiş edir ki, kənddə nə qədər adam olduğunu təhqiq etməkdən ötrü kontrol göndərilsin və təzə vəkil intixab edilənə [seçilənə] qədər məzkur oğrulara heç bir şey buraxılmasın.

Ərzaq Nəzarəti Qobu əhalisinin bu ərizəsini Bakı nahiyə məhkəməsinin müddəiyi-ümumisinə [prokuroruna] göndərib, bu işin təhqiq olunmasını xahiş etmişdir.

* Göyçay uyezdi Qaraməryəm kəndi əhli Mirmöhsün Mirqədir oğlu Ərzaq nazirinə verdiyi ərizəsində deyir ki, Göyçay uyezdində olan ərzaq vəkil müavini Əlibala Əliyev mənə məxsus buğda anbarını möhürləmişdir. Anbarda min put buğda vardır. Ərzaq vəkil müavininin bu işi, buğdası olanları həyəcana salmışdır. Buna görə xahiş edirəm mənim anbarımın möhürdən azad edilməsi üçün binagüzarlıqda bulunasınız [sərəncam verəsiniz]. Bundan əlavə, bu buğdaları aldığım haqqında sənədlər dəxi təqdim edə bilərəm.

Ərzaq Nəzarəti məzkur [adı çəkilən] Mirmöhsünün ərizəsini Gəncə vəkilinə göndərib Ərzaq Nəzarətinin xüsusi işlər məmuru Rəcəbovun həmin iş haqqında verdiyi bəyanatla bərabər bu işin təhqiq olunmasını təklif etmişdir.

## AZƏRBAYCANDA

**Quba mahalında**

Rəisi-vükəla [Baş nazir] Qubadan bu məzmunda bir teleqram almışdır:

Biz Quba mahalının Qusar uçastoku [sahəsi] əhalisi bu gün bir yerə cəm olub bizim uçastokun Dağıstana mülhəq olması [birləşdirilməsi] barəsində göndərilən yalan teleqrafı müzakirə edərək təkrar qət edirik ki, cavan vətənimiz olan Azərbaycana sədaqətimizi izhar edərək və var qüvvəmizlə Azərbaycan istiqlaliyyəti yolunda fədakarlıq edərək yalançı "müdafelərimizin" [müdafiəçilərimizin] bu hərəkətlərinə, bizim adımızdan Dağıstan Hökumətinə saxta teleqraf göndərənlərə artıq dərəcə nifrətlə protesto ediriz. Qoyunuz bu ağalar anlasınlar ki, bizim keçirdiyimiz fəlakətlərdən sonra dost və düşmənimizi tanıyırız.

Vəkillər: Əbdülcəlil Sadiqzadə, Azay Hacı Mürsəl oğlu, Molla Sibqətulla Şeyx Kərim oğlu, Əbil Hüseynzadə, Əsgər Hacı Dəmir oğlu.

**Qərardad**

1919-cu sənə yanvarın 27-də Xəzri kəndində:

Biz aşağıda imza edən Həzrə, Cibir, Piral, Mucuq, Ukur, Düztahir, Gican, Əcəxur, Gilah, Xuluq, Nəcəfkənd, Zuxul və Tahircal kəndləri Xəzri dairəsi Qusar uçastoku əhalisinin vəkilləri bu gün Xəzri kəndinə yığışıb Qusar uçastoku əhalisi namından [adından] Şimali Qafqaziya Hökumətinə bu yerlərin Dağıstana mülhəq olması [birləşdirilməsi] barəsində göndərilən saxta teleqraflarını müzakirə edib və bizim tərəfimizdən heç bir vaxtda böylə bir teleqraf göndərilmədiyini və bunun fitnəçilər işi olduğunu nəzərə alaraq izhar edirik ki, bizi vəkil edən xalq kimi biz də öz vətənimiz olan Azərbaycana sadiq təbəə olub vətənimizi canü dildən [candan və könüldən] seviriz və həmişə hazırıq ki, əziz vətənimizin səlahı üçün axırıncı damla qanımızı fəda edək. Onun üçün də zeyldəki [aşağıdakı] şəxsləri intixab eylədik [seçdik], bir dəfə də onlar bizim Azərbaycana sadiq təbəə olduğumuzu Qubada mahal naçalnikinə şifahən, Parlamana və Rəisi-vükəlaya [Baş nazirə] teleqrafən məlum eyləsinlər.

Yaşasın cavan Azərbaycan, onun Parlamanı və millətlər qardaşlığı!

Əslində yuxarıdakı kəndlərin vəkilləri imza edib və Həzrə dairəsinin pristav müavini F. Qaşiyev öz imzası ilə onların imzasını təhkim eyləmişdir.

**Priqovor [qərar, hökm]**

1919 sənəsi yanvarın 27-də biz aşağıda imza edən Avaran, Köhnə Xudat, İmamqulukənd, Aşağı Ləgər, Kuzun, Yuxarı Zeyxur və Həsənqala kənd camaatının vəkilləri Qusar uçastoku [sahəsi] pristavının dəvətinə görə bu tarixdə Qusar kəndinə cəm olduq, pristav bizə elan etdi ki, guya bizim adımızdan kim isə Teymurxanşuraya, oblast [vilayət] şurasına teleqraf vurub Qusar uçastokunun Azərbaycandan ayırlıb Şimali Qafqaziya Cümhuriyyətinə yapışmaq arzusunda olduğumuzu bildirmişdir. Biz müttəhidülqövl [yekdilliklə] söz veririk ki, heç vaxt heç bir kəsi bu barədə vəkil etməmişik. Hərgah, bizim adımızdan birisi böylə bir hərəkətdə bulunmuşsa, saxtakarlıq etmişdir. Buna görə imza ediriz: Balaqədeş Cəfər oğlu, Hacıqulu Əhməd oğlu, Kərim Teymur oğlu, Rəsul Baba oğlu, Polad Əlimurad oğlu, Xanbaba Ağası oğlu, Zeynal Xaspolad oğlu, Güləli Seyidəhməd oğlu, Ağakişi Kərimxan oğlu, Qayıb Xanşərif oğlu, Əmirxan Bədirxan oğlu, Lütfəli Fətəli oğlu, Arzuman Şahbaz oğlu, Xanəli Nurəli oğlu, Baxış Molla Ağakişi oğlu, Osman Qədir oğlu, Həsənbəy Qəmbər oğlu, Həsənəli Mansur oğlu, Xanbaba Vəlixan oğlu, Abdulla Molla Xanməhəmməd oğlu, İsgəndər Döndər oğlu, Muradxan Əhmədxan oğlu, Əlimurad Əziz oğlu, Rəhimxan Kərimxan oğlu, Vəzirxan Duraxan oğlu, Hacı Osman Mustafa oğlu, Eyvaz oğlu, Məhəmməd Əmin Hacı Mənaf oğlu və Məhəmmədrəsul Hacıqurban oğlu.

Savadları olmadığına görə bunların əvəzindən xahişlərinə görə qol çəkdi Abdulla Molla Məhəmməd oğlu.

Kuzun, Həsənqala, Yuxarı Zixur, Avaran, Kivnəxudad və Aşağı Ləgər kəndlərinin kəndçiləri (imza və möhürlər)

Həmin priqovor Quba uyezdi upravleniyasına [qəza idarəsinə] təqdim edilir.

*Əslində imza etdi:*
*Qusar uçastokunun pristavı*
*poruçik Zanqiyev.*
*27 yanvar, Qusar.*

**Müxtəlif xəbərlər**

* Üç gün əqdəm [qabaq] Gəncə valisi həzrətləri buraya vürud edərək [gələrək] camaatı dəvətlə lazımeyi-nəsayihdə bulundular [lazımlı nəsihətlər verdilər]. Camaat padvod (biyar) çoxluğundan şikayət etdilər. Vali həzrətləri heç bir işin əcirsiz [muzdsuz] olmadığını anladaraq məhəlli [yerli] məmurlara bu xüsusa diqqət yetirmələrini əmr etmiş. Təəssüf ki, vali həzrətləri həman əzimət edincə [gedən kimi] məmurlar zülümkarlığa başlamışlardır.

* Son həftələrdən bəri müttəsil [ara vermədən] yağmur və soyuq olduğundan və padvod (biyar) çoxluğundan ticarət kəsilmişdir.

## GÜRCÜSTANDA

**Parlamanın bağlanması**

Doqquz ay fəaliyyətdə bulunandan sonra Gürcüstan Parlamanı yanvarın 31-dən etibarən Məclisi-Müəssisan dəvətinə qədər müvəqqəti surətdə qapanır. Bu doqquz ayda Parlamana idxal [daxil] edilmiş olan 243 ədəd qanun layihəsindən bu vaxtadək ancaq 162-nə baxılıb qəbul edilmişdir.

* Oblastnoy komitə [Vilayət komitəsi] tədricən fəaliyyətini artırır. Neçə vaxt keçdikdən sonra Batum ərzaq upravasının [idarəsinin] heyəti dəyişir, Maslovun mərifəti [vasitəçiliyi] ilə Tabaxadze, Dyakonov və doktor Radokini ərzaq upravasına təyin olunurlar.

* Paraxodlar işləməyə başlamışdır. Külli mal gətirilir. Mahal şurası zemstvo idarəsi [yerli özünüidarə] təşkil etmək üçün hazırlıqlar görülür. Bu məqsədlə də şura bir komissiya təşkil eyləmişdir.

**Rusiya Milli Şurası və gürcülər**

Məlum olduğu üzrə bəzi yerlərdə baş qalxızdıqları kimi Soçidə dəxi bir dəstə ruslar yığışıb bir Rusiya Milli Şurası təşkil etmək istəmişlərdir. Bu xüsusda baş tutmamış olan şura nümayəndələri Gürcü Parlamanı, Gürcü Hökuməti və Tiflisdə mövcud Rus Milli Şurasına bu məzmunda birər teleqraf göndərmişlərdir:

Soçidəki rusların 26 yanvara təyin edilən Milli Şura təşkili xüsusundakı yığıncaqları əqd edilmədi [baş tutmadı]. Zira bir dəstə gürcülər "yaşasın beynəlmiləliyyət" yazılı bayraqlarla gələrək şura nümayəndələrinin bir neçəsini döyüb və rus arvadları naminə olmazın həqarətamiz sözləri deyib məclisi dağıtmışlardır. Rusiya əhalisi bu təcavüzdən xeyli həyəcana düşmüşdür. Bu əhvalları sizə məlum ediriz.

*Müvəqqəti Soçi Şurası*

**Gürcüstan və Denikin**

Gürcüstan Hökuməti ilə Denikin arasında siyasi münasibat və sülhcuyanə [sülhpərvər] əlaqə bərpa edilir. Gürcüstan nümayəndəsi Mdivani qəti surətdə sülh münasibatı bərpa etməkdən ötrü Yekaterinodara əzimət edəcəkdir [gedəcəkdir].

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir!

İşbu məktubumun qəzetənizdə dərc olunmasını xahiş edirəm.

Birinci Zükur [oğlanlar] gimnaziyasının türk lisanı və şəriət müəllimi Mirzə Məsihinin əsgəri imamlığa təyin edilməsi əmrini ləğv edən Şeyxülislam cənablarına məzkur [adı çəkilən] gimnaziya müsəlman mütəəllimləri [tələbələri] tərəfindən təşəkküratımızı izhar edirəm. Bununla bərabər Mirzə Ələkbərlə Mirzə Məsihi cənablarının Birinci Zükur gimnaziyası kitabxanasına hər biri 100 manat ianə etdiklərinə dəxi izhari-təşəkkür eylərəm.

*Gimnaziya müsəlman mütəəllimləri*
*namından [adından]: Həmid Məhəmmədzadə*


**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Təcrübəli buxqalter**

Üç ayın müddətində ən yeni italyan sistemasında türk və rus dillərində mükəmməl surətdə buxqalteriya öyrədirəm. Həkəza [habelə] firmalarda buxqalteriya işlərini tənzim etməyi qəbul edirəm. Unvan: Krasnovodski caddə "Dvartsovı" mehmanxanasında nömrə 19.

*2674*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9-2-yə və axşam 4-7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Papiros, tütün fabrikası**

Açılır bu tez zamanda papiros, tütün fabrikası Voronsovski küçədə 26 nömrəli evdə. Kamali-ehtiramla Ağazeynal Zeynalov.

*2676*

**Yer axtarıram**

Nazirə ya müdirəlik yeri axtarıram. Xarici dillərə malikəm. Ünvan: Suraxanski və Tatarski 176 nömrəli evdə Rəcəbovun mənzili.

*2675*

**Elan**
**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*

**Gəmiçilər Şurasının İttifaqı**

Bütün gəmi sahiblərini yekşənbə [bazar] günü fevralın 9-unda gündüz saat 12-də "Qafqaz-Merkuri" cəmiyyətinin kantorasında vaqe olacaq ümumi iclasa dəvət edir. İclasda şuranın məruzəsinə baxılacaqdır.

*2678*

**Opera**

Axşam tamaşası
Azərbaycan Hökumətinin teatrosunda
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli
Qardaşlarının müdiriyyəti
Cümə günü cəmadiyələvvəl ayının 6-sında 1337 sənəsi
(fevralın 7-sində 1919 sənədə) Hökumət teatrosunda
müdiriyyətin aktyorları tərəfindən bu mövsümdə
ikinci dəfə olaraq təntənəli bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
Üzeyir bəy Hacıbəylinin yazmış olduğu məşhur
**"Şah Abbas və Xurşidbanu"**
operettası 6 pərdədə.
Bu tamaşa təzə artistlərin iştirakı ilə başa gəlib,
qızlar və oğlanlar xoru və həm qoşun əhli olacaqdır.
Böyük musiqi orkestri Müslüm bəyin
təhti-idarəsində [idarəsi altında].
Biletlər imdidən teatrın kassasında satılmaqdadır.
Tamaşa başlanacaqdır axşam saat 8-in yarısında.
Müdir: Üzeyir bəy Hacıbəyli.


***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Sülh ətrafında: Yunanıstanın iştahası***

"Yunanıstan, paytaxtı İstanbul olacaq (?) yeni beynəlmiləl bir dövlətlə qonşu olmaq istəyir.": sual işarəsi qəzetdə getmişdir.

***Qəzetələrdən: Ukraynanın bolşeviklərə müharibə elanı***

"…müharibə halı olduğunu təsdiq edir.": qəzetdə "halı" yerinə "malı" getmişdir.

***Azərbaycan paytaxtı VII***

"işlupka" (rusca: шлюпка): göyərtəsiz gəmi.

"…Hacıtərxan voyevodası Musin-Puşkinə…": burada bir qarışıqlıq olmuşdur; güman ki, söhbət Matvey Stepanoviç Puşkindən gedir.

Puşkin, Matvey Stepanoviç (1630-1706): dvoryan; müxtəlif yerlərdə namestnik və voyevoda olmuşdur.

"Şamxal": Dağıstan hakimlərinin titulu idi. İndiki Dağıstan ərazisində feodal dövləti olan Tarki Şamxallığı 1867-ci ildə ləğv edilmişdir.

"Qaytaq xanı": Qaytaq xanlığı indiki Dağıstan ərazisində feodal dövləti olmuşdur. 1820-ci ildə ləğv edilmişdir.

"Sisianov": qəzetdə "Çiçyanof" kimi getmişdir.

"Ey Xuda, ya məra bekoş, ya ura!": (farsca) "Ey Tanrı, ya məni öldür, ya onu!"

Sion kilsəsi: Tiflisdə qədim kilsə.

"Bildiyimiz Sisianov fontanı…": Sisianovun öldürüldüyü yerdə, şəhərin erməni sakinlərindən birinin təşəbbüsü ilə 1846-cı ildə xatirə abidəsi ucaldılmış, daha sonra abidənin ətrafında fontan düzəldilmişdir. Sovet hakimiyyəti illərində bu abidə sökülmüşdür.

***Əczaxanaların milliləşmək tədbiri***

"nüsxəbənd": əczaçı, dərman hazırlayan.

***Ərzaq işləri***

"…yarım girvənkə çay əvəzinə adam başına yarım çetvert…": girvənkə 400 qrama, çetvert (yaxud çətvər) isə 100 qrama bərabər ağırlıq ölçüsüdür.

***Azərbaycanda: Müxtəlif xəbərlər***

"biyar": məcburi və müftə gördürülən iş, mükəlləfiyyət.

# Məktublar: problemlər, rəylər, təkliflər...



● ŞƏHİDLƏR UNUDULMUR!

## Ehtiram qayğıkeşlikdən başlayır



**Vətən torpağına can verən oğulların hər biri bizim üçün əzizdir. Onlardan biri də övladım Vüsal Şirinovdur.**

Vüsal İkinci Qarabağ müharibəsində 2020-ci il oktyabrın 25-də Füzuli rayonunun Dövlətyarlı kəndi uğrunda gedən döyüşlərdə şəhid olub. Ölümündən sonra "Vətən uğrunda", Xocavəndin və Füzulinin azad olunmasına görə medalları ilə təltif edilib.



Hər bir şəhid valideyni kimi mənə də diqqət və qayğı göstərilir. Getdiyim məclislərdə, tədbirlərdə, hətta bazar və marketlərdə bunun şahidi oluruq. Ailəmizlə mütəmadi maraqlanır, ortaya çıxan problemləri qarşılamaqda bizə yardım edirlər.

Ötən ilin sonlarında əlaqədar təşkilatlardan gələn nümayəndələr Ləgərqışlaq kəndindəki həyətimizdə bizim üçün yeni evin tikintisinə qərar verdilər. Qısa müddətdə 3 otaqlı, aynabəndli və bütün kommunikasiya xətləri olan evi tikib bizə təhvil verdilər.

Digər oğlum Samir əsgəri xidmətini başa vuraraq geri qayıdıb. Qızım Aysel orta məktəb şagirdidir. Onların hər birinin adından bizə göstərilən hörmət və ehtirama görə minnətdarlığımı bildirirəm. İnsan onun bir parçasına verilən dəyəri göründə fəxr hissi keçirir və heç nəyin hədər getmədiyinə bir daha əmin olur.

*Novruz ŞİRİNOV,*
*Qusar rayonu, şəhid atası*

● MƏMNUNLUQ

## Zaqatalada yeni məktəb binaları tikilir




**"Təhsil millətin gələcəyidir" deyən Ümummilli Lider Heydər Əliyev dövlətin əsas fəaliyyət sahələrindən birinin təhsil olduğunu dönə-dönə vurğulamışdır. Bu səbəbdən qəbul olunan regional inkişaf dövlət proqramlarında əsas yerlərdən birini ümumtəhsil məktəblərinin tikintisi və yenidən qurulması tutur.**

Zaqatalada 63 ümumtəhsil, 42 məktəbəqədər və 5 məktəbdənkənar təlim-tərbiyə müəssisəsi var. Dövlət proqramlarının icrası çərçivəsində ümumtəhsil müəssisələri əsaslı təmir olunmuş, yenidən tikilməsi vacib olan məktəblərin tikintisinə başlanılmışdır. Ötən il əsaslı təmirə ehtiyacı olan Danaçı kənd 1 və 3 saylı məktəblər təmir olunmuşdur. Həmçinin yanğın nəticəsində xeyli zərər dəymiş Əliabad qəsəbə 4 nömrəli tam orta məktəbin dam hissəsi dəyişdirilmişdir. Təhsil müəssisələrinin əsaslı təmiri və tikinti işləri Aydın Babayev adına Mosul kənd tam orta məktəbində də həyata keçirilmişdir. Belə ki, 2023-cü ilin əvvəlində məktəb üçün yeni binanın tikintisinə başlanılmış və yeni tədris ilində məktəb şagirdlərin və müəllimlərin istifadəsinə verilmişdir. Məktəbin açılışında elm və təhsil nazirinin müavini İdris İsayev, rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, Regional Təhsil İdarəsinin nümayəndələri, məktəbin kollektivi və valideynlər iştirak etmişlər. A.Babayev adına Mosul kənd tam orta məktəbi 487 şagirdlikdir. Məktəb müasir avadanlıqlarla təchiz olunmuşdur.

**İlkin MƏMMƏDOV,**
**Zaqatala rayon sakini**

● TƏKLİF

## Kəndimizdə bankomata ehtiyac var

Hörmətli redaksiya!

Sizə Ağdam rayonu Üçoğlan kəndinin sakinləri adından müraciət edirik. Kəndimiz rayon mərkəzindən 15-20 kilometr aralıda yerləşir.

Hər dəfə əməkhaqqı və təqaüdlərimizi almağa rayon mərkəzinə getmək məcburiyyətində qalırıq. Bu da bizə çətinliklər yaradır. Xüsusən yaşlılar və xəstələr çox əziyyət çəkirlər. Odur ki, əlaqədar qurumlardan bizim ərazi nümayəndəliyində bankomat quraşdırmalarını xahiş edirik. Sizdən isə xahişimiz odur ki, səsimizi həmin qurumlara çatdırasınız.

**Asif KAZIMOV, Esmira HƏSƏNOVA,**
**Rafail SƏFƏROV, İlham ƏLİYEV,**
**Bəylər ƏKBƏROV, Elxan QULİYEV,**
**Şahmalı ƏLİYEV, Buruzu BABAYEV,**
**Ağdam rayon Üçoğlan kənd sakinləri**



## ● Fotofakt



*Fotomüxbirimiz İlham Babayevin lentə aldığı fotoda qədimlik və müasirliyin vəhdətindən yaranan möhtəşəm memarlıq ansamblı göz önündə canlanır. Şərqlə Qərbin təfəkkür tərzi, Orta əsr müsəlman fəlsəfəsi və Azərbaycanın atəşpərəstlik tarixindən ilhamlanan alov dilləri… Bakının möhtəşəm görüntüsünün sirri də bəlkə elə bundadır: müasirliyi tətbiq etmək, ancaq tarixi qorumaq şərtilə. Çünki tarixi abidələri qorumaq şəhərin hafizəsini, tarixini qorumaq deməkdir. Bu gün Bakı səması əsrarəngiz memarlıq möcüzələri ilə öyünür. Bu möcüzələrdən ən valehedicisi şəhərimizin rəmzinə çevrilmiş Alov Qüllələridir. Xəzər dənizinin alovlu gözətçiləri səhərlər günəş işığında parıldayır, axşam düşəndə LED ekranlarla şəhərin canlı və dinamik ruhu əks olunur. Gözoxşayan strukturlardan daha çox onlar şəhərin yenilik və transformasiyasını, gecə səmasına qarşı daha parlaq yanan tərəqqi çırağını təcəssüm etdirir.*

*Axşamlar üzərində dalğalanan üçrəngli bayrağımız isə hər bir vətəndaşımızı qürurlandırmaqla yanaşı, şəhərimizə gələn turistləri də heyran edir.*

● ABADLIQ

## Bağa baxarsan bağ olar...





**Bir vaxtlar "Azadlıq prospekti" metrostansiyası ilə üzbəüz geniş park sahəsi bərbad bir məkanı xatırladırdı. Dincəlmək üçün bu yerə üz tutan sakinlər oradakı natəmizliyi, antisanitariyanı görüb gəldiklərinə peşman olurdular. Onları bir sual düşündürürdü. Bütün aidiyyəti qurumların yaxınlığında, lap elə gözləri qarşısında yerləşən bu park niyə bu vəziyyətdə olmalıdır?**

Dünən yolum yenə sözügedən parkdan düşdü. Gözlərimə inanmadım. Park başdan-ayağa təmir olunur. Oturacaqlar yenilənir, hətta əlavə oturacaqlar da qoyulur. Yeni işıq dirəkləri quraşdırılır, döşəmələrə, pilləkənlərə müasir üzlüklər vurulur. Parkda olan yaşıllıqların - ağacların, gül-çiçək kollarının ərazisi də genişləndirilir. Düzdür, təmir işləri hələ davam edir. Amma burada artıq səliqə-sahman hiss edilir. Deyilənə görə, bu işləri Binəqədi Rayon İcra Hakimiyyəti təşkil edib. Rayon sakinləri adından bu işdə payı olan hər kəsə və hər təşkilata minnətdarlığımı bildirirəm.

***Sübhan TƏHMƏZOV,***
***Bakı şəhər sakini***

● GÜZƏRAN

## Polietilen torbalardan istifadəyə nə vaxt son qoyulacaq?

**Polietilen torbaların insan sağlamlığı üçün təhlükəsini hamı yaxşı bilir. Amma bunu bilə-bilə şüurlu surətdə biz bu təhlükədən yaxa qurtara bilmirik.**

Bunun birinci səbəbi ticarət və xidmət obyektlərində, xüsusilə market sahiblərinin daha çox qazanmaq istəyidir. Onu da bildirim ki, böyük dükanlarda plastik torbalar 3-5 qəpiyə satılırsa, bizim Lerikin əksər dağ kənd dükanlarında alıcıya onlar 10 qəpiyə başa gəlir. Odur ki, ərzaqların iki-üç dəfə baha qiymətə satılması bir yana qalsın, həyatını zəhərləyən 15 mikron polietilen torbalara görə əlavə pul ödəməli olursan.

İndi fikirləşirik - görəsən, bu təhlükəli alverə nə vaxt son qoyulacaq? Nə vaxtacan biz təbiətə ziyan vurmağa məcbur ediləcəyik?

***Zəfər ORUCOĞLU,***
***Lerik rayonu Bradi kənd sakini***

AZƏRBAYCAN -a cavab verirlər

## Kəndlərin elektrik şəbəkələrinin yenidən qurulması investisiya planına salınacaq

**"Azərbaycan" qəzetinin 23 noyabr 2023-cü il tarixli sayında dərc edilmiş "Zəif külək əsən kimi..." sərlövhəli oxucu məktubunda Astara rayonunun dağ kəndlərinin, o cümlədən Hamarat, Bradi, Vov, Vənədi, Dzdipok kəndlərinin elektrik enerjisi təminatında fasilələrin yaranması ilə əlaqədar qaldırılmış problemin həlli istiqamətində tədbir görülməsi barədə müraciətə "Azərişıq" ASC-də baxılmışdır.**

Bununla əlaqədar olaraq bildiririk ki, cəmiyyət yarandığı dövrdən Astara rayonunun elektrik şəbəkələrində bir sıra təmir, yenidənqurma və tikinti işləri yerinə yetirilmişdir. Belə ki, rayonun Kijəbə qəsəbəsində yerləşən 35/10-6 kV-luq 4+2,5 MVA gücündə yarımstansiya tam yenidən qurulmuş, Pensər kəndində 35/10 kV-luq 2x4 MVA gücündə "Pensər" yarımstansiyasında əsaslı təmir işləri aparılmış, Ərçivan qəsəbəsində 35/10 kV-luq "Ərçivan" yarımstansiyasında 2,5 MVA gücündə transformator 4 MVA gücündə transformatorla əvəz edilmiş, köhnə tipli 55 ədəd komplekt transformator məntəqəsi yenisi ilə əvəz olunmuş, 45 ədəd yeni güc mərkəzi yaradılmışdır. 5 km 35 kV-luq, 35 km 10 kV-luq və 270 km 0,4 kV-luq hava elektrik xətləri çəkilmiş və təmir olunmuşdur. Şahağacı, Diqo, Doli, Sekaşan, Lələkəpeştə, Avyerud, Sipiyyət, Şəvqu kəndlərinin 0,4 kV-luq elektrik şəbəkələri tam şəkildə, Ərçivan və Kijəbə qəsəbələrində, Pensər kəndində bu istiqamətdə işlər qismən yerinə yetirilmişdir. Hazırda yenidənqurma işləri Siyəkəran kəndində aparılmaqdadır.

Eyni zamanda bildiririk ki, məqalədə göstərilən kəndlərin elektrik şəbəkələrində mütəmadi olaraq təmir və bərpa işləri aparılır. Yenidənqurma işləri aparılmamış kəndlərin elektrik şəbəkələrinin yenidən qurulması "İnvestisiya Planı"na daxil edilməklə, bu istiqamətdə işlərin mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulmuşdur.

***Qədir İSMAYILOV,***
***"Azərişıq" ASC-nin sədr müavini***

## Fakt təsdiqlənsə də...

**"Azərbaycan" qəzeti tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinə "Fotofakt"da qaldırılmış problemin həlli istiqamətində tədbir görülməsi barədə" məktub daxil olmuşdur.**

Məsələ ilə əlaqədar 11 saylı RETSİ-nin əməkdaşları tərəfindən yerində araşdırma aparılaraq tərtib edilmiş (2023-cü il 27 dekabr tarixli, 26/1744/d nömrəli məktubu ilə daxil olmuş) 2023-cü il 27 dekabr tarixli, 1012 nömrəli baxış aktında Yasamal rayonu, Məmməd Rahim küçəsində yerləşən Bakı Dövlət Universitetinin həyətyanı sahəsində 1 ədəd, Memarlıq və İnşaat Universitetinin giriş qapısının yaxınlığında, avtomobil yolunun kənarında 1 ədəd quru qovaq ağacının olduğu qeyd edilmişdir.

Bildiririk ki, Bakı şəhəri ərazisində təbii şəraitdə kökəstə tam qurumuş, kök boğazı və ya gövdəsinin çürüməsi nəticəsində qəzalı vəziyyətə düşmüş və aşma təhlükəsində olan Qovaq cinsli ağacların istifadəsində olan torpaq sahələrinə münasibətdə müvafiq mərkəzi icra hakimiyyəti orqanı, digər torpaq sahələrinə münasibətdə isə yerli icra hakimiyyəti orqanı və ya bələdiyyə tərəfindən qəbul olunmuş qərar və ona əlavə edilmiş "Yaşıllığın götürülməsi vərəqi" əsasında mütləq 11 saylı RETSİ-nin iştirakının (əvvəlcədən verilmiş məlumat əsasında) təmin edilməsi və yerində mühitə uyğun cinslərdən yeni ağac tinginin əkilməsi şərti ilə götürülməsinə dair rəy və budanmasına zərurət yaranmış hündürgövdəli qovaq ağaclarının gövdələrinin üst hissəsindən budanması, gövdəsi və ya budaqları kommunikasiya xətlərinə toxunaraq təhlükə yaradanların isə xətlərdən aralı məsafəyədək budanaraq təhlükəsiz vəziyyətə gətirilməsi ilə bağlı ekoloji tələb 2021-ci il 8 yanvar tarixli, 22/26 nömrəli məktubla Bakı Şəhər İcra Hakimiyyətinə və Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinə (surəti Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyinə) ünvanlanmışdır.

Odur ki, həmin quru qovaq ağacları ilə bağlı zəruri tədbirlərin görülməsi sözügedən məktub nəzərə alınmaqla həyata keçirilməlidir.

QEYD: Sözügedən ağaclarla bağlı görülən işlərin icrası zamanı 11 saylı RETSİ-nin nəzarəti (əvvəlcədən verilmiş rəsmi məlumat əsasında) mütləq təmin edilməli, işlərin yerinə yetirilmə tarixi və icrasının nəticəsi barədə rəsmi məlumat (təsdiqedici sənədlər əlavə edilməklə) aidiyyəti üzrə 11 saylı RETSİ-yə təqdim edilməlidir.

***Mirsalam QƏNBƏROV,***
***Dövlət Ekoloji Ekspertiza Agentliyi***
***İdarə Heyətinin sədri***

## "Zəruri tədbirlər görülür"

**Sizin şəkərli diabet xəstələrinin növbəli dərman vasitələri ilə təmin olunması barəsində müraciətinizə "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsdə (TƏBİB) aidiyyəti üzrə baxılmışdır.**

Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən tibbi yardım "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı"nın və "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təminatı Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may 2005-ci il tarixli 87 nömrəli qərarı ilə tənzimlənmişdir.

Bildiririk ki, bu qərarın 2 nömrəli əlavəsində şəkərli diabet xəstələri üçün təyin olunan dərman preparatları terapevtik doza 30 günlük müalicə kursundan artıq olmaması qeyd olunmuşdur.

Həmçinin qeyd olunan problemin həlli ilə bağlı zəruri tədbirlər görülməkdədir. Nəzərə almağınız xahiş olunur.

***Elnur QURBANOV,***
***TƏBİB-in Resursların idarə olunması***
***departamentinin rəhbəri***

## "Tullantıların daşınması axşam saatlarında həyata keçirilir"

**Sizin 23.11.2023-cü il tarixdə "Azərbaycan" qəzetində dərc edilmiş "Küçələrdə zibillərin daşınması qrafiki dəyişdirilməlidir" sərlövhəli oxucu məktubunda qaldırılmış problemin həlli istiqamətində tədbirlər görülməsi barədə Mənzil-Kommunal Təsərrüfatı Departamentinə müraciətinizə baxılmışdır.**

Azərbaycan Respublikası Prezidentinin "Tullantılarla bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" 2008-ci il 6 avqust tarixli 2983 nömrəli sərəncamına əsasən, Bakı şəhərinin ərazisində əmələgəlmə mənbəyindən asılı olmayaraq, bütün bərk məişət tullantılarının yığılması, daşınması və "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə təhvil verilməsi Bakı Şəhər İcra Hakimiyyətinə tapşırılmışdır.

Bu tədbirlərin hazırlanmasına hal-hazırda avropalı (İngiltərə və Fransa) aparıcı ekspertlər cəlb olunmuş, onların təklifləri əsasında müzakirələr aparılmışdır. Təkliflərə əsasən, xüsusi təyinatlı texnikanın alınması (Avropa istehsalı olan MAN və IVECO markalı) və bərk məişət tullantıları üçün nəzərdə tutulan konteynerlərin yeniləri ilə əvəzlənməsinə zərurət yaranmışdır ki, bu istiqamətdə də hal-hazırda əməli tədbirlər həyata keçirilməkdədir.

Təkliflərə əsasən, Bakı şəhərində bərk məişət tullantılarının yığılması, qablaşdırılması, daşınması sahəsində maddi-texniki bazanın gücləndirilməsi, şəhərin sanitar təmizliyinin təmin edilməsi ilə bağlı işlərin aparılması, tullantıların tərkibinə görə çeşidlənərək yığılması və bu istiqamətdə digər tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Kommunal Təsərrüfatı Departamenti tərəfindən 2019-cu ildə Böyük Britaniyanın bu sahədə ixtisaslaşmış "Mott MacDonald" şirkəti ilə müqavilə bağlanılmışdır. "Mott MacDonald" şirkəti tərəfindən məişət tullantılarının idarə edilməsi çərçivəsində görüləcək tədbirlərin ardıcıllığını, sanitar-təmizlik işlərinin həcmini, tullantıların yığılması, müvəqqəti saxlanılması və daşınması metodunu, habelə tələb olunan maşın-mexanizmlərin və avadanlıqların sayının müəyyən edilməsi üçün müqavilə şərtlərinə uyğun olaraq pilot layihə çərçivəsində 10.07.2019-cu il tarixdən Nərimanov rayonundan, daha sonra 01.03.2021-ci il tarixdən Nizami rayonunda, 01.04.2021-ci il tarixdən Nəsimi rayonu üzrə, 01.05.2021-ci il tarixdən Yasamal rayonu üzrə, 20.09.2022-ci il tarixdən Səbail rayonu üzrə, 03.11.2022-ci il tarixdən isə Xətai rayonu üzrə, 14.04.2023-cü il tarixdən Pirallahı rayonu üzrə və 14.07.2023-cü il tarixdən isə Suraxanı rayonu üzrə Pilot Layihəyə start verilmişdir. Rayon üzrə xüsusi təyinatlı nəqliyyat vasitələri ilə qarışıq və çeşidlənmiş tullantılar daşınaraq zərərsizləşdirilməsi üçün "Təmiz Şəhər" ASC-nin Balaxanıda yerləşən müəssisələrinə (yararlılığına görə, çeşidləmə zavodu və yandırma zavodu) təhvil verilir. Qısa vaxt ərzində layihə Bakı şəhərini tam əhatə edəcəkdir.

Bildiririk ki, gündəlik daşınan bərk məişət tullantılarının həcmi qış aylarında 1100-1200 tona bərabər olduğu halda, yay aylarında daşınan tullantıların həcmi daha da artır. Bakı şəhəri üzrə xidməti əraziyə gündəlik 130-140 xüsusi təyinatlı nəqliyyat vasitəsi xidmət göstərir. Gündüz vaxtlarda şəhərdə avtomobillərin hərəkət sıxlığı nəzərə alınaraq, tullantıların daşınması axşam saatlarında həyata keçirilir.

***Y.XƏLİLOV,***
***Mənzil-Kommunal Təsərrüfatı***
***Departamentinin sədr müavini***

# İspaniya Kataloniya separatçılarına amnistiya vermədi

İspaniyada, gözlənilənlərin əksinə olaraq, 2017-ci ildə Kataloniyanın müstəqilliyini elan etməyə çalışan separatçıları hüquqi təqibdən azad edən qanun qəbul edilməyib.




Belə ki, İspaniya parlamentinin aşağı palatası olan Deputatlar Konqresi yanvarın 30-da 2017-ci ilin oktyabrında Kataloniyanın müstəqilliyini elan etmək cəhdində əli olanların amnistiyaya cəlb olunmasını nəzərdə tutan qanun layihəsini rədd edib. Sənədin qəbulunun lehinə 171 deputat, əleyhinə isə 179 parlamentari səs verib. Qanun layihəsinin təşəbbüskarı hakim İspaniya Sosialist İşçi Partiyası (İSİP) olub.

Layihə İSİP ilə Kataloniyanın millətçi partiyaları - "Kataloniya naminə birlikdə" və "Kataloniyanın sol respublikaçıları" partiyaları arasında uzlaşma nəticəsində ortaya çıxıb. Sosialistlər 2023-cü ilin noyabrında hökumətlərinin inauqurasiyası üçün katalonların parlament dəstəyi müqabilində amnistiya təşəbbüsü ilə çıxış ediblər. Çünki əvvəlki seçkilər nəticəsində İSİP hakim kabineti formalaşdırmaq üçün kifayət qədər səs toplamamışdı.

Amnistiya təxminən 350 nəfərə şamil edilməli idi. Söhbət ilk növbədə müstəqillik elan etmək cəhdinin arxasında duran siyasətçilərdən, o cümlədən Kataloniyanın keçmiş lideri və İspaniyadan kənarda - əvvəlcə Belçikada, sonradan Berlində, hazırda isə İtaliyanın Sardiniya adasında gizlənən "Kataloniya naminə birlikdə" partiyasının lideri, Avropa parlamentinin sabiq deputatı Karles Puçdemondan gedir. Amnistiya şamil olunanlar arasında həmçinin küçə iğtişaşlarında, nəqliyyatda təxribatda və hüquq-mühafizə orqanlarının əməkdaşlarına hücumlarda iştiraka görə təqib edilən radikal separatçı qrupların üzvləri də var idi. Amnistiya qanunu ölkədə kütləvi etirazlara səbəb olub. Müxalifət partiyaları Sançesi qanunu pozmaqda ittiham edib. Layihəni tənqid edənlər arasında müxalifətdə olan sağçı partiyaların tərəfdarları, eləcə də hüquqşünasları, sahibkarları, müəllimləri, jurnalistləri təmsil edən müxtəlif ictimai təşkilatlar var. Onun əleyhdarları arasında hətta keçmiş baş nazir Felipe Qonsales də daxil olmaqla İSİP-in tanınmış simaları da yer tutub. Onlar İspaniyanın hazırkı baş naziri Pedro Sançesi şəxsi ambisiyaları naminə amnistiyanı nəzərdə tutmayan ölkə konstitusiyasını pozmaqda ittiham edirlər.

Etirazların intensivliyi həm də separatçılara növbəti güzəştlər olunacağı qorxusu ilə izah edilir. Çünki separatçıların irəli sürdüyü şərtə görə, onlar hökumətə gələcəkdə də dəstək vermək müqabilində sonradan Kataloniyada İspaniyadan ayrılmaq hüququ ilə referendum keçirmək arzusundadırlar. Bu isə, müşahidəçilərin qeyd etdiyi kimi, ölkə üçün gözlənilməz nəticələr verə bilər.

Bu arada layihənin parlamentdə iflasa uğraması gözlənilməz olub. Belə ki, bu nəticəni Puçdemonun partiyasından olan yeddi deputatın mövqeyi təmin edib. İSİP ilə uzun sürən danışıqlara baxmayaraq, onlar bu siyasətçi və 2017-ci il hadisələrinin bir sıra digər iştirakçıları üçün xüsusi təminat əldə edə bilməyiblər. İspaniyanın hüquq-mühafizə orqanları Karles Puçdemon və digər separatçılar barəsində istintaqı davam etdirir. Ekspertlər istisna etmirlər ki, Puçdemon digər məsələlərlə yanaşı, amnistiyaya aid edilməyən əməllərdə, məsələn, hüquq-mühafizə orqanlarının əməkdaşlarına xəsarət yetirməkdə də ittiham oluna bilər. Xatırladaq ki, 2019-cu il oktyabrın 14-də İspaniya Ali Məhkəməsi onu 13 il müddətinə azadlıqdan məhrum edib və həbs qərarı verib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hepatit A-dan necə qorunaq

Son həftələrdə Hepatit A xəstəliyi əhali arasında narahatlığa səbəb olub. Sarılıq kimi tanıdığımız Hepatit A qaraciyərin və ödün funksiyasının pozulması nəticəsində yaranan virus xəstəliyidir. O, qaraciyərdə kəskin iltihab yaratsa da, öz-özünə sağalaraq orqanda xəsarət yaratmır. Yəni Hepatit B və C-dən fərqli olaraq, Hepatit A xroniki qaraciyər xəstəliyinə səbəb olmur.




## Sarılıqdan sonra qaraciyərin bərpası 5 aya qədər çəkə bilər

Mövzu ilə bağlı fikirlərini bildirən Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Emin Məmmədov bildirib ki, bu virus uzun illərdir mövcuddur, tam öyrənilib və hətta ona qarşı vaksin də var: "Yoluxma bəzi gigiyena qaydalarının pozulması nəticəsində yaranır və yayılmasına səbəb olur. Hepatit A virusu, əsasən, fekal-oral yolu ilə ötürülür, çirklənmiş əl ilə infeksiya ətrafa yayılır. Beləliklə, yoluxan şəxsin virusu ələ toxunan zaman və ya qida, su vasitəsi ilə digərlərini asanlıqla yoluxdura bilər. Hepatit A virusu orqanizmə həzm sistemi vasitəsilə daxil olur. Meyvə və tərəvəzlər yuyulmadığı təqdirdə qəbul ediləndə virusa yoluxma ehtimalı xüsusilə yüksəlir. Çünki virus soyuğa, istiyə, hətta mədənin qatı turş mühitinə davamlıdır. Lakin suyu qaynatmaqla onu tamamilə məhv etmək olar".

Mütəxəssis-ekspert deyib ki, virusa yoluxan insanlarda inkubasiya müddəti adlanan gizli dövr olur: "Bu proses ortalama 2-4 həftə davam edir. Xəstəlik insanda halsızlıq, tez yorulma, əzələlərdə ağrı, iştahasızlıq, qusma, mədə ağrısı, ishal əlamətləri ilə özünü göstərir. Bu, ən çox yoluxdurucu olduğu dönəmə təsadüf edir. Daha sonra sarılıq dəridə qaşınma əlamətləri ilə üzə çıxır və xəstəliyin daha öncəki əlamətlərində rahatlama müşahidə edilir. Diaqnoz qoymaq üçün qaraciyər testlərinin laborator analizlərinə baxılır, xəstəliyin gedişi bununla izlənilir".

E.Məmmədov söyləyib ki, gözlər və dəri saraldıqda xəstə artıq məsələnin adi soyuqlama, mədə-bağırsaq pozuntusu kimi yox, məhz qaraciyər xəstəliyi olduğunu anlayır. Bu halda həkimə müraciət etmək tövsiyə olunur: "Sarılıq baş verdikdən sonra qaraciyərin əvvəlki səviyyəyə qayıtması 5 aya qədər çəkə bilər. Bəzən xəstələr tamamilə saralmış vəziyyətdə həkimə müraciət edirlər. Lakin həyəcanlanmaq lazım deyil. Sağlam insan üçün Hepatit A virusuna yoluxma həyati risk daşımır. Ən əsası, xəstəni təcrid etmək və digər insanları yoluxmadan qorumaqdır. Onunla təmasda yalnız daha öncə sarılıq keçirən insanlar və vaksinasiyası olan şəxslər olmalıdırlar. Yoluxan şəxsi xəstəxanaya yerləşdirməyə hər zaman ehtiyac yaranmır. Belə ki, yaşayış yeri üzrə poliklinikanın sahə həkiminin və ya infeksionistin nəzarətində evdə müalicə ala bilər".

## Şəxsi gigiyenaya diqqət etmək mütləqdir

Xüsusilə 5-14 yaş qrupu uşaqların Hepatit A virusuna daha çox yoluxduğunu söyləyən E.Məmmədov bildirib ki, uşaqlarının yoluxma hallarını hiss edən valideynlər həkim-pediatrlara yanaşmalıdırlar. Əl gigiyenası xüsusilə uşaqların virusa yoluxmasının qarşısını almağın ən yaxşı yoludur. Böyüklər də uşaqlardan yoluxa bilərlər. Yaşlı insanlar, xüsusilə xroniki qaraciyər xəstəliyindən əziyyət çəkən, Hepatit B və C xəstələri, sirrozlu xəstələr, alkoqolla bağlı qaraciyər xəstəliyindən əziyyət çəkənlər, ağır ürək xəstələri, böyrək xəstələri hepatit A-ya yoluxarsa, bu zaman müalicədə çətinliklər yarana bilər. Buna görə də virusun alovlanması olan ərazilərdə bu qrup şəxslərə vaksinasiyadan keçmək tövsiyə olunur".

Həkim deyib ki, Hepatit A virusu yüksək immunogendir: "Virusa yalnız bir dəfə yoluxma mümkündür, sonra ömürlük immunitet formalaşır. Xüsusi müalicə üsulu və spesifik bir antivirus preparatı yoxdur. Yalnız simptomatik dərmanlar və infuziyalar tövsiyə edilə bilər. Hepatit A xəstələrinə çox dərman istifadəsi məqsədəuyğun deyil. Ciddi virus təsirinə məruz qalan qaraciyər artıq dərmanlara güc sərf etməməlidir. Buna görə də lazımsız medikamentoz müalicədən qaçımaq tövsiyə olunur. Vaksinasiya Hepatit A virusunun spesifik profilaktika üsuludur. İki doz peyvənd alaraq bu xəstəlikdən tam qorunmaq mümkündür".

Mütəxəssis vətəndaşlara şəxsi gigiyenalarına ciddi surətdə diqqət yetirməyi və mütəmadi olaraq xüsusi dezinfeksiyaedici məhlullardan istifadə etməyi tövsiyə edib. O, xəstəliyin simptomları üzə çıxdığı və ya şübhələnildiyi andan digər insanlarla təması minimuma endirməyin vacibliyini də vurğulayıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Heydər Əliyev Mərkəzində Kojo Marfonun sərgisi açılacaq

Heydər Əliyev Mərkəzi əlvan rəngləri ilə nəzərləri özünə cəlb edən, izləyicilərinə xoş, hətta bəzən bayram əhvali-ruhiyyəsi bəxş edən əsərlərdən ibarət sərginin təqdimatına hazırlaşır.

AZƏRTAC xəbər verir ki, fevralın 14-də açılacaq "Ümid sınağı" ("Crucible of hope") sərgisində rəssam Kojo Marfonun 20-dən çox əsəri nümayiş olunacaq.

Kojo Marfo Londonda yaşayan qanalı rəssamdır. O, uşaqlıqdan tanış olduğu Afrikanın ənənəvi Akan artefaktlarının, heykəllərinin təsiri altında rəssam kimi inkişaf edib. Çoxsaylı səyahətlər də Marfonun müxtəlif mədəniyyətlərlə tanışlığına və həmin mədəniyyətlərin yaradıcılığında əks olunmasına səbəb olub. Marfonun yaradıcılığı ilə tanışlıq mədəniyyət dəhlizləri ilə səyahət etməyə bənzəyir.

Heydər Əliyev Mərkəzində sərgilənəcək əsərlər qanalı rəssamın uşaqlıq xəyallarını müasir dünyanın reallığı ilə bir-birinə qarışdırır. Hər bir əsərində isə bir-birinə məharətlə bağlanan məna və emosiya qatları ziyarətçilərə Kojo Marfonu daha dərindən kəşf etmək imkanı qazandırır. Marfonun əsərləri cəmiyyət üçün güzgü funksiyasını daşıyır, dərin düşüncələrin yaranmasına ilham verir. Rəssamın fərqli zəkasını, yumor hissini və dərin müşahidə bacarığını nümayiş etdirən bu sərgi ziyarətçilərə Marfonun özünün hansı düşüncələrə malik olduğunu anlamağa fürsət yaradır.

Kojo Marfonun sənət əsərləri bundan əvvəl Amsterdam, Barselona, London, Nyu York, Paris, Tokio və digər şəhərlərdə nümayiş etdirilib.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## Dövlət Sığorta Kommersiya Şirkətinin müştərilərinin nəzərinə!

Dövlət Sığorta Kommersiya Şirkətinin (Azərsığorta) baş ofisi yeni məkana köçürülmüşdür.

Şirkət müştərilərinə bundan sonra yeni ünvanda (Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ küçəsi, 31) xidmət göstərəcəkdir.

**Əlaqə: 1200.**

***Rəhbərlik***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

**ASCO-nun struktur idarələrinə tələb olunan qoruyucu ipsiz çəkmələrin satın alınması məqsədilə**

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 07 fevral 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


# Hayastanda hakimiyyətin korrupsiya əməlləri daha da böyüyür

Hayastanda korrupsiya erməni xalqının həyatını məhv etməkdədir. İndi ölkədə elə bir yüksəkçinli məmur yoxdur ki, şəxsi biznesi olmasın, yaxud da vəzifədə olarkən digər yollarla böyük sərvət toplamasın.



Son illər ərzində milli sərvətlərin yarıdan çoxu mütəmadi və sistematik şəkildə oğurlanmaqdadır. Beynəlxalq təşkilatların məğlub ölkədə korrupsiya faktları ilə bağlı hesabatında bildirilir ki, bu ölkədə korrupsiya halları ötən 6 ildə azalmayıb, əksinə, artıb. Bu xoşagəlməz halla bağlı mübarizə tədbirləri hələ də kağız üzərindən əməli işə keçməyib.

Vergi ödəyiciləri arasında keçirilən rəy sorğusu da bunu təsdiqləyir. Sahibkarlıqla məşğul olmaq istəyənlər külli miqdarda rüşvət ödədiklərini deyirlər. Onların Paşinyan hökumətinə inamı yoxdur. Ölkədə toplanan verginin korrupsiyaya qurşanmış rəsmilər və məmurlar tərəfindən mənimsənilməsi ilə bağlı çoxsaylı faktlar var. Rəyi soruşulanlar vergi qanunlarının vergi ödəyicisi olan iş adamlarına eyni dərəcədə tətbiq olunmadığını qeyd edirlər.

"Transparency International" antikorrupsiya mərkəzinin proqramlar rəhbəri Varujan Oktanyan bildirib ki, 2023-cü ildə Hayastanda korrupsiyanın qəbulu indeksi 47 olub ki, bu da 2022-ci illə müqayisədə bir bənd çoxdur. O izah edib ki, əgər göstərici 50-dən aşağıdırsa, deməli, korrupsiya dövlət üçün ciddi problemdir: "Biz heç vaxt bu xətti (50-dən yuxarı), hətta ən yaxşı illərimizdə keçməmişik. İndi Hayastanda vəziyyət inqilabdan əvvəlki dövrdəki qədər pis olmasa da, bir qədər də pisləşib".

Bu xüsusda son günlər erməni mediasında kifayət qədər maraqlı məlumatlar yer alıb və indiki baş nazir Nikol Paşinyanın əməllərinə xüsusi diqqət yetirilib. Məsələn, qeyd olunub ki, 6 il bundan əvvəl heç nəyi olmayan Paşinyan və ailəsi ötən müddət ərzində Hayastanda ən varlı insanlara çevriliblər. Postmüharibə dövründə əhalinin gəlirlərinin azalmasına, iş yerlərində ixtisarlara və müəssisələrin bağlanmasına baxmayaraq, bu, baş nazirin rifahına təsir etməyib.

"4rd.am" nəşri yazır ki, Rusiyaya qarşı çıxaraq Qərbin kölgəsində qorxaqcasına gizlənən Paşinyanın ölkənin ən kasıb baş naziri sayıldığı günlər artıq keçib. 2018-ci ilin yazında o, Hayastanın yüksəkvəzifəli rəsmilərinin etika komitəsinə bir bəyannamə təqdim edib, onun bir il üçün qazancı təqribən 16 min dollar təşkil edib, eyni zamanda bu məbləğin 12 min dolları deputat maaşı hesab olunur: "Məlum oldu ki, Paşinyan və həyat yoldaşının xarici aktivləri, bank hesabları və ya qiymətli kağızları yoxdur. Bununla yanaşı, Ermənistan hökumətinin başçısı heç bir daşınmaz əmlaka sahib deyil. Ermənistanın birinci xanımı Anna Hakobyanın 2018-ci ilin əvvəlində vergi vəsaiti 1000 dollar təşkil edib və ilin sonuna qədər bu məbləğ dəyişməyib".

Amma indi belə deyil. Bildirilir ki, bir vaxtlar "korrupsiyaya qarışsam, Ermənistan vətəndaşlarını məni meydanda asmağa çağırıram", - deyən Paşinyanın ailəsinin ABŞ-də malikanə alması ilə bağlı məlumatlar yayılıb: "Baş nazirin tərəfdarları bunun qarayaxma kampaniyası olduğunu deyirlər. Lakin biz də Ermənistandakı korrupsiya və yoxsulluğa qarşı mübarizə aparan Nikol Paşinyanın taxdığı 2 milyon dollara "Patek Phillippe" saatının fotosuna baxaraq gözlərimizə inanırıq".

Bütün bunlar Ermənistanı kifayət qədər narahat günlər gözlədiyindən, ölkənin üzləşdiyi ümumi böhranın daha da dərinləşəcəyindən xəbər verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Rüstəm Rüstəmov, Cavid Əsədov, Abit Əliyev, Ayaz Qasımov, Elxan İlyasov və Rafiq Hüseynov ehtiyatda olan polkovnik Əlikram Qasımova qardaşı

**ZAKİR BƏYBALA OĞLU QASIMOVUN**

İmişli rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mirqiyas Kazımov, Qambay Muradov, Hacı Ağaməmməd Məmmədov, Azər Baxışov, Elxan Behbudov və İxtiyar Qafarov ehtiyatda olan polkovnik Əlikram Qasımova qardaşı

**ZAKİR BƏYBALA OĞLU QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3860**
**Sifariş 199**

**Qiyməti 60 qəpik**